Bu bir xalq qəzetidi
ƏDALƏT

## Şəhidlərin bacı və ya qardaşları üçün müəyyən yardımlar edilməlidir



**”Ata, anası vəfat edən, eləcə də ailəsi olmayan şəhidlərin bacı və ya qardaşları üçün müəyyən yardımlar edilməlidir”.**

Bu təklifi deputat Fazil Mustafa Milli Məclisin plenar iclasında səsləndirib. O bildirib ki, şəhid ailələri üçün olan yardımlar onlarla bir yerdə yaşayan bacı və ya qardaşlarına şamil edilmir:

”Halbuki belə şəxslərin sayı elə də çox deyil. Çünki bəzən olub ki, şəhid bacısı, yaxud qardaşı bir evdə yaşayıb. Yəni, o məhz qardaşının himayəsində olub və onun qazancı ilə dolanıb. Dövlət qurumlarına üzümü tutub deyirəm ki, bu, say elə də çox deyil. Onlara da müavinət və ya ev verilməlidir”.

## Gömrüyün yubiley medalı təsis olunur



***Milli Məclisin plenar iclasında ”Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” yubiley medalının və ”Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə” medalının təsis edilməsi ilə əlaqədar ”Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Layihəyə əsasən Dövlət Gömrük Komitəsinin 30 illiyi ilə bağlı yubiley medalı təsis edilir.***

***Layihə müzakirələrdən sonra birinci oxunuşda qəbul edilib.***

## Birliyimiz, qardaşlığımızın təcəssümüdür

Bax:səh-2

## Əli Hüseynli: "Bu mövzuda çıxış edənlər, populizm axtaranlar olacaq"



**Milli Məclisin dünən keçirilən iclasında Əmək Məcəlləsinə təklif edilən dəyişikliklər müzakirəyə çıxarılıb. Dəyişikliyə əsasən bayram günü elan edilən 28 May - Müstəqillik Günü qeyri-iş günü, 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü iş günü hesab olunacaq.**

Bildirilib ki, Prezident İlham Əliyevin 15 oktyabr 2021-ci il tarixli sərəncamı ilə təsdiqlənən "Müstəqillik Günü haqqında" qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan olunub. Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram kimi qeyd ediləcək. Əmək Məcəlləsinə dəyişiklik isə uyğunlaşdırma xarakteri daşıyır. Müzakirələrdən sonra Əmək Məcəlləsinə təklif olunan dəyişiklik qəbul edilib. Plenar iclasda bəzi deputatlar oktyabrın 18-i Müstəqilliyin Bərpası Gününün Azərbaycanda qeyri-iş günü elan olmasını təklif ediblər. Deputatların təklifinə münasibət bildirən parlament sədrinin birinci müavini Əli Hüseynli bu məsələnin Əmək Məcəlləsinin predmetinə aid olmadığını deyib. O qeyd edib ki, Əmək Məcəlləsinə təklif edilən dəyişiklik sadəcə texniki xarakterlidir, yəni bayramların adı digər qanunvericiliklərə uyğunlaşdırılıb: "Məcəllədə bayram günləri ifadəsi işlədilib. Komitədə bu məsələni müzakirə edəndə peşəkar hüquqşünaslar dedi ki, bu, texniki dəyişiklikdir. Amma mən bildirdim ki, bu mövzuda çıxış edənlər, populizm axtaranlar olacaq".

## Azad yurdum



Bax:səh-3

## Türkiyənin Azərbaycandakı böyük elçisi Cahit Bağcıya



**Hörmətli**
**sayın Böyük Elçi!**

Bu gün qardaş Türkiyə Cümhuriyyət bayramını qeyd edir. Bu gözəl gündə qardaşlarımızın yanında olmaqla, biz də həmin bayramın sevincini və qürurunu yaşayırıq. Böyük Atatürkün dünyaya bəyan etdiyi həmin müqəddəs gündən keçən 98 il müddətində Türkiyə heç kimə yenilmədi, hər zaman öz iradəsini, qürurunu, dövlətçiliyini qorudu və bugünümüzə gətirdi. Artıq bu gün dünya Türkiyə ilə hesablaşmaq zorundadı.

Biz bir millət, iki dövlət olaraq, yaşadığımız bütün ağrı-acılarda, sevincli günlərdə bir yerdə olduq. Xüsusilə, Azərbaycan torpaqlarının işğalı zamanı Türkiyədən aldığımız qardaş dəstəyi, 44 günlük savaşımızda sayın Cümhur Başqanımız Rəcəb Tayyib Ərdoğanın və bütün Türkiyənin yanımızda olması bizi qələbəyə qovuşdurdu. Torpaqlarımız işğaldan azad edildi. Bu azadlığı, bu qələbəni birlikdə paylaşdığımız qardaş Türkiyə və onun dövlət rəhbərliyi dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Türkiyə olan yerdə Azərbaycan var, Azərbaycan olan yerdə Türkiyə!

Sayın Cümhur Başqanımız Şuşaya, Füzuliyə, yəni işğaldan azad edilmiş torpaqlarımıza səfərləri ilə türkün böyüklüyünü, məğrurluğunu, onun yenilməzliyini göstərməklə yanaşı, həm də bəyan etdi ki, bu gün bir millət, iki dövlət olan Türkiyə və Azərbaycan əbədi qardaşdır. Kimsə onların haqqına əl uzada bilməz!

**Sayın Böyük Elçi!**

Biz qardaşlarımızın Cümhuriyyət bayramını öz bayramımız kimi qeyd etməklə sizləri də bağrımıza basır və Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, qardaşlığımızın, dostluğumuzun, sarsılmaz birliyimizin müqəddəs və əbədi olduğunu bir daha vurğulayırıq.

**Tanrı türkü qorusun!**
**Tanrı qardaşlığımızı qorusun!**
**Bayramımız mübarək!**

**Hörmətlə,**
**millət vəkili Aqil Abbas**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 94 (5926) 30 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

# "Bandotdel" kibercinayətkarı yaxaladı



**Daxili İşlər Nazirliyi tərəfindən bank kartlarından pul vəsaitlərinin oğurlanması və elektron məlumatların onlayn yolla ələ keçirilməsi barədə vətəndaşlardan daxil olan şikayətlər əsasında əməliyyatlar davam etdirilir.**

**DİN-dən Adalet.az-a verilən məlumata görə, nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının həyata keçirdikləri növbəti əməliyyat-texniki tədbirlər nəticəsində müəyyən edilib ki, paytaxt sakini, yetkinlik yaşına çatmadığına görə şərti adı Əlizamin İslamov olan şəxs müxtəlif kibercinayətkarlıq üsullarından istifadə edərək ”İnstagram” sosial şəbəkəsində ”baxıcı_falcı_arzu” adlı saxta səhifə yaradıb.**

**Daha sonra şəxsi məqsədləri üçün həmin vəsaitlərlə onlayn alış-veriş edərək pulları nağdlaşdırıb. Əlizamin İslamov bu müddət ərzində vətəndaşların hesablarından 100 min manata yaxın pulu çıxararaq xüsusi proqramlar vasitə ilə ələ keçirib. Bundan əlavə Əlizamin İslamov öz qanunsuz əməllərinin miqyasını genişləndirmək, daha çox pul vəsaiti ələ keçirmək və virtual mütəşəkkil cinayətkar dəstə yaratmaq məqsədi ilə ”Telegram” ani mesajlaşma tətbiqində özünə məxsus kanal yaradıb. Bir daha vətəndaşlara müraciət edərək bildiririk ki, şəxsi anket və bank kartlarındakı məlumatları heç bir halda tanmadıqları şəxslərə göndərməsinlər. Bu cür hallarla üzləşdikləri təqdirdə isə dərhal polis əməkdaşlarına, həmçinin Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə məlumat versinlər.**

## Peyvənddən imtina edən şəxslər dövlət hesabına müalicə olunmayacaq



**”Koronavirus əleyhinə peyvənddən imtina edən və bu xəstəliyə tutulan şəxslərin müalicəsinin dövlət hesabına qarşılanması məsələsi gündəmdə deyil və gələcəkdə necə olacağını bilmirəm”. Parlamentin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bu haqda Milli Məclisin plenar iclasında çıxış edib.**

Sədr həmçinin Prezidentin sərəncamı ilə icbari tibbi sığorta xidmətlərindən pulsuz yararlanan siyahıdakı şəxslərin (pensiya alanlar, şəhid ailələri, hamilələr, uşaqlar, tələbələr və s.) xidmətlər zərfinə aid olan 1500 pullu xidmətlərdəki istifadə qaydalarına da aydınlıq gətirib: ”Bu məsələ aidiyyəti qurumlarla müzakirə olunub. Əminliklə bildirilib ki, dövlət büdcəsindən sığortası qarşılanan şəxslərin müalicələri bundan sonra da pulsuz olaraq davam edəcək”.

## Azərbaycanda yenidən devalvasiya olacaq?

**Azərbaycan Mərkəzi Bankı (AMB) manatın məzənnəsi, ölkədə yenidən devalvasiya olacağı barədə fikirlərə münasibət bildirib.**

Adalet.az xəbər verir ki, bu barədə qurumun sədri Elman Rüstəmov keçirdiyi mətbuat konfrasında danışıb.

"Biz medianı izləyirik. Mənə də maraqlıdır ki, belə başlıqlarla yazılan xəbərlər haradan yaranır. Bu iddiaların heç biri peşəkar şəxslərin deyil. Mövcud makroiqtisadi şərait iqtisadi inkişafı dəstəkləyir. Biz tədiyyə balansında əhəmiyyətli profisit gözləyirik. Bildiyiniz kimi, beynəlxalq təşkilatlar neftin qiyməti proqnozunu əhəmiyyətli dərəcədə qaldırıb. Bu gün Milli Məclisdəki sənədlər İqtisadi Şurada müzakirə olunub. Manatın məzənnəsinə heç bir təhdid və təzyiq yoxdur. Əksinə, manatın məzənnəsinin möhkəmlənməsinin əhəmiyyətli təzyiqi var. Bu, bizim iqtisadi strategiyamıza uyğun deyil. Ona görə də ilin sonuna qədər bu təzyiqin azalması gözlənilir. Əhalini belə qeyri-professional yazılarla həyəcanlandırmaq lazım deyil. Mən hamını ciddi sosial məsuliyyətə dəvət edirəm", - o qeyd edib.

## BAXMAYIN, YƏQİN ÇAX-ÇUXU DA VAR



**Son günlər həm saytlarda, həm də sosial şəbəkələrdə Azərbaycanın sabiq müdafiə naziri Səfər Əbiyevlə bağlı bir məlumat paylaşılır. Yazırlar ki, keçmiş nazir 3000 manat təqaüd alır və bu pula necə dolanır? Qısası, kəsək oturub daşın gününə ağlayır.**

Bu xəbəri oxuyanda xeyli güldüm. Yadıma olmuş bir əhvalat düşdü. Ağcabədidən bir kəndli işsiz olması ilə bağlı az qala hər gün Brejnevə teleqram vurur. Və təbii ki, teleqramlar atılır bir kənara. Amma bir gün teleqram alanlar da yorulur və bizim Mərkəzi Komitəyə, bizim Mərkəzi Komitə də Ağcabədi Rayon Partiya Komitəsinə müraciət edir ki, o kişini tapın, ona bir iş verin, day zəhləmizi tökməsin.

Katib də həmin kişinin yaşadığı kolxozun sədrinə göstəriş verir ki, onun adını 300 manatlıq bir işə yazın.

Bir gün katib yolunu həmin kolxoza salır. İclasdan sonra həmin kişini qaldırır ayağa soruşur:

***- Məhəmməd kişi, işlər necədir? Nə qədər maaş alırsan?***

Məhəmməd kişi də deyir:

***- Üç yüz manat, yoldaş katib.***

O vaxt 300 manat çox böyük pul idi. Təxminən 100 kilo təzə ət ala bilərdin. Onu da deyim ki, həmin dövrlərdə 1-ci katiblər də rayonun əhalisindən asılı olaraq 280-320 manat məvacib alırdılar.

Katib:

***- Məhəmməd kişi, day nə istəyirsən, elə mən də üç yüz manat maaş alıram.***

Məhəmməd kişi bığaltı gülüb deyir:

***- Yoldaş katib, baxma, sənin gündəlik çax-çuxun olar.***

İndi baxmayın, Səfər Əbiyevin də yəqin nazir vaxtı yığdığından başqa, gündəlik çax-çuxu da var.



*Vilayət Quliyev*

## "Qədim türklər"

**Ermənilərin türk xalqlarına qarşı çevrilən ən gülünc iddialarından biri də onları köçəri həyat tərzi keçirməsi və mədəniyyətdən uzaq qalmalarıdır. Lev Qumilyov tarixi bestsellerə çevrilmiş ”Qədim türklər” kitabında iddianın əsassızlığını göstərərək yazır: ”**

**”Çin şairi orta səviyyəli köçərinin yaşadığı adi bir yurtu təsvir etmişdi. Xan yurtu isə hətta Vlaxeri sarayının dəbdəbəli salonlarını görmüş Menandr Protektoru - Bizans imperatorunun əsilzadəsini də heyrətləndirmişdi.**

**O, içərisində qızıl taxt-tac olan çadırın təsvirini vermişdi - çadır elə yüngül imiş ki, onu bir at da apara bilərmiş. İkinci çadır içəridən başdan-başa ipək parçalarla örtülübmüş, üçüncü çadırda isə qızıl suyuna çəkilmiş sütunlar və üzərində xanın taxtını saxlayan qızıl tovuzquşu fiqurları varmış. Bütün bu zəngin zinət şeyləri müasir dövrə gəlib çata bilməzdi - ağac və xəz çürümüş, qızılla gümüş təzədən əridilmiş, silah isə paslanıb dəmir tozuna çevrilmişdi. Lakin yazılı mənbələr əsrlər arxasında türklərin qədim mədəniyyəti ilə bağlı məlumat hifz etmişdir. Bu mənbələr azsaylı arxitektura tapıntılarından daha qiymətlidir”.**

**Yeri gəlmişkən Bizans tarixçisi və diplomatı Menandr Protektor türk yazısı haqda məlumat verən ilk avropalı müəllifdir.**

## Oxucuların nəzərinə

**Oktyabr ayından “Ədalət” qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

## ZAUR ƏLİYEV: META ÜÇÜNCÜ GÖZ DEMƏKDİR



**Dünya yeni bir nəzarət sisteminə keçir, çoxları buna lağ eləsələr də reallıq birdir : insanlara və informasiyaya nəzarət üçüncü gözün əlində cəmlənir.**

Facebookun qurucusu Mark bu gün milyardlarla dollar dəyərində olan sosial şəbəkələri Meta adı altında birləşdirdi. Əksəri bu Meta sözünü texnoloji söz, bəziləri isə bunun yaddaş mənası kimi izahını versələr də əsl həqiqət başqadır. Meta qədim ibrani dilində "sizi hər yerdə izləyirəm" mənasını ifadə verən Üçüncü Göz anlamını verir. Qədimdə Piramida ətrafında birləşən A ( yaradanlar) B ( rəhbərlər) C (xalq ) üzərində duran üçüncü gözə Meta deyirdilər...

Meta -Hər şeyi görürəm, hər yeri izləyirəm sistemi nəhayət yüz illərdən sonra yenidən sistemli şəkildə işə düşdü...

**Bundan sonra hər bir söz, cümlə və fikir.. hətta hərəkətlər bir bazada Meta-nın nəzarəti altında olacaq...**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## AĞDAM HƏMİŞƏ PAYTAXT OLUB, AMMA QARABAĞIN



***Dostumuz Qudrət Həsənquliyev təklif edib ki, Ağdamı Azərbaycanın paytaxtı elan eləsinlər. Zaman-zaman paytaxtın köçürülməsi gündəmə gəlir və hərə də bir yer göstərir. Təbii ki, paytaxtın köçürülməsi Bakının həddən artıq yüklənməsi ilə gündəmə gəlir. Əvvəla, paytaxt köçürmək o qədər də asan məsələ deyil, bunun üçün bəlkə də Azərbaycanın illik büdcəsi qədər vəsait lazımdır.***

***İkincisi, Bakı elə bizim paytaxtımızdır və dünyanın ən gözəl şəhərlərindən biridir.***

***Qaldı şəhərin həddən artıq yüklənməsinə, bunun səbəblərindən biri Qarabağın işğal altına düşməsi olub və Qarabağ camaatının 60-70 faizi Bakıya köçmək məcburiyyətində qalıb.***

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ



Sovet dönəmi. Vəli Xramçaylı universitetin jurnalistika fakültəsində oxuyur. Ateizm müəllimi Qədim Mustafayev Allahın yoxluğu ilə bağlı mühazirə oxuyur və sonda bir-bir tələbələri durğuzub deyir:

**- Denən Allah yoxdur.**

Hamı bir-bir deyir ki, Allah yoxdur. Axırda sıra Vəli Xramçaylıya çatır, o dillənmir.

Qədim müəllim soruşur:

**- Sən niyə demirsən?**

Vəli Xramçaylı:

**- Məllim, yoxdusa yoxdu, varsa niyə yoxdu deyib Allahla aramı vurum?!**

# Prezident Sərəncam imzaladı



**Prezident İlham Əliyev "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin bəzi müəssisələrinin və balansında olan obyektlərin özəlləşdirilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) aşağıdakı müəssisələri və balansında olan obyektlər (bundan sonra - müəssisə və obyektlər) özəlləşdirilməyə açıq elan edilsinlər:

1.1. bu Sərəncamın əlavəsində göstərilən hüquqi şəxslər;

1.2. siyahısı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Cəmiyyətlə razılaşdırılmaqla müəyyən edilən əmlak kompleksləri və qeyri-yaşayış binaları (torpaq sahələri ilə birlikdə), qeyri-yaşayış sahələri.

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsi ilə özəlləşdirilməyə açıq elan edilmiş müəssisə və obyektlərin:

2.1. özəlləşdirilməsi üsulları barədə qərarları, onların xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) 4.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qəbul edir;

2.2. özəlləşdirilməsində yerli investorlarla yanaşı xarici investorların da iştirakına icazə verilir.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. müəssisə və obyektlərin özəlləşdirilməsini Dövlət Proqramına uyğun olaraq həyata keçirsin;

3.2. özəlləşdirmə prosesində müəssisə və obyektlərin investorlar üçün cəlbediciliyinin artırılması məqsədilə məsləhətçi və qiymətləndirici şirkətlər cəlb etməklə onların restrukturizasiyasını (birləşdirilməsi, bölünməsi və digər səmərəli formada yenidən təşkili) təmin etsin, habelə borclarının restrukturizasiyasına və ya silinməsinə (dondurulmasına) dair təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Cəmiyyət:

4.1. müəssisə və obyektlər özəlləşdirilənədək onların idarə olunmasını və əmlakının qorunub saxlanılmasını təmin etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## *Xəstəxanalarda vahid qiymətlərin olması barədə layihə təsdiqləndi*



**Milli Məclis "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna təklif edilən dəyişiklik layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarıb. Layihə barədə məlumat verən parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib ki, dəyişikliklər qüvvəyə minəndən sonra tibb müəssisələrində fərqli qiymətlərin olması problemi aradan qaldırılacaq.**

Dəyişikliyə əsasən, xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edəcək. Dəyişiklik icbari tibbi sığorta ilə əhatə olunmayan və dövlət tibb müəssisələri üzrə əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərinin təsdiq edilməsinin hüquqi əsasının yaradılması məqsədilə hazırlanıb. Dəyişiklik "Tibbi sığorta haqqında" qanuna uyğun olarsa, xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərinin, habelə həmin qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) - TƏBİB-in tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA), digər tibb müəssisələrinə münasibətdə isə tabe olduqları dövlət orqanları (qurumları) tərəfindən təsdiq edilməsi ilə bağlı münasibətləri tənzimləyəcək. Qanun layihəsi müzakirələrdən sonra üçüncü - sonuncu oxunuşda qəbul edilib.

## *Peşə məktəblərində kredit sistemi təşkil olunacaq*

**Milli Məclis "Təhsil haqqında" qanuna dəyişiklik layihəsi II oxunuşda müzakirəyə çıxarıb. Dəyişikliklə peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədris müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kredit sistemi ilə təşkil olunacaq.**

Peşə təhsilini başa vuran məzunlara müvafiq qaydada təhsil haqqında dövlət sənədi - diplom və ya sertifikat verilir. Bundan başqa dəyişikliklə qanuna yeni bənd əlavə olunub. Yeni bəndə əsasən, peşə təhsil mərkəzinə qəbul olunan şəxslərə attestat da veriləcək. Dəyişikliyə əsasən, peşə təhsil mərkəzinə qəbul olunan şəxslərə yüksək texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil almaq hüququ da veriləcək.

Qanuna dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq II oxunuşda qəbul edilib.

**Nicat**

# Birliyimiz, qardaşlığımızın təcəssümüdür

**Tarixi Zəfər qələbəsindən sonra işğaldan azad olunmuş Qarabağda, 30 ə yaxın işğal zamanı erməni vandalları tərəfindən tamamilə dağıdılmış şəhər və kəndlərimizdə quruculuq - bərpa işlərinə başlanılıb. Artıq ilk növbədə enerji mənbələri müasir tələblərə cavab verən şəkildə bərpa olunur, strateji əhəmiyyət daşıyan yolların tikintisi sürətlə davam etdirilir.**

Quruculuq- pərpa işlərinin aparılmasını nəzarətində saxlayan ölkə Prezidenti tez-tez bu ərazilərəgəlr və aparılan işlərlə yerində tanış olur, müvafiq göstəriş və tapşırıqlarını verir.

İkinci Qarabağ müharibəsi dövründə həmişə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan quruculuq-pərpa işlərində də Türkiyənin ökəmizin yanında olduğunu görürük. Müharibədən sonra, !5 iyun 2021-ci il tarixində Azərbaycanın Mədəniyyət Mərkəzi Şuşa şəhərinə səfər edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Taiyyib Ərdoğan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə şəhərdə erməni vanddallarının törətdikləri vəhşiliklərrin şahidi oldu, hazırda aparılan quruculuq-bərpa işləri ilə tanış oldular. Elə həmin gün iki ölkə rəhbərləri arasında tarixi Şuşa Bəyannaməsi imzalandı.

26 oktyabr 2021-ci ildə Türkiyə Respublikasının Prezidenti Qarabağa növbəti dəfə səfər etdi və onun təyyarəsi qısa müddət ərzində inşa edilmiş, beynəlxalq standartlara cavab verən və açılışına hazırlaşdıqları Füzuli Beynəlxalq hava limanına endi. Hava Llimanının rəsmi açılış mərasimindən sonra Zəngilana yollanan prezidentlər, Ağalı kəndində aparılan inşa işləri ilə tanış oldular.

Ağalı kəndində jurnalistlər üçün təşkil olunan mətbuat konfransında çıxış edəmn Azərbaycan Res-



publikasının Prezidenti ölkəmizin Qarabağ bölgəsinə səfər edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı salamlıyaraq, Zəfər Qələbəsində Türkiyənin verdiyi dəstəyi Azərbaycan xalqının yüksək qiymətləndirdiyini bildirdi.

" 2021-ci il 15 iyun tarixində Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu Bəyannamə Türkiyə və Azərbaycan arasında əlaqələri müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi. Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də iki ölkə çiyin-çiyinə bir yerdə fəaliyyət göstərir. Şuşada və Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsitarixi hadisələrdir. Bu tarix birlikdə yazılır. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik.Bu gün regional işlərdə, hətta dünya miqyasında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib".

Müharibə dövründə, beynəlxalq səviyyədə Azərbaycanın yanında olduğunu diqqətə çəkən Prezident İlham Əliyev bildirdi ki, "İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Müharibənin ilk saatlarında Türkiyə bəyan etdi ki, Azərbaycan tək deyil və Türkiyə Azərbaycanın yanındadır. Bu addım Azərbaycan üçün çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi. Azərbaycan xalqı Türkiyənin dəstəyini yüksək qiymətləndirir. Bu səfərlər əsl qardaşlıq və dostluq nümunəsidir. Bu, həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik, bizim birliyimiz sarsılmazdır və əbədidir".

Prezident İlham Əliyev çıxışı zamanı bildirdi ki, Türk Şurası təsirli beynəlxalq təsisatdır. Gələn ay Azərbaycan Türk Şurasında sədrliyi Türkiyəyə təhvil verəcək. Türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq əlaqələri daha da güclənəcək və bütün Türk dünyası üçün yeni imkanlar açılacaq.

Zəngəzur dəhlizinin strateji əhəmiyyəti barədə danışan İlham Əliyev, məlumat verdi ki, "Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək.

Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır və bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Cari ilin 26 oktyabr tarixində təməli qoyulmuş avtomobil yolu da Zəngəzur dəhlizinin bir hissəsidir. Avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində ölkələrimiz istəklərinə nail olacaqdır".

**Türkiyə ilə Azərbaycanın birgə gücü daha da təsirli olacaq. Azərbaycanın azad edilmiş torpaqlarında fəaliyyət göstərən bir çox Türkiyə şirkətləri yorulmadan çalışırlar. Türkiyə şirkətlərinin səyləri nəticəsində bu gün bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir. Bu, bir daha bizim birliyimizin, qardaşlığımızın təcəssümüdür. Bundan sonra da Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək, xalqlarımız birbirinə daha da yaxın olacaq, dövlətlərimiz bundan sonra da uğurlu əməkdaşlıq edəcək.**

**Rüstəm Hacıyev**

# Müharibə ehtimalı gerçəkləşir: Düşmən "münaqişə bitməyib" deyib Şuşa ətrafına ağır texnikalar yığarsa...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin" müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər:"Biz də hazırıq.İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda. Biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik".**

Bəli bəzi prosesləri yenidən və diqqətlə nəzərdən keçirəndə Ali Baş Komandanın haqlı olduğu ortaya çıxır.

Adalet.az xəbər verir ki, Türkiyə və Azərbaycan ordusunun intensivləşən təlimləri, hazırlıqlı vəziyyəti bəzi dövlət başçılarının ürəyindən olmadığı bəllidir.

Azərbaycan ordusunun yeni silah-sursatla növbəti dəfə təminatı da analitiklərin gözündən yayınmır. Hələ bu ilin fevral ayında Prezident İlham Əliyev Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində belə bir fikir söyləmişdi: "Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Azərbaycan öz ordusunu "bundan sonra da gücləndirəcək"

Artıq avqust ayında İsrailin nüfuzlu "İsrael Hayom" nəşri yazırdı: "Azərbaycan İsrail şirkətlərindən 2 milyard dollarlıq silah almaq üçün danışıqlar aparır. Bu sövdələşmələr silah alqı-satqısına qarşı ermənilərin təzyiqlərinə baxmayaraq, Bakı ilə münasibətlərin İsrail rəsmiləri üçün əhəmiyyətinin sübutu olacaq",- nəşr vurğulamışdı.

Münaqişə bitməyib ki...?

***Eyni zamanda rəsmi Bakı dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsi bitib, belə bir problem yoxdur, belə bir ərazi də yoxdur. Azərbaycan tərəfi Ermənistanı sülh sazişi imzalamağa çağırır və Qarabağı unutmağa dəvət edir. Əks təqdirdə, bunun fəsadlarının ağır olacağını da dilə gətirməkdən çəkinmir.***

Buna baxmayaraq, Ermənistanın baş naziri Nikol Paşinyan seçkilərdən sonra postuna əyləşən kimi iddialı və həyasız açıqlamaları ilə dünyanı təəccübdə qoydu. O, Ermənistan Müdafiə Nazirliyində keçirdiyi görüş zamanı bildirib ki, Qarabağ münaqişəsi mövcuddur və bu barədə bütün beynəlxalq ictimaiyyət danışır. "ATƏT-in Minsk Qrupu həmsdərlərinin 13 aprel bəyanatı var. Orada açıq şəkildə münaqişənin davam etdiyi, onun təcili həll edilməsinin lazım gəldiyi bəyan edilib. Üstəlik, həmin bəyanatda münaqişənin hansı şəkildə və formatda həlli yolları və detalları göstərilib. Bu o deməkdir ki, beynəlxalq aləm də təsdiq edir ki,



Qqarabağ münaqişəsi həll olunmayıb. Bizim faktiki mövqeyimiz də həmin beyənəlxalq aləmin mövqeyi ilə eynidir".

Paşinyan sərhədd məsələsinə də toxunub. O deyib ki, Azərbaycanla sərhədlərin demarkasiya və delmitasiyası hazırkı şəraitdə mümkün deyil. O, bunu belə əsaslandırıb ki, Azərbaycan Ordusu faktiki mövqeyində dayandıqca, problemi həll etmək mümkün olmayacaq.

"Təəssüf ki, sülh təkcə bizdən asılı deyil. Hesab edirəm ki, bizimlə yanaşı, beynəlxalq ictimaiyyət də lazımi təzyiqləri göstərərsə, regional təhlükəsizliyi təhdid edən ölkəni konstruktiv mövqeyə gətirə bilərik".

Baş nazirin belə təxribatçı açıqlamasından sonra münasibətlərin daha gərgin müstəviyə keçəcəyi şübhə doğurmurdu.

### *Şuşa ətrafına ağır texnikalar?*

Hərbi ekspert Ədalət Verdiyevin mediaya açıqlaması bir daha erməni məkrini ortaya qoydu. O, ermənilərin Şuşa ətrafına - Xocalı rayonunun Daşkənd kəndinə tank, top və 100-ə yaxın ağır texnika toplaması barədə paylaşdığı informasiya hər kəsin diqqətini çəkdi: "Təqdim edilən fotolar yenidir, dünən çəkilib. Məlum olduğu kimi, peyk görüntüləri ayda bir dəfə və ya iki aydan bir yenilənir. Ancaq sözügedən fotolar oktyabr ayı üçün olan vəziyyəti əks etdirən şəkillərdir".

Onun sözlərinə görə, texnikaların Şuşa ətrafında cəmləşdirilmə səbəbinin 3 mümkün versiyası mümkündür:

***"Birincisi, bu texnikalar ermənilərin qanunsuz şəkildə yerləşdiyi mövqelərdən çıxarılıb həmin əraziyə cəmləşdirilə bilər. İkincisi, Azərbaycanın ciddi təzyiqlərindən sonra qanunsuz erməni hərbi birləşmələrinin və texnikalarının ümumiyyətlə Qarabağdan çıxarılma prosesi başlaya bilər. Çünki bir müddət öncə rus sülhməramlılarının qanunsuz erməni postlarını dağıtdığı və partlatdığı ilə bağlı məlumatlar yayılmışdı.***

Üçüncüsü isə odur ki, separatçılar öz əməllərindən əl çəkməyərək qanunsuz şəkildə olduqları mövqedə qalmağa davam edirlər. Azərbaycan dövləti isə məlum fotolarla bölgədəki bütün hərəkətləri izlədiyini və hər şeydən xəbərdar olduğunu göstərir".

Bu yerdə alman səyyahı Alferd Kertenin ermənilər haqqında dediyi bir fikir yadıma düşdü:"Türklərlə iş görəndə sözlə danışmaq kifayətdir, müqavilə bağlamağa da ehtiyac yoxdur… Əgər yunanla iş görmək istəyirsinizsə, mütləq müqavilə bağlayın, erməni ilə belə bir fikriniz olarsa, onda heç bir sənədləşmə aparmağın əhəmiyyəti yoxdur, sadəcə şərə rast gələcəksiniz. Erməni ilə rastlaşmaq təhlükəlidir, onu yuxuda görmək də xeyir gətirmir…"

**200 ildir ermənilərlə qonşuyuq yox. iç-içə yaşayırıq. Zatən Azərbaycan hökuməti də, Azərbaycan Ordusu da, Azərbaycan xalqı da erməniləri almanlardan da digər millətlərdəndə yaxşı tanıyır. Ona görə də atalarımız dediyi kimi itlə dostluq et, çomağı yerə qoyma".**

**Atalar nə deyiib, düz deyib.**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# AĞDAM HƏMİŞƏ PAYTAXT OLUB, AMMA QARABAĞIN

*Dostumuz Qudrət Həsənquliyev təklif edib ki, Ağdamı Azərbaycanın paytaxtı elan eləsinlər. Zaman-zaman paytaxtın köçürülməsi gündəmə gəlir və hərə də bir yer göstərir. Təbii ki, paytaxtın köçürülməsi Bakının həddən artıq yüklənməsi ilə gündəmə gəlir. Əvvəla, paytaxt köçürmək o qədər də asan məsələ deyil, bunun üçün bəlkə də Azərbaycanın illik büdcəsi qədər vəsait lazımdır.*

*İkincisi, Bakı elə bizim paytaxtımızdır və dünyanın ən gözəl şəhərlərindən biridir.*

*Qaldı şəhərin həddən artıq yüklənməsinə, bunun səbəblərindən biri Qarabağın işğal altına düşməsi olub və Qarabağ camaatının 60-70 faizi Bakıya köçmək məcburiyyətində qalıb.*

*Şükürlər olsun ki, artıq Qarabağ işğaldan azad edilib və bölgədə çox böyük işlər görülür. Uzaqbaşı, 4-5 ilə hamı öz*




*doğma elinə-obasına, torpağına qayıdacaq. Doğma torpağın nə qədər müqəddəs olduğunu torpaqda yaşayanlar və ən başlıcası da torpağını itirənlər çox gözəl bilirlər.*

*Bundan əlavə, regionlarda (qeyri-Qarabağ nəzərdə tutulur) iqtisadiyyat inkişaf edir, bu təkcə sosial abadlıq işləri deyil, yeni-yeni müəssisələr, fabrik və zavodlar açılır. Yəni regionlardan Bakıya işsizliyə görə gəlmiş insanlar da artıq yavaş-yavaş geri qayıdır.*

*Gələk Ağdamın paytaxt olmasına. Ağdam əslində paytaxtdır, amma Qarabağın paytaxtıdır.*

*Dəfələrlə yazmışam və yenə də yazıram, ən azı təkrar biliyin anası olmasa da dayısıdı.*

*Ağdam Qarabağın mərkəzində yerləşir: Füzuliyə - 48, Ağcabədiyə - 48, Bərdəyə - 48, Şuşaya - 37, Xankəndinə - 25, Tərtərə və Ağdərəyə - 35, Laçına - 73, Kəlbəcərə - 80 və Qarabağın qapısı Yevlaxa - 70 kilometrdir. Qubadlı, Zəngilan, Cəbrayıla da təxminən 70-75 kilometrdi.*

*Ona görə də Pənah xan Ağdamı Qarabağın mərkəzi şəhərinə, müasir dillə desək, paytaxtına çevirmişdi. Və Pənah xan Ağdamı inkişaf etdirmək üçün, müasir dillə desək, oranı "Azad iqtisadi zona" elan etmişdi və bu şəhərə investisiya yatıranlardan heç bir vergi tutulmurdu. Bu səbəbdən də Qarabağın ətraf rayonlarında nə qədər imkanlı adam vardı hamısı Ağdama axışırdı və burda həmin dövrə uyğun obyektlər, sexlər, yüngül fabriklər və sair və ilaxır açırdı. Nəticədə Ağdam Azərbaycanın ən böyük ticarət mərkəzlərindən birinə çevrilmişdi.*

*Şənbə-bazar günləri Ağdama Qarabağın bütün bölgələrindən, hətta Ermənistandan 10 mindən çox adam gəlirdi. Yerli əhali adətən şənbə-bazar bazara çıxmazdı, tünlüyə görə.*

*İndi Möhtərəm Prezident İlham Əliyev Ağdamı yenidən tikir, özü də sıfırdan başlayaraq. Və yaxın gələcəkdə bu şəhərdə 100 mindən də artıq adam yaşayacaq. Şəhər hazır olandan sonra burda müxtəlif ali məktəblər açılacaq, təbii ki, kənd təsərrüfatı ilə məşğul olan nazirliklər və komitələr də Ağdama köçürüləcək və Baş planla tanış olsanız görərsiniz ki, yeni tikilən Ağdam əslində kənd təsərrüfatı rayonu kimi deyil, sənaye rayonu kimi qurulur. Ağdamda əvvəllər də bir xeyli sənaye müəssisəsi, zavod və fabriklər vardı. Yəni əhalinin işlə təminatı yüksək səviyyədə həll ediləcək.*

*Hazırda Bərdə-Ağdam dəmir yolu sürətlə çəkilir. Bərdə-Ağdam şosse yolu demək olar ki, hazırdır, asfaltlaşmaya başlayır, küçələri qaydaya salınır, bir sözlə, icra strukturu qurulur.*

*Ağdam İlham Əliyevin şəhəri olacaq. Ümumiyyətlə, Qarabağda yenidən tikilən şəhərlər öz adlarını saxlasalar da, tarixdə İlham Əliyevin şəhərləri kimi qalacaq. Bu ayrı bir yazının mövzusudur, inşallah, onu da yazaram.*

*Atam bizə nağıl danışardı. Böyüyəndən sonra gördüm ki, atamın danışdıqları nağıl deyilmiş, tariximiz imiş. Sadəcə olaraq, nağıl formasında danışırmış ki, anlaya bilək.*

*Məsələn, atamın nağılları belə başlayardı:*

*- Biri var idi, biri yox idi, bir xanlar xanı Çingiz xan vardı…*

*Mən də övladlarıma heç vaxt "Məlikməmməd" nağılı danışmadım, tarixi nağıl formasında söylədim:*

*- Biri var idi, biri yox idi, bir şahlar şahı Şah İsmayıl vardı…*

*Və bir də həmişə deyirdim:*

*- Bakı bizim paytaxtımızdı, Şuşa göz bəbəyimizdi, Ağdam da ürəyimizdi!*

*Bəli, Bakı bizim paytaxtımızdır! Şuşa göz bəbəyimizdir! Qaldı Ağdama, o da ürəyimizdir!*

## *Lukaşenko: Türkiyə qlobal səviyyədə fəal rol oynayır*



**Suverenlik və müstəqillik Türkiyə kimi Belarus üçün də dövlət strukturunun sarsılmaz prioritetlərindəndir.**

Bu sözlər Belarus Prezidenti Aleksandr Lukaşenkonun Türkiyənin Cümhuriyyət Günü ilə bağlı təbrik məktubunda əksini tapıb. "Müasir reallıqlarda dövrün görünməmiş çağırışlarına effektiv müqavimət göstərmək üçün səyləri birləşdirmək vacibdir", - deyə o bildirib. Lukaşenko Türkiyənin dinamik inkişafına diqqət çəkib: "Türkiyə qlobal və regional səviyyədə fəal rol oynayır. Əminəm ki, Ərdoğanın rəhbərliyi altında Türkiyə 2023-cü ildə bütün istiqamətlərdə yeni möhtəşəm nailiyyətlər əldə edəcək".

**MEHRİBAN**

***Bir qrup rayon sakini ilə möhtərəm Prezidentlə Zəngilanın işğaldan azad edilməsinin birilliyinə həsr edilən görüşə gedirdik...***

***"İşğaldan azad olunmuş ərazilərə daxil olursunuz" lövhəsi ilə bizi qarşılayır Qarabağ və Şərqi Zəngəzur torpaqları...***

***"Zəfər yolu" ilə irəliləyirik...***

***Bütün yollar Vətən yoludur...***

***Ətraf mənzərələr erməni vəhşiliyinin, vandallığının qanlı nümunələrini, dağıntılarını, fəlakətlərini aydın göstərir...***

***Həm də quruculuğun - tək Azərbaycanın yox, Qafqazın ən böyük tikinti meydanına çevrilən bu ərazilərdəki dirçəlişin qürurverici mənzərələrini fəxrlə seyr edirik...***

Artıq Zəngilandayıq...

28 il əvvəl tərk etməyə məcbur olduğumuz, 27 il nisgilini qəlbimizdə ən böyük dərd, ələmi kimi saxladığımız, 1 il öncə isə müzəffər Ali Baş Komandanın "Dəmir Yumruğ"unun qətiyyəti sayəsində BİZİM olan Zəngilanımızdayıq...



# Azad yurdum





Keçirdiyim, keçirdiyimiz duyğuları ifadə etməyə sözmü var?!..

Ağrı ilə sevinc, kədərlə qürur, dağıntıların qüssəsi ilə qayıdışın qüruru - eyni anda, eyni məqamda iki təzadı yaşayırıq...

Məlum oldu ki, artıq dövlətimizin başçısı və birinci xanım da Zəngilana daxil olublar. Rayon ictimaiyyəti ilə görüşdən öncə onlar Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar. Sonra Zəngilanın yeni möhtəşəm ünvanlarından biri olacaq Beynəlxalq Hava Limanının tikintisinə baxıblar. Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə maraqlanıblar. "Azərişıq" ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və "Azərenerji" ASC-nin "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər.

Prezidentin tarixi fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Zəngilan da bu iqtisadi rayonun bir hissəsi kimi özünün yeni dövrünə, əmin-amanlıq, quruculuq həyatına başlayır.

Bu torpaqlar başdan-başa bolluqdur, bərəkətdir. Zəngin təbii sərvətlər qaynağıdır. Nadir flora və fauna incilərinin münbit məkanıdır. Zəngilanın gur çaylarını, şəfalı bulaqlarını, dünyada ikinci, Avropada birinci olan təbii çinar meşələrini və başqa təbii gözəlliklərini saydıqca bitən deyil.

Ötən ilə qədər biz bura - dədə-baba torpağımıza ayaq basa bilmirdik. Əvvəlcə Horadizdən, sonra Cocuq Mərcanlıdan qərib yurdlarımıza həsrətlə boylanırdıq. Buraların bir udum havasını duymaq istəyirdik. Doğma ocaq yerlərimiz bizim üçün xəyala çevrilmişdi. Bu torpaqlarla bağlı xatirələrimizdən təsəlli tapıb bir gün yenidən buralara dönmək ümidi ilə yaşayırdıq.

*İndi isə o xəyallardan Qarabağdakı, Zəngilandakı reallığa gəlmişik. Biz qayıtmışıq. Yenidən əcdadlarımızın uyuduğu torpaqlardayıq.*

*Məhz Prezident İlham Əliyevin sayəsində!*

Çoxumuz illər əvvəl əhd eləmişdik ki, təki torpaqlarımız azad olunsun, heç yol-iriz də istəmərik. Eləcə yaddaşımızdakı izləri tutub, qərib yurdların doğma iyini alıb, piyada gələrik! Ayağımızla, hətta maşınımızla gələ bilmədiyimiz bu yerlərə indi müasir hava limanına eniş edən təyyarələrlə gələ bilirik. Bu əzmə, bu dəyanətə görə də bütün el-oba cənab Prezidentə minnətdardır!

**Qarabağda, Zəngilanda indi gördüklərimiz düşündüklərimizi çox geridə qoydu!**

❖ ❖ ❖

Və nəhayət, möhtərəm Prezidentimiz və hörmətli Mehriban xanım təşrif gətirirlər...

Özləri ilə böyük səmimiyyət, bəsirət, ülviyyət də gətirirlər...

Bu torpaqlara azadlıq, zəfər bəxş edən qüdrətli Lider indi də bizə misilsiz sevinc bəxş edir...

Əl verib hər kəslə tək-tək görüşür...

Şəhid atasının boynun qucaqlayır, kövrəlir...

Hələ Mehriban xanım...

Bütün anaları bağrına basır...

Azərbaycan qadınının bütün nəcibliyi, alicənablığı, müqəddəsliyi məhz Mehriban xanımın simasında, əməlində, şəxsiyyətində təcəssüm edib...

Və bu görüş timsalında biz bunları bir daha aydın görürük...

Ayağımız yurd torpağındadır deyə, çox duyğulu, çox həyəcanlıyıq. Hamı əziz xilaskarımıza minnətdarlığını, sevgisini bildirmək istəyir...

Tələsirik, ürəyimiz sevgili sözlərlə doludur...

Söz çoxdur, ancaq vaxt yoxdur...

Uzun illərdir parlamentdə təmsil etdiyim həmvətənlərim adından söz alıram. "Qədim-qayım Zəngəzurun dilbər guşələrindən olan Zəngilanımıza xoş gəlmisiniz" deyirəm...

"Düzdür, bizi bu qərib yurdlara siz gətirmisiniz. İndi biz də ev yiyəsi kimi ürəklə Sizə "rayonumuza xoş gəlmisiniz!" deyə bilərik. Bu günümüzə şükürlər olsun!" - sözlərimə hamı qoşulur.

Xilaskarımız isə TƏVAZÖKARLIQLA gülümsəyir..

Hamımız çox həyəcanlıyıq. Sevincimiz yerə-göyə sığmır.

O gün böyük Heydər Əliyevin böyük ruhu da şad idi. Zəngilan camaatı Ulu Öndərin xilaskarlığını həmişə minnətdarlıq duyğusu ilə xatırlayır və xatırlayacaq. Əgər 1993-cü ildə o Böyük Tarixi şəxsiyyət olmasaydı, hər yerdən yolu bağlanmış və özünü Araza qərq edən zəngilanlıların da aqibəti Xocalı sakinlərinin faciəli taleyi kimi olacaqdı.

"Heydər Əliyev zəngilanlıların xilaskarı oldu. Siz isə cənab Prezident, Zəngilanın xilaskarı oldunuz!" - minnətdarlıq duyğuları ilə qəlbimdən süzülən bu sözlər, əslində, bütün elimizin təşəkkürü, şükranlıq duası idi...

❖ ❖ ❖

Zəngilan işğal olunanda anasının kürəyindəki şəlləkdə doğma yurdlardan çıxan körpələrin indi 30 yaşı var. Onları vətənpərvər, məsuliyyətli gənc nəsil kimi Prezidentin vətənpərvərlik siyasəti yetişdirdi, formalaşdırdı.

Onların hər biri Azərbaycanın igid əsgəri, zabiti kimi böyüdü. Bu hərbçilər qüdrətli Sərkərdəmizin əmrilə haqq-ədalət uğrunda vuruşub torpaqlarımızı azad etdilər, ölüm-dirim savaşına atıldılar və qalib gəldilər!

*Bəli, Suqovuşandan Şuşayadək zəfər yürüşündə məhz İLHAM ƏLİYEV mübarək adı əsgərlərimizi coşdurdu, qələbəyə köklədi!*

Azərbaycan Ordusu dağlarda, bu yüksəkliklərdə üç rəngli bayrağımızı ucaltdı. Kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz bir-birinin ardınca azad edildi. Ruhumuzun şəhəri, mədəniyyət paytaxtımız Şuşamıza zəfər bayrağı sancıldı.

Qəhrəman şəhid oğullarımızın ruhu qarşısında baş əyirik. Ruhları şad olsun!

İlham Əliyev Azərbaycan tarixində çox möcüzələr yaradıb. Çox əlçatmaz arzuları reallığa çevirib.

Torpaqlarımızın azadlığı bunların ən misilsizidir.

İndiyədək dünya Azərbaycanın iqtisadi modelini, milli inkişaf modelini, dövlət quruculuğu modelini öyrənir və əxz edir. İndi isə dünyanın ən güclü hərbi mərkəzləri, xarici dövlətlər İlham Əliyevin hərbi modelini öyrənir.

*Prezident möhtəşəm bir tarix yazdı - Zəfər tariximizi.*

*Müzəffər Ali Baş Komandan, eyni zamanda, Azərbaycan dövlətini, Azərbaycan xalqını müzəffər edən Şəxsiyyət kimi Tarixi Möcüzə yaratdı.*

*21-ci əsrin görünməmiş möhtəşəm qələbəsini və möcüzəsini!*

İndi Dövlət-millət-ordu genetik formulu yaranıb və möhkəm təməllər üstündə qurulub.

Millətləşmə, dövlətləşmə hissləri güclənib. Misli görünməyən yekdillik formalaşıb.

*Bütün bunları yaradan isə əlbəttə ki, Xilaskarımızdır!..*

❖ ❖ ❖

Təlatümlü dünyamızın bu vaxtında, müxtəlif siyasi maraqların toqquşduğu zamanda İlham Əliyevin uzaqgörən, cəsarətli siyasəti, mahir diplomatiyası ilə nə qədər çətin bir missiyanı yerinə yetirdiyini hər kəs bilir, görür.

O günlərin həyəcanlı, intizarlı, bir o qədər də sevincli-fərəhli anları həmişə bizimlədir.

İndi adam fikirləşir ki, bu tarixi, şərəfli missiyanızı həyata keçirəndə Prezident neçə 44 min həyəcanlı, narahat anlar yaşayıb.

*Qətiyyətli Sərkərdə kimi Ordumuzun Azadlıq mücadiləsinə rəhbərlik etməklə yanaşı, informasiya müharibəsində də fədakarcasına döyüşüb. Azərbaycanın haqq səsini müxtəlif kommunikasiya kanalları vasitəsilə dünyaya çatdırıb. Erməniləri və havadarlarını informasiya savaşında da məğlub edib.*

Keçirdiyi diplomatik görüşlər, telefon danışıqları, bildiyimiz və bilmədiyimiz, təsəvvür etmədiyimiz təzyiqlərin dəf edilməsi, bütün bunları sinxron, paralel şəkildə və necə ustalıqla yerinə yetirməyi - Onun Liderlik əzmindən irəli gəlir.

Bunların hamısının öhdəsindən ləyaqətlə, əsl qəhrəman kimi gəldi!

Camaatımız "Kişi oğlu kişi!" deməkdə çox haqlıdır!

*Bütün bunların hamısı Zəfər tariximizin qızıl səhifələridir!*

İlham Əliyev bütün çətinliklərə baxmayaraq bunu bacardı. Qələbə tariximizi yazdı. Adını bu tarixə əbədi yazdı. Milli qürurumuzu özümüzə qaytardı.

*Bu qürurun, bu tarixin müəllifi, bu Qələbənin Sərkərdəsi Odur...*

Həyat göstərdi ki, nəyi, necə, nə vaxt etdiyini O, daha dəqiq bilir. O baxımdan hələ indi də deməyəcəkləri var...

Amma biz bilirik ki, O, sabahımız üçün də, elə Qərbi Zəngəzurumuz üçün də nəyi necə edəcəyinizi indidən dəqiq bilir...

Və elə edir də...

*Müstəqil Azərbaycanımızın müzəffər Ali Baş Komandanı!*

*Qarabağın, Şərqi Zəngəzurun tarixi xilaskarı!*

❖ ❖ ❖

Coğrafiya bir taledir. Nə etməli, bizim də taleyimizə belə bir qonşuluq qisməti yazılıb. Dünyanın koronavirus pandemiyası ilə mübarizə apardığı zamanda ondan da betər virusa, xəstəliyə, saxta tarix xəstəliyinə, faşizm mərəzinə yoluxmuş məxluqlarla döyüşmək də bizim taleyimiz imiş.

Amma bilirik ki, bu nadanlar Afrika cəngəlliklərində, yaxud Avstraliya ucqarlarında yaşasaydılar belə, yenə mənfur vərdişlərindən, iddialarından əl çəkməzdilər. Oraları da məkrli savaş meydanına çevirərdilər.

*Bax, onda onlar da görərdilər ki, bu erməni xəstəliyi necə bir bəladır.*

**Həyat göstərdi ki, sən demə, bu məxluqların əlacı və ilacı İlham Əliyevin "Dəmir Yumruğ"unda imiş.**

Möhtəşəm, əzəmətli "Dəmir Yumruq"la erməni faşizminin başı əzildi, region bu bəladan xilas edildi.

İstəksiz, könülsüz, dişsiz ATƏT-in illərdir uzatdığı məsələ cəmi 44 gün içində yoluna qoyuldu. BMT-nin 30 ilə yaxın havada qalmış 4 qətnaməsinin icrasına 44 gün içində nail olundu.

Cənab Prezident bölgədə yeni bir tarixi reallıq yaratdı. Azərbaycanın dəmir qollarını Qarabağa, Zəngəzura və buradan da bütün dünyaya açdı. Biz zəngəzurlular indiyə qədər bu dəmir yollarının nostalgiyası ilə yaşayırdıq.

Buralardan keçən qatarlar o dövrün ən işlək sərnişin və yükdaşıma vasitəsi idi.

Xatırlamasam günah olar. Bakı-Noraşen, Bakı-Qafan, Bakı-İrəvan, Bakı-Mincivan... Kimin yadından çıxar?!

**Bu qatarlar arzularımızın qatarı idi.**

*Qurucu Prezident kimi bu dəmir qolları doğma yurdlarımıza açır, Azərbaycanın polad qollarını, əyilməz, bükülməz qollarını dünyaya qovuşdurur...*

*Bir zamanlar hərəkət qrafiki bölgə sakinlərinin zaman-vaxt ölçüsü idi. İndi yeni salınacaq möhtəşəm dəmir yolları ilə gələn bu qatarlar Zəngəzura yeni zaman, yeni ritm və yeni ruh gətirəcək.*

Azad etdiyiniz bu yurdları Prezidentimiz hörmətli Mehriban xanımla dəfələrlə qarış-qarış gəzir. Kəndləri, onların adlarını, qədim toponimləri əzbər bilən, mənasını izah edən, ən əsas üzə çıxardan və tarixi ədaləti bərpa edən milli lider kimi, təkcə bu yurdları yox, bu yurdların itirilən illərini də geri qaytarır Prezident...

*Əminik ki, Prezidentimiz qoşa qanad kimi, çox hörmətli Mehriban xanımla azad yurdlarımızı tezliklə cənnət-məkana çevirəcək...*

Azad edilmiş yurdlarımızda indi böyük bərpa-quruculuq işləri, "ağıllı kənd", "ağıllı şəhər" layihələri tezliklə reallığa çevriləcək...

❖ ❖ ❖

*Yekunda bir deyəcəyim, yazacağım qaldı. Bu fikirlər mənim qəlbimdə çoxdan nisgil bağlamışdı...*

*Bunların bir qismini Xilaskarımıza - Prezidentimizə də bütün zəngilanlıların diləyi kimi çatdırdım...*

*Dinlədi, məmnunluqla, daha doğrusu, əminliklə gülümsədi...*

*Və qarşıya - uca dağlara baxdı...*

*İnamla baxdı...*

*Qalib Komandan kimi baxdı...*

*Millətini və dövlətini aydın sabaha düzgün yolla aparan Müdrik Şəxsiyyət kimi baxdı...*

*Bu baxışlarda nələr yoxdu, İlahi?!.*

***... Uşaq vaxtı tez-tez bu dağlara çıxardıq. Çiyin-çiyinə durmuş təpələrə çay daşları, çınqıllar daşıyıb iri hərflərlə sözlər, şüarlar yazardıq. Bu sözlərin tarix kimi qalmasını istərdik. İndi bu dəmir yolları boyunca, azad olunmuş bu torpaqların köksündə, İlham Əliyevin yaratdığı abadlıq-inkişaf mənzərələri ilə yeni bir tarix yazılır...***

***Bu yeni tarixin sözlərini, zamanın diktə elədiyi şüarlarını zəfər tarixinin şahidləri olan xoşbəxt gənclər əzəmətli qələbə bayrağının dalğalandığı bu yurdlarda müstəqil Azərbaycanın bütövləşmiş xəritəsini dağlara, təpələrə hörəcəklər:***

***Qarabağ Azərbaycandır!***

***Zəngəzur Azərbaycandır!***

***Bu yurdların xilaskarına eşq olsun!***

***Böyük qayıdışımız mübarək, cənab Prezident!***

**İmamverdi İSMAYILOV,**
***Milli Məclisin deputatı***










Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az


# Xalqdan ayrı olanlar

*...Bu gün məmləkətimizdə elə qurumların, elə təşkilatların və elə idarələrin rəhbərləri var ki, onların qəbuluna həftələrlə, aylarla, illərlə düşmək mümkün deyil. Bunu kim bilməsə də, həmin məmurların qəbuluna gedən Azərbaycan vətəndaşları hamıdan yaxşı görür və bilirlər. Onlar yaxşı bilirlər ki, filankəs məmurun qəbuluna düşmək kosmosa uçmaq qədər çətin bir məsələdir...*

*...İllah da ki həmin məmura sənin işin düşə. Elə ki, sənin o məmura işin düşdü, tay qanın getdi. Aylarla, illərlə onun qapısında sürünməli olacaqsan və o məmur da xidməti maşınında rahat işinə gəlir, mühafizəçilərin müşayiəti ilə kabinetinə qalxır və isti otaqda əyləşib, guya çox vacib məsələlərlə məşğul olur. Burda deyiblər ey: "Acın toxdan xəbəri yoxdur".*

*...Heç kimə sirr deyil ki, ölkəmizdə vicdanlı, namuslu, dövlətə, Prezidentə sədaqətli olan məmurlar da var. Amma gəlin səmimi danışaq ki, onlar o qədər də çox deyil. Əgər onlar çox olsaydı, əhali bu qədər onlardan KİV-lərə və eləcə də yuxarı orqanlara şikayət ünvanlamazdı.*

*Məsələn, mən adam tanıyıram ki, (o, bizim redaksiyaya da müraciət edib) şəhid oğlunun adının əbədiləşdirilməsi üçün nə çox, nə az 5-6 dəfə icra başçısının yanında olub. Və o icra başçısı da ona kömək edəcəyini vəd edib. Amma bu şəhid ailəsi, bu şəhid atası aylarla gözləyib onun oğlunun adı düz bir ildir ki, hələ də əbədiləşdirilməyib. İcra başçısının vədinə və sözünə inanmayan şəhid atası yuxarı orqanlara da müraciət edib. Hələ də onlardan səs-soraq yoxdur...*

*...Sovet dönəmində raykomun, milisin, prokurorun qəbuluna düşmək çox asan idi. Və onda camaat indiki kimi əziyyət çəkmirdi. Uzaqbaşı həmin adam gəlirdi raykoma, birinci mərtəbədə onu qeydiyyata alırdılar və sonra bir gün keçməmiş raykom onu qəbul edirdi. Özü də nə problemi vardısa, həll olunurdu. İndi problem bir yana, vətəndaşlar icra başçısının qəbuluna düşmək üçün hansı çətinliklər yaşayırlar, onu bir Allah bilir. Və özü də icra hakimiyyətlərinin binası elə mühafizə olunur ki, heç ora yaxın düşmək belə mümkün deyil...*

*...Hətta elə icra hakimiyyətinin binası var ki, ora 15-20 metr qalmış post qoyulub. O postda da mühafizə xidmətinin əməkdaşları əyləşib. Başçının qəbuluna gələn adam həmin posta yaxınlaşmalıdır, dərdini ona deməlidir. O da telefon vasitəsilə icra hakimiyyəti ilə əlaqə saxlamalıdı. Hələ ona nə cavab veriləcək, verilməyəcək, bu, başqa söhbətin mövzusudur. Amma reallıq ondan ibarətdir ki, o maneəni keçib getmək və icra hakimiyyətinin binasına daxil olub dərdini demək çox çətin bir məsələdir...*

*...Ölkənin prezidenti cənab İlham Əliyevlə görüşmək olur, amma icra başçısı ilə görüşmək bir o qədər də asan deyildir. Çünki cənab Prezident öz sadə və səmimi münasibəti ilə həmişə xalq arasında çox böyük nüfuz qazanıb. Ona görə də bu xalq, bu millət Prezident İlham Əliyevi çox istəyir və onun yolunda ölümə belə getməyə hazırdı. Təəssüf ki, bu sözləri bəzi icra başçıları haqda demək mümkün deyil. Çünki onlar elə bir sədd çəkiblər ki, o səddi keçmək və aşmaq Çin səddinə bənzəyir. Balam, başa düşmək olmur, bu icra başçıları özünü kimdən və nədən qoruyur?*

*Sizi ora qoyublar ki, xalqa xidmət edəsiniz. Siz də bürokratik bir üsul yaratmaqla camaatın o binaya gəlib dərdini deməyə imkan vermirsiniz. Kimsə sizə dərdini deyəcəksə, 2-3 mühafizə xidmətindən keçməlidir, sonra da icra hakimiyyətinin binasına daxil olub qeydiyyata alınmalıdır. Axı o adamlar rayon mərkəzinə ucqar kəndlərdən, yaşayış məntəqələrindən gəlirlər. Üstəlik də, rayon mərkəzinə gəlib qayıtmaq üçün nə qədər yolpulu xərcləməlidirlər. Hələ biz yemək pulunu demirik...*

*...Görünən odur ki, bəzi icra başçıları hələ də köhnə inzibati amirlik metodundan əl çəkə bilmir. Özünü "kiçik padşah" kimi aparır və gözü ayağının altını görmür. Təbii ki, gözü ayağının altını görməyən icra başçısının insanlara olan laqeyd münasibətini o rayon camaatı yaxşı görür. Amma intəhası, o icra başçıları düşünür ki, bu kasıb təbəqənin adamlarının şikayətinə kimdi məhəl qoyan. Ancaq elə deyil. Günlərin bir günündə onlar vətəndaşlara olan bu münasibətlərə görə cavab verirlər. Necə ki, 5-6 rayonun icra hakimiyyətinin başçısı həbs olundu və cinayət məsuliyyətinə cəlb edildi...*

*...Həmişə vəzifədən gedənə vəzifə başına yeni gələn onun ölənlərinə rəhmət oxutdurur. Yəni camaat fikirləşir ki, təzə gələn vəzifəli şəxs köhnənin metodu ilə işləməyəcək, insanlara daha diqqətli olacaq. Təəssüf ki, əhali bir çox halda bunun əksini görür və köhnə vəzifəli şəxsin ölənlərinə təzələrə baxıb rəhmət oxuyurlar.*

*Bu yaxınlarda Gəncədə bir şəhid ailəsinin üzvü ona göstərilən laqeyd münasibətdən dərman içərək intihar etmək istəyib. Onun dediyinə inansaq, iş üçün dəfələrlə Gəncə şəhər icra hakimiyyətinin başçısının qəbuluna gedib. Ancaq onu qəbul etməyiblər. Nəticədə get-gəldən bezən həmin xanım çıxış yolunu intihar etməkdə görüb. Gəncə şəhər icra hakimiyyətindən bu məsələyə aydınlıq da gətirilib. Onların bildirdiyinə görə, xanımın vəziyyəti icra hakimyyətində pisləşib və onu təcili xəstəxanaya çatdırıblar. Hətta Gəncə şəhər icra hakimiyyətinin başçısı onu xəstəxanada ziyarət edib. Bu barədə fotogörüntülər də var.*

*Bir faktı qeyd edək ki, artıq insanların bəzi vəzifə sahiblərinə inamı və ümidi qalmayıb. Həmin hadisəni izləyən çoxlu sayda insanlar deyirlər ki, əgər icra başçısı vaxtında şəhid ailəsinə kömək etsəydi, onun dərdinə əlac qılsaydı, həmin xanım da xəstəxanaya düşməzdi. İndi, görün ölkədə nə qədər insan icra hakimiyyəti başçılarının qəbuluna gedir və ordan narazı qayıdır. Narazılığa səbəb isə, həmin adamların qəbul olunmaması, ya da qəbul olunub probleminin həll edilməməsidir. Çünki elə icra başçısı var ki, qəbuluna gələn adamları dinləsə də, onun problemini həll etmir, yalan vədlər verir, həmin adamı ötür-ötür oyununa salır. Və həmin insan da bezib ya intihar edir, ya da əsəbləşib başqa bir formada xəstəxanaya düşür.*

*Bəzi məmurlar elə düşünürlər ki, bu vəzifədə həmişəlik əyləşəcəklər. Və o kabinetə, o vəzifəyə atasının mirası kimi baxır. Düşünür ki, bu icra başçısıdırsa, onun qılıncının qabağı da, dalı da kəsməlidir. Heç kim ona söz deyə bilməz, irad tutmağı bacarmaz. Təəssüf ki, bu yanlış düşüncə həmin vəzifəli şəxsləri uçuruma aparır və nəticədə camaat, kütlə arasında böyük narazılıq yaranır. Bu narazılığın səsi hətta yuxarı instansiyalara qədər gəlib çatır. Və həmişə də yuxarıdan onlara deyilib ki, siz əhalini incitməyin, insanlara diqqətlə yanaşın və onlara xidmət eləyin. Bəli, bu yuxarıların tövsiyyəsidi.*

*Ümumiyyətlə, kimliyindən asılı olmayaraq, vəzifə kreslosunda əyləşibsə, o özünə, qohum-əqrəbasına yox, bu xalqa, bu dövlətə, bu millətə xidmət eləməlidir. Əgər həmin xidməti eləmirsə, bu vəzifəli şəxsdən narazılıq yaranacaq, giley-güzar olacaq. Bu narazılıqların, giley-güzarın qarşısını almaq üçün məmurlar cənab Prezident İlham Əliyev kimi sadə və səmimi olmalıdır. Xalqdan özünü heç kim ayrı təsəvvür etməməlidir. Özünü xalqdan ayrı təsəvvür edənin heç vaxt axırı yaxşı olmur.*

# Bərdə qətliamı: Yanmış və parçalanmış cəsədlər, suya qarışıb axan qan, bir də qan qoxusu: Şahidəm!

**28 oktyabr Azərbaycan xalqının yaddaşına yeni bir qara təqvim kimi yazıldı.**

Adalet.az xəbər verir ki. bu gün Bərdə qətliamının bir ili tamam olur və şahid olduğum o qətliamın ağırlığını oxucularıma bir şahid olaraq çatdırmağı özümə borc bilirəm .

28 sentyabrdan Quzanlıda internet tamamən kəsilmişdi. Yazıları redaksiyaya, gedib Bərdədən- qohum-tanışın evindən göndərirdim. Həmin gün Bərdə Mərkəzi Xəstəxana ilə üzbəüz yerləşən "köçkün binası"na getmişdim. Qonaq getdiyim Ağdam rayonun Göytəpə kəndindən olan Asif Əsədovun binanın həyətində kiçik bir "finski " ev- taxtadan otağı vardı . Orda həm də, Göytəpə ərazi icra nümayəndəliyi kimi də istifadə olunurdu. Kənan Yusiflinin iş otağı. Birinci yazını ordan göndərdim. Redaksiya ilə əlaqə saxlayıb bir azdan ikinci yazını da göndərəcəyimi dedim. Işimə fasilə verib binanın həyətində topalaşmış camaatın yanına yaxınlaşdım. Həmin gün hava günəşliydi, xoş idi. masmavi olan göyün üzərindən arabir topa-topa ağğappaq amma seyrək buludlar ötürdü. Uzaqdan atışma səsləri gəlməsəydi müharibə olduğu hiss olunmazdı.

***Atışma səsləri Ağdam və Tərtər tərəfdə getdikcə artırdı. Ötən gün Qarayusli kəndinə mərmilər düşmüş insanlar həlak olmuşdu deyə hamı arxayın idi ki, bu gün ermənilərin ağır artilleriyasının yönü Bərdəyə tərəf tuşlanmaz. Bu səbəbdən Bərdədə sakitlik idi hər kəs öz işinin-gücünün arxasınca düşmüşdü. Mağazaların bir çoxu açılmış, yanından ötüb gəldiyim "İrşadTelekom" , onunla üzbəüzdə yerləşən aptek, bərbərxanalarda açıq idi.***

Bərdədə bir arxayınçılıq, bir əminamanlıq hökm sürürdü, deyə Ağdam və TərtərBərdəyə pənah gətimişdilər. Onların xeyli hissəsi isə bu məhləyə yığışıb gəlmişdilər. Atışmanın dayanmağını gözləyirdilər ki, yenidən evlərinə dönsünlər. Orda Tərtərli gənc ana ilə söhbət edirdim. Serebral iflic olan, yerimə əngəlli 9 və 11 yaşlı iki övladının yanında oturub dərdindən, çəkdiyi əziyyətlərdən danışırdı. Həmin dövrdə hərbi geyimdə idim və sadə camaata elə gəlirdi ki, cəbhədə olub-bitəni bilmək, üstəlik onlara çatdırmaq da borcumdu. Əlbətdə, cəbhədə nə olub bitdiyi haqqında onlardan çox bilməsəm də, özümdən nağıllar quraşdırmaq məcburiyyətindəydim: Ordumuz erməninin bir batalyonunu məhv edib, komandirlərini generallarını partladıb, maşınlarını göyə uçurub. Ordumuz lap birinci Polad Həşimovun qisasını alıb" Allaha and olsun, bu sözləri özümdən uydururdum, camaatın ordumuza, qələbəmizə olan inamını möhkəmlətməkmək məqsədi daşıyırdı. Həmin vaxtlar şəhid tabutlarının evlərə intensive gəldiyi vaxtlar idi və belə sözlər lazım idi. (Ordumuza qurban olum, sən demə mənim uydurma dediyim sözlər əslində olubmuş, əslində ötən gün Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilib.

***Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da vardı. Ölkənin xüsusi xidmət orqanları ilə birlikdə həyata keçirdiyi parlaq əməliyyat nəticəsində Qarabağdakı qondarma rejimin "müdafiə ordusunun komandanı", general Cəlal Arutyunyan məhv edilib. Belə ki, C.Arutyunyanın getdiyi UAZ avtomobili raket zərbəsindən sonra tamamilə yanaraq hərbi cani ilə birlikdə məhv olub. Zərbə nəticəsində daha iki erməni zabiti də məhv edilmişdi.)***

Artıq günortaydı. Yerimdən qalxıb "finski "ofisə" getmək diğər yazını göndərməyə tələsdim. Cəmi iki-üç addım atdım. İlk "Smerç" "köçkün binası"nın 50 addımlığına - " İrşad Telekom" mağazasının düz qarşısına düşdü.

***Hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 gəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket düşdü Qəlpələr göydən yağış kimi məhləyə yağdı. Mərminin səsi elə dəhşətli idi ki qəlpələr yaxınlıqdakı şiferdən olan damların üstünə dolu kimi yağırdı. Qadınların uşaqların qocaların çaşqınlığı, həyəcanı, qışğırığı, səsi bir anda məhləni başına götürdü. İlk mərmi ilə 2-ci mərminin arası bir dəqiqədəndə az çəkdi.Yenə qəlpələr yağışa döndü. Təxminən "İrşadTelekom"un həndəvərindən alovla birgə qapqara tüstü göyə bülənd oldu.***



Tez telefon əlimdə hadisə olan yerə tərəf yüyürdüm. Polis mərmi düşüb yanan maşına yaxın buraxmadı. Qaçaqaça yenidən binaın həyətinə döndüm. Camaatın arasına çaxnaşma düşmüşdü. Oğlu, əri, qardaşı evdən çıxıb, iş dalınca, yaxud bazara, şəhərə gedən qadınların həyəcanlı bağırtıları, ağlaşmaları, qışqırıq səsləri həyəti başına götürmüşdü. Üçüncü mərmi "Pajarnı"deyilən yerə,şəhəri ikiyə bölən çayın o biri sahilinə düşdü. Səsdən , vahimədən şoka düşmüş, çaşqınlıq və stress içərisində olan camaatı zirzəmiyə yığmaq lazım idi. Orda Asif və Etibar Əsədovlarla birgə qocaları uşaqları, qadınları bir təhər zirzəmilərə yığa bildik. Bir ani epizodu unuda bilmirəm: Uşaqları şikəst olan ana onların arasında oturub dizlərinə döyüb bağıra-bağıra ağlayırdı. Həm şokdan həm də hansı uşağı birinci götürəcəyinə qərar verə bilməməyindən özünə əl qatmışdı

***Təsəvvür edirsiniz, adi vaxtda o köklükdə ağırlıqda olan uşağı qucağıma almağa güclük çəkərdim, amma həmin an yerdə qorxudan çabalayan şikəst uşağı necə belimə aldığımaı, necə zirzəmiyə qaçdığıma hələ də inanmıram. Mənim yəni bu qədərmi gücüm var imiş. Artıq həyətdə adam qalmadı. Bu dəfə yenidən çəkilişə başlamağa qərar verdim.***

Zirzəmidəki qadınların arxamca qışqırıb məni geri çağırmasını eşidirdim. Səsə dönmədim.Video çəkə-çəkə getdim çıxdım yenə "İrşadTelekom" un yanındakı yanğın yerinə. FHN-in əməkdaşları yanğını söndürməklə, "Təcili-Yardım" maşınları küçələrə səpələnmiş yaralıları yığıb xəstəxanalara daşımaqla məşğul idi. Hamı susmuşdu. Elə bil hamı şok keçirirdi. Yerlər qan içində idi gölməçə-gölməçə yangına tökülən su qan gölməçələri ilə birləşib küçə aşağı axırdı. Çox dəhşətli səhnəydi çox...

Özümü Mərkəzi xəstəxananın həyətinə çatdırdım. Yaralıların , ölənlərin çoxunu bura gətirmişdilər. Yenicə çəkilişə başlayırdım ki. Polislər mane oldu. Amma az da olsa çəkə bildim. Bu arada Bərdəyə gedəcəyimi ötən gündən bilən müəlliməm Şərqiyyə Dadaşova zəng etdi. Salam-sağol etməmiş : A, bala sağsanmı?-deyə soruşdu. Hönkürtümə oda ağladı və xəstəxananın həyətində naləsi göyə qalxmış anaların səsini eşidib, o da mənə qoşuldu.

İçdən yıxılmışdım amma bunu mənə inanan , məni güclü hesab edən insanlara göstərə bilməzdim. Çünki onlar bəlkədə əynimdəki hərbi paltara görə, mənə çox güvənirdilər, xətrimi əziz tuturdular.

***Həmin gecə şəhərdə demək olar ki, çox az adam qaldı "Köçkün"binasında da barmaqla sayılası adam qalmışdı. Orada qalanlar dedi ki, erməni bilmək olmaz axşam vaxtıdı Quzanlıya dönmə, qal burda, sabah gedərsən. Tanış xanım vardı, Şövkət Yusifli. Evinin açarlarını mənə verib ailəsi-uşaqları ilə birgə Yevlağa getdilər. Gecəni Şövkət xanımgildə tək - tənha keçirdim. Sözün düzü, gündüz gördüyüm dəhşətlərin təsirindən gözümü yuma bilmədim, maşın da yanan adam, yerdəki qan gölməçələri, ağlaşma, çığırtı, mərkəzi xəstəxananın həyətində ölənlərin yaxınlarının fəryadı Səhəri dirigözlü açdım. Səhər, qonaq olduğum evdə bir-iki loxma yeyib, "Pajarnı" tərəfə üz tutdum. (Dəyərli Fulya Öztürk də komandası ilə burdaydı).Bu ərazidə daha çox dinc insan öldürülmüşdü. Yenə çəkilişə başladım, qəhər boğazımı yandırırdı. Elə bu anda göy rəngli VAZ-2107 avtomobilinin oturacağında bir ovuc insan içalatını gördüm. Çəkilişi necə başa vurduğumu xatırlamıram.***

Son kəlməmi deyib, telefonu bağladım, dizim üstə asfalta düşüb ucadan elə hönkürə-hönkürə ağladım...Ağlaya-ağlaya da Allaha yalvarırdım: Ay Allah, bu müsibəti götürmə, Ay Allah bu insanların günahı nəydi?" Yumruğumu gah dizlərimə, gah asfalta çırpırdım. Birdə baxdım,. ətrafım adamla doldu. Ora gələndə fikir verməmişəm sən demə, həmin gün PA-dan ora rəsmi şəxslər gələcəkmiş. 2-3 "Təcili Yardım" maşını, xeyli də əlavə maşınlar vardı. Məni yerdən qaldırdılar, apardılar "Təcili Yardım"ın yanına, əllərimə -üzümə su vurdular, dərman içirtdilər. Özümə gələndə sorğu-suala tutdular, kimliyimi öyrəndilər, Ölənlərin hansına qohum olduğumu soruşdular... Əlbəttə, heç biri qohumum deyildi, soydaşım idi, günahsız insanlar idi...

Bərdə qətliamını hər xatırlayanda ilk yadıma düşən avtomobilin oturacağında parçalanmış bədəndən qalan bir ovuc içalat, suya qarışıb axan qan birdə dəhşətli dərəcədə ağır olan qan qoxusu...

Qeyd edək ki, Bərdə rayonu və şəhər mərkəzi İkinci Qarabağ müharibəsi dövründə ümumilikdə 3 dəfə (5, 27 və 28 oktyabrda) Ermənistan Silahlı Qüvvələrinin raket və ağır artilleriya hücumlarına məruz qalıb. Nəticədə 29 nəfər şəhid olub, 112 nəfər yaralanıb, rayonda yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

**Bərdə qətliamında həlak olanların yaxınlarına Allahdan səbr diləyir, bütün şəhidlərimizin ruhu qarşısında baş əuirəm!**

**Şəhidlərinə ruhuna ehtiramla**
**Möhtəşəm Vətən Müharibəsinin**
**savaş müxbiri Əntiqə Rəşid**

## *Emin Piri Təhsil Tv-nin qonağı olub*




**Vətən müharibəsi iştirakçısı, şair, Xızı rayon Türkoba kənd ümumi orta məktəbinin müəllimi Emin Piri Təhsil Tv-nin qonağı olub.**

V Qrant müsabiqəsinin qalibi olan Emin Piri verilişdə müəllifi olduğu "Zəfər klubu" haqqında, onun fəaliyyətindən bəhs edib. Sualları cavablandıran layihə rəhbəri yaxın aylarda məktəblilərin hekayələrindən, məktəblilərin məktublarından və özünün müəllifi olduğu "Müharibə gündəliyi"ndən ibarət kitab dərc etdirəcəklərini bildirib.

# Harda gəldi, avtomobili saxlamaq olarmı?

**Bakıda bir çox sürücülər nəqliyyat vasitələrini yolun hərəkət hissəsində bir, iki, üç cərgədə saxlayırlar. Bu da kobud qanun pozuntusu deməkdir. Çünki avtomobillərin bu cür saxlanılması digər nəqliyyat vasitələri üçün çətinliklər yaradır, avtobuslar dayanacaqlara daxil ola bilmir və nəticədə tez-tez tıxacların baş verməsinə gətirib çıxarır.**



Bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli "Ədalət"ə bildirib ki, sürücülər harda gəldi nəqliyyat vasitəsini saxlamamalıdır. Nəqliyyat vasitələri yol çiynində və eləcə də digər avtomobillərə maneçilik törətmədən saxlanıla bilər. Başqa sözlə demiş olsaq, küçələrdə avtomobilləri parkinq etmək olmaz. Amma elə ki, həmin avtomobillər yolun hərəkət hissəsində saxlanılır, bu, qanun pozuntusu deməkdir. Və həmin avtomobillər evakuator vasitəsi ilə götürülərək müvəqqəti duracağa aparılar. Yaxşı olar ki, sürücülər nəqliyyat vasitələrini istifadə etməyəndə və özlərinə məxsus həyətyanı sahələrdə saxlasınlar. Göründüyü kimi, nəqliyyat vasitələrinin harda gəldi saxlanılması birmənalı olaraq "Yol hərəkəti haqqında" Qanunun pozulması deməkdir və sürücülər buna görə inzibati məsuliyyət daşıyırlar. Yol polisi də bir daha sürücülərə xəbərdarlıq edərək bildirir ki, onlar qanunlara əməl etsinlər, avtomobilləri bir, iki, üç cərgədə saxlamasınlar. Çünki avtomobillərin bu formada saxlanması digər nəqliyyat vasitələri üçün problemlər yaradır.

**Emil FAİQOĞLU**


*Yılmaz Özdil*


# Cümhuriyyət qadındır



*1923.*
*İyul.*
*Cümhuriyyətin elan edilməsinə üç ay qalmışdı.*
*Mustafa Kamal həyat yoldaşı ilə İzmirə gəlmişdi.*
*İkiçeşməlikdəki Ankara Kinoteatrına getdilər.*
*Türkiyənin ilk kinorejissoru Cemil Filmer işlədirdi.*
*Salonda oturdular.*
*Salonu gözdən keçirtdi, ağzına qədər dolu idi, hamısı da kişi.*
*Səbəbini bilsə də, "Cemil, niyə heç qadın yoxdur?" deyə soruşdu. "Paşam, qadınlara yalnız çərşənbə axşamları film göstəririk" cavabını alan kimi yavərinə sarı çevrildi, "salonun yarısını boşaldın, bizi qarşılamaq üçün çöldə gözləyən qadınları içəri dəvət edin" dedi. Qadınlar göz yaşları içində alqışlayaraq salona doluşdular.*
*Birlikdə "Şarlo edama məhkumdur" filmini seyr etdilər.*
*"Həyatımda heç vaxt bu qədər güldüyümü xatırlamıram, bunu bir daha seyr etsək, olmazmı?" - dedi.*
*O, bu gözəl dəqiqələri uzatmaq istəyirdi.*
*Qəhqəhə içində yenidən filmi seyr etdilər.*
*Tariximizdə ilk dəfə qadınlarla kişilər birlikdə filmə baxdılar.*

***

*Cümhuriyyətin diqqət mərkəzi qadın idi.*

***

*Mədəni Qanun qəbul edildi.*
*Rəsmi nikah qüvvəyə mindi.*
*Eyni vaxtda birdən çox qadınla evlənmək qadağa olundu.*
*Yaş həddi qoyuldu, kiçik yaşda evliliklər aradan qaldırıldı.*
*Miras hüququnda cinsiyyət ayrıseçkiliyinə son verildi.*
*Qadınlara siyasi haqlar - seçmə və seçilmə haqqı verildi.*
*Bərabər təhsil hüququ tanındı.*
*Peşəyə sahib olmaq haqqı verildi.*

***

*Qadın insan deyildi.*
*Hətta əhali sayılarkən belə qadınlar nəzərə alınmırdı.*
*iribuynuzlu heyvanlar sayılırdı, amma qadınlar sayılmırdı.*

***

*1923.*
*Lətifə ilə birlikdə gəzintiyə çıxmışdı.*
*Adanaya gəldilər.*
*Bir qrup qadın ərləri ilə xəbər yollayıb "Lətifə xanımı qonaq etmək istəyirik" dedilər.*
*Mustafa Kamal bu təktərəfli dəvətə etiraz etdi.*
*"Mənim olmadığım yerdə həyat yoldaşım da ola bilməz" dedi.*
*Hərəm-səlamlıq (kişilərlə qadınların eyni mühitdə olmaması) anlayışını tarixə qovuşdurdu.*

***

*1923.*
*Darülbədayi sənətçiləri İzmirə gəldi.*
*Cəza Qanunu pyesini göstərəcəkdilər.*
*Mustafa Kamalı dəvət etdilər.*
*"Müsəlman türk aktrisanız varmı?" deyə soruşdu, cavabı gözləmədən Ahmed Rafet Muvahhitə sarı çevrildi, "yoldaşınızı Atəşdən köynək filmində seyr etmişdim, çox da bəyənmişdim, niyə Bedia xanıma teatrda rol vermirsiniz?" dedi.*
*O gecə səhərə qədər Bedia xanıma həm sözlər əzbərlətdirildi, həm də məşq etdirildi.*
*Mustafa Kamal Lətifə ilə birlikdə Kordon Palasa gəldi, yerlərinə yələşdilər.*
*Bedia Muvahhit Cümhuriyyət dövründə teatr səhnəsinə çıxan ilk müsəlman türk qadını oldu.*

***

*1923.*
*İstanbulda bərə-tramvay kimi ictimai nəqliyyat vasitələrində pərdə var idi, qadınlar pərdənin arxasında otururdular, hətta ərləri ilə də yan-yana otura bilməzdilər.*
*Mustafa Kamal pərdələri çıxartdırdı.*
*Elə bir radikal qərar idi ki, yalnız mühafizəkar kişilər deyil, Üsküdar Amerikan Kollecinin məzunu, aydın bir İstanbul qadını olan Halide Edip Adıvar da etiraz etdi, "bizim pərdəmizə niyə qarışırsınız?" dedi.*
*Tramvaylardakı pərdəni yox etmişdi, amma zehinlərdəki pərdəni yox etmək asan deyildi.*

***

*1925.*
*Süreyya hüquq fakültəsinin ilk qız məzunu idi.*
*Mustafa Kamalın dostu Əhməd bəy Ağaoğlunun qızı idi, Ankarada cinayət işləri baş idarəsində işləyirdi.*
*Bir gün dostu Melahatla birlikdə nahar üçün İstanbul restoranına getdilər. Paytaxtda tək restoran idi, yalnız millət vəkilləri gəlirdi.*
*Sürəyya ilə Melahat restorana girdilər, krantın yanındakı balaca bir masada oturdular.*
*Hamı onlara baxırdı.*
*Axşam evə gedəndə atası qarşısına oturtdu, kədərli idi, "bird aha restorana getməyin, dedi-qoduya çevirirlər" dedi.*
*Ertəsi gün təsadüfən Mustafa Kamalla Lətifə qonaq gəldilər.*
*Söhbət söhbəti gətirərkən Sürəyya dözmədi, "böyük bir dərdimiz var, restorana getmək istədik, problem oldu" dedi.*
*Ertəsi gün… Sürəyya işdə ikən Ədliyyə naziri Mustafa Necati bəy otağa girdi, "tez hazırlaş, Paşa səni yeməyə aparacaq" dedi.*
*Sürəyya qaça-qaça aşağı düşdü, Mustafa Kamal maşında gözləyirdi, "Lətifə səni gözləyir, tez elə min" dedi.*
*Çankayaya tərəf gedərkən İstanbul restoranının önündən keçirdilər, Atatürk sürücüdən maşını saxlamasını tələb etdi.*
*Bütün millət vəkilləri çöldə idi.*
*Hamısına səslənib "Sürəyya xanım bu restorana gələcək" dedi.*
*Məsələ həll olunmuşdu.*
*Sürəyya ertəsi gün Melahatla birlikdə restorana getdi.*
*Ondan sonrası gün yenə gedəndə bu dəfə İstanbul millət vəkilləri Hamdullay Suphi bəylə Ali Rıza bəyin xanımları da restoranda idi.*
*Türk qadınının yanında kişi olmadan restorana gedə bilmək azadlığı bax belə qazanılmışdı.*

***

*1925.*
*Gecənin qonaqları arasında Abdülhak Hamit Tarhanla özündən 42 yaş kiçik yoldaşı Lucienne var idi. Lucienne belçikalıydı.*
*Abdülhak Hamit bir-iki qədəhdən sonra özünü itirmişə bənzəyirdi. Qonaqlar arasında başqa xanımlar da var ikən yoldaşını göstərib "varmı türklər arasında belə xanım?" dedi.*
*Hamı donub qalmışdı.*
*Musfafa Kamal özünü güclə saxlayırdı, üzü hirsindən qıpqırmızı olmuşdu, sözünü düzəldər deyə heç eşitməmiş kimi davranıb "nə buyurdunuz, bəy əfəndi?" dedi.*
*Abdülhak Hamit əməlli-başlı sarsaqladı.*
*"Mənə bəy əfəndi deməyin, lütfən, sadəcə adam deyin" dedi.*
*Mustafa Kamal "Bax elə onu deyə bilmədiyim üçün bəy əfəndi deyirəm də" deyə cavabını verdi.*

*ardı var…*

*Dilimizə çevirən:*
*Eminquey*

# Özünəqayıdışın başlanğıcı – 3

**Mən o başlanğıcı 30 il gözlədim**

**Qarabağ otelinin ümumi mənzərəsi və oradakı uyut elə bizim həsrətini çəkdiyimiz yerlərin müəyyən mənada oxşarı idi. Və biz bu oteldə yerləşəndən sonra həyətə düşüb Bəxtiyar Qaraca ilə söhbət edə-edə ətrafı gözdən keçirtdik. Necə deyərlər, məkanımızla bir az yaxından tanış olduq. Tələbəlik dostum Eyvaz müəllim həmişəki isti yumoru ilə mənə tərəf bir söz atdı:**

***- Şair, nədi yenə baş-başa vermisiniz?***

Mən də elə həmin səmimiyyətlə cavab verdim:

***- Biz elə həmişə baş-başayıq, sözümüzü, fikrimizi bölüşürük. İnd idə sizin qonağınızıq. Gəlmişik, fikir çevrəmizi bir az da genişləndirək, tələbəlikdə olduğu kimi həm şeirdən danışaq, həm özümüzdən, həm də günümüzdən.***

***- Bu gün şeirdən danışmayacağam. Mövzumuz ancaq Qarabağdı, Tuğdu. Ona görə də gəlin, süfrə başına, qonaqlar hamısı artır əyləşib. Sonra istədiyiniz qədər söhbətləşərik. Qarşıda uzun bir gecə var - dedi Eyvaz müəllim.***

Qarabağ otelində açılmış süfrə başında yerimizi tutduq. Sağ olsunlar əziyyət çəkənlər. Zövq oxşayan, ən vacibi isə adama qayğı və diqqətlə hazırlanan bu məclis əsl ziya-



fət idi. Özü də Tuğa gedən yolun başlanğıcındakı ziyafət! Bunu unutmaq, buna dəyər verməmək şəxsən mənim tərəfimdən nankorluq olar...

Bəli, yeməkdən sonra yenə müxtəlif mövzularda söhbət, fikir mübadiləsi Asif müəllimlə Mübariz həkimin, Elman müəllimin, təbii ki, Eyvaz müəllimin hakimliyi ilə nərd oyunu həmin gecənin şənliyinə, ovqatına xüsusi bir istilik qatdı. Demək olar ki, az qala gecə yarıya qədər bizim qarşılıqlı fikir mübadilələrimiz səngimədi. Sonra hər kəs öz otağına çəkildi. Mən, Bəxtiyar Qaraca və Mübariz həkim də öz otağımıza...

Səhər sübhdən oyandıq. Yenə testdən keçdik və səhər yeməyindən sonra artıq saatın əqrəbləri 8:30-u göstərirdi. Biz Hadruta gedirdik, karvan yola düşmüşdü. Mən belə düşündüm ki, yəqin Horadiz yolu ilə gedəcəyik Hadruta. Amma hərəkətin istiqamətini izləyəndə gördüm ki, Zəfər yoluna qayıtdıq. Əhmədbəylidən Füzuliyə, oradan Şuşaya gedən yola. Yolun rahatlığına heç kimdə şübhə olmasın. Bu yolda adamı sıxan yalnız düşmənin viran qoyduğu dağılmış yurdlarımızın görüntüləridi. Hətta üzüm bağlarını da doğrayıblar. Tək-tək evlərin uçuq divarları qalıb. Qəbir daşları da çiliklənibdi... Baxdıqca ada-



mın ürəyi od tutub yanır. Dilinə, ağlına ən acı, ən təhqiramiz sözlər gəlir. İnsanlıqdan uzaq bir qəbilənin törətdiyi bu cinayətin adını tapmaq mümkünsüzdü...Yol gedə-gedə hardansa yadıma hələ 1992-ci ildə yazdığım kiçik bir esse düşür. Onda yazmışdım ki:

***Ana qucağından***
***isti yer,***
***Körpə qığıltısından***
***həzin musiqi -***
***Varmı dünyada?!***
***Ana - Ana***
***torpaq,***
***Övlad-əsgər.***
***Başını söykədiyin***
***sinəyə***
***sevgini göstər...***
***Ağrısını süd kimi əm!***
***Qəmin kəm,***
***Ana, qəmin...***
***Qəmin kəm torpaq,***
***Qəmin kəm...***

Bilmirəm, hardan düşdü yadıma bu esse. Amma əsgər - Övlad aldı Ananın qisasını. Aldı torpağın qisasını... Və Ananı ziyarət etdi, başının üstünə qaldırdı. Onu Ana ucalığına yüksəltdi - Əsgər!

Biz Fuzuli şəhərini keçib gedirik. Mən yol boyu bu yerlərə o qədər qəribə nəzərlərlə, duyğularla baxıram ki, elə bil gördüyüm hər şeyi köçürmək istəyirəm, hopdurmaq istəyirəm varlığıma, gözlərimə. Bunun səbəbi də məlumdur. 30 il həsrətini çəkmişəm. Hər qarışına bələd olduğum bu yerə 30 il tamarzı qalmışam... Ona görə "acgözlük" edirəm. Biz Zəfər yolunu Tuğ kəndinə yaxın ərazisindən Hadruta tərəf dönürük.

Yolumuzun sağ cinahından Tuğ kəndi boylanır. Başında bir topa bəmbəyaz bulud olan, bəmbəyaz duman olan Tuğ kəndi. Gənc dostlarım bu yerləri görməyiblər. Çünki onların uşaqlığı Vətəndə Vətənsizliyə qurban gedib. Yurddan, yuvadan uzaqda böyüyüblər. Bu səbəbdən onların Tuğ vadisinə, Quruçay çökəkliyinə necə qeyri-adi bir gözlərlə baxdıqlarını, telefonlarının kamerasına köçürməyə cəhd etdiklərini izlədikcə içimdə həm qürur hissi, həm də məhz bu gənclərin qəhrəmanlığı sayəsində yurdun azad olmasını böyük fəxarətlə yaşayıram. Onlara bir dəli minnətdarlıq gəlib keçir ürəyimə. Tez-tez hər ağacın, hər daşın görünüşünə münasibət bildirən, fikir soruşan Milli Qəhrəmanımız İbad Hüseynovun, Ceyhun Əliyevin, adaşım Əbülfətin sualları, istəkləri bu yolu müqəddəs bir ziyarətin yolundan da önəmlidir mənim üçün.

Çünki biz 30 ildən sonra qovularaq getdiyimiz yerə qalib kimi qayıdırıq. Və bu qalibiyyəti Azərbaycana yaşadan Ali Baş Komandan da bizimlə məhz burada görüşmək qərarını qəbul edib. Biz həm Hadrutu, Tuğu ziyarət edəcəyik, həm də Komandanımızla görüşəcəyik! Bu da Hadrut qəsəbəsi. Dolamaları qeyri-adi meşə mənzərəsini keçib daxil olmuşuq bu qədim yaşayış məskəninə. Elə ilk



diqqətimizi çəkən də bu qədim ünvanda tikintiyə hazır edilmiş meydançadı. Qeyri-ixtiyarı yol-yoldaşımız Azər Süleymanovdan soruşuram:

***- Azər, burda nə tikiləcək?***

***- Cənab Prezidentimiz burada məscid binasının təməl qoyulmasını edəcək.***

İnanın ki, bir anlıq susdum və sanki içimə hardansa bir işıq doldu. Demək, özümüz qayıtdığımız yerə inancımız, dinimiz də möhtəşəm bir şəkildə qayıdır. Bax, bu qələbənin mənə görə ən önəmli atributlarından biridir. Çünki Hadrutdan Azan səsi yüksələcək və bir də mənə məlum olan Hadruta dair tarixdə heç vaxtı bu ərazidə məscid olması barədə fikirə rast gəlməmişəm. Məncə, bu İlkdir!

Bəli, Hadrut qəsəbəsini yol-yoldaşlarıma təqdim edirəm. Bu Hərbi Komissarlığın binasıdı... Bu milisin... Bu raykomun... Bu xəstəxananın və s. Biz Hadrutun mərkəzindəki böyük çinarın dibindən keçəndə bir xatirə yadıma düşür. Deməli, bu ağacın dibində gözəl bir çayxana var idi və çayxanada işləyən erməni qadın da elə çinarın dibindəki bulaqdan da su götürüb qaynadıb satırdı müştərilərinə. Amma qəndi o qədər xırda doğrayırdı ki, yalan olmasın düyüdən, buğdadan bir az böyük. Səbəbini soruşanda deyirdi ki, ara, siz elə qəndi yeyirsiniz. Ona görə belə doğrayıram. Biz də onun acığına erməni qadın başqa masaya yaxınlaşanda, qəndi ovucla atırdıq ağzımıza. Guya ki, erməni arvaddan qisas alırıq. Həmin xatirəmi yol-yoldaşlarıma danışdım. Necə deyərlər, onları da bu çayxanaya, keçmiş illərimə çəkib apardım.

Hadrut qəsəbəsinin ortasından axan Qozluçayın sağ sahilində hazırlanmış meydançada Ağ Çadır qurulub. Bu çadıra baxanda yadıma Dədə Qorqud dastanındakı məqamlar düşdü...

Bir azdan hamımız çadıra daxil olub öz yerlərimizdə əyləşirik. Hamı kimi mən də həyəcanlıyam. İlk dəfədir ki, Ölkə Prezidenti ilə bu qədər yaxın məsafədə, bu qədər gözəl aurada 30 il həsrətini çəkdiyim ünvanda görüşəcəm. Onun nitqini, tövsiyyələrini, təkliflərini dinləyənlərdən biri də Hadrutda mən olacam... Budur, Ali Baş Komandan Ağ Çadıra daxil olur. Onu ayaq üstə qarşılayırıq. Səmimi bir təbəssümlə Ölkə Prezidenti hamımıza "Xoş Gəlmisiz!" deyir və bu gözəl yerdə qoruyucu maskalarınızı çıxara bilərsiniz. Hətta bu səmimiyyətə bir az da əlavə təbəssüm qatacaq bir söz də dilə gətirir. Azad olunmuş torpaqlarımızı bizə heç kimin gücü çata bilməz!

Həmin görüşün təəssüratı, orada yaşadıqlarım, dinlədiklərim ömrümə yazılan və ömrümdə yaşayan bir tarixdir. Onu sözə çevirmək, onu sözlə ifadə etmək o qədər də asan deyil. Və mən hələ ki, Hadrutda yaşadıqlarımı bütünlükdə ifadə edəcək gücü özümdə toparlaya bilməmişəm. Bircə onu yaza bilərəm ki, həmin gün mən yer üzünün ən xoşbəxt, ən güvənli bəndəsi idim.

Çünki Qarabağda idim! Çünki Hadrutda idim! Çünki yanımda Ali Baş Komandan dayanmışdı! Mən bir əsgər olaraq bu qürurun mahiyyətini ifadə etməkdə yalnız bir söz tapa bilirəm. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan! Yaşasın Müzəffər Ordumuz və Onun Ali Baş Komandanı!

Bu görüşün yekununda cənab Prezidentimiz hər kəsi Tuğa dəvət etdi və dedi ki, gəlin, Hadrutda da birlikdə bir xatirə şəkli çəkdirək və sonra gedək Tuğa!

Bu cümləni oxuyanda sizin hansı hissləri keçirtdiyinizi deyə bilmərəm. Amma mən onda da, elə indi də özümü anasının üstünə yüyürən uşaq kimi hiss edirəm. Axı mən kəndimə gedirəm. Elə yol boyu da ağlıma gələn misralar bu oldu.

***Kərpic-kərpic, hörə-hörə həsrəti -***
***Zirvəsinə ucalaraq yaşadım.***
***Əritdikcə gözümdəki ümidi -***
***Mən illəri qocalaraq yaşadım.***

***Hər anını yüz illiyə tay tutdum,***
***Varlığımdan ünvanına pay tutdum.***
***Sapand atdım, nə də vallah yay tutdum -***
***Son dözümü bac alaraq yaşadım.***

***Dizim yerdən, gözüm göydən asıldı,***
***Qəm sinəmə damğa kimi basıldı.***
***Düz otuz il göz yaşımla yazıldı -***
***Şeirlərim, qıc olaraq yaşadım.***

***Şükür gəldim, şükür gördüm və bir də,***
***Bildim, xoşbəxt yoxdur məndən bu yerdə!***
***Ürəyimdən qanadlanan şeirlə -***
***Vətən! - deyib, güc alaraq yaşadım.***

**(Ardı növbəti şənbə sayımızda)**

**Əbülfət MƏDƏTOĞLU**

# Qarabağ böyük üzümlüklər diyarına çevrilə bilər

**44 gün davam edən Vətən müharibəsi nəticəsində 30-ilə yaxın bir müddətdə düşmən tapdağı altında olan Qarabağımız Ali Baş Komandanın qətiyyəti Azərbaycan ordusunun fədakarlığı nəticəsində işğaldan azad olundu. Zəfərimiz həmişəlik olaraq bu torpaqları öz sahiblərinin ixtiyarına qaytardı. Düşmən tərəfindən tamamilə məhv edilmiş torpaqlarımızda artıq quruculuq işlərinə start verilib.**

Bildiyimiz kimi Qarabağ torpaqları müxtəlif ekoloji mühitdə yerləşsədə demək olar ki, ərazinin hər yeri ucdantutma kənd təsərrüfatının bütün sahələrinin inkişafı üçün son dərəcə əlverişlidir. Burada ta qədimdən üzümçülük bu yerlərin ən qiymətli kənd təsərrüfatı bitkisi olaraq həm müxtəlif ərzaq məmulatları, həmdə alkoqollu məhsulların istifadəsi üçün əsas kənd təsərüfatı sahəsi olmuşdur. Dağlıq Qarabağ bölgəsi özü də təbii iqlim şəraitinə görə üç yarım zonanı birləşdirir: Bura düzən, arazboyu və dağlıq ərazilər daxildir.

Yuxarı Qarabağ adlanan ərazi öz-özlüyündə Kiçik Qafqaz dağlarının mərkəzi və cənub-şərq hissəsinin dağlıq və dağ ətəyi ərazisini əhatə edir. Zonanın relyefindən asılı olaraq torpağın tipi, bitki örtüyü, vegetasiya dövrü və fəal temperaturun səviyyəsi yüksəlməyə doğru hər 100 metrdən bir dəyişir. Ərazinin torpaqları dağ və dağətəyi zonada, əsasən dəmyə şəraitində becərilir. Suvarılan torpaqların əksəriyyəti Fizuli, Cəbrayıl, Ağdam, Ağdərə rayonlarındadır və üzümçülük bu rayonlarda nisbətən daha böyük ərazilərdə inkişaf etdirilir. Burada Tərtər çayı üzərində inşa edilən "Sərsəng" su hövzəsi üzümçülüyü və bütün bitkiçilik sahələrini suvarma suyu ilə təmin edir.

Dağlıq Qarabağın kənd təsərrüfatına yararlı sahəsinin xüsusi çəkisi Respublikaya görə 4,9% təşkil edir. Ərazidə havanın nisbi rütubəti 30-70%, aktiv temperaturun cəmi göstəricisi isə 3800-4000o arasında dəyişir. Dağlıq hissədə relyefin mürəkkəbliyindən asılı olaraq aqroiqlimi isti-mülayimdən soyuq və dağlıq tundranın iqliminədək dəyişə bilir. Yeri gəlmişkən yaxşı olar ki, Qarabağın kənd təsərrüfatına yararlı torpaqlarından səmərəli istifadə etməkdən ötrü perspektiv layihələr hazırlansın və orada üzümçülüklə bərabər digər sahələrində istifadə edilməsi üçün torpaqların əkin dövriyyəsinə daxil edilməsi məsələsi nəzərə alınsın.

1970-ci ildən başlayaraq Qarabağın kənd təsərrüfatında üzümçülük həmişə prioritet təşkil etmişdir. Məsələn, 1980-ci ildə istehsal olunan kənd təsərrüfatı məhsullarının strukturunda üzümçülüyün ixtisaslaşma səviyyəsi orta hesabla Yuxarı Qarabağda 60 %, Ağdamda 55 %, Fizulidə 80% təşkil edirdi.

Bu rayonlarda təzə halda istifadə edilən süfrə üzümü istehsalı 4758 ton, ümumi istehsal isə 294 min tona çatmışdır. Başqa sözlə cəmi bitkiçilik üzrə ümumi məhsulun tərkibində üzüm tədarükündən əldə edilən gəlir Ağdamda 90%, Fizulidə 85% təşkil edirdi. Bu rayonlarda üzüm tədarükündən hər hektara düşən pul gəliri mövcud qiymətlərlə hesablansa 40-45 min manatdan artıq edır. Elə sortlar vardır ki, (yəni becərilirdi ki,) onun hər hektarından əldə edilən pul gəlirini demək olar ki, müvafiq olaraq heç bir bitki sahəsindən əldə etmək mümkün deyildi. Bu rayonlarda süfrə və



texniki sortlar 80-ci illərə qədər çox geniş yayılmışdır. Bizə məlumdur ki, bölgənin bütün ərazisi boyu (Yuxarı Qarabağda daxil olmaqla) tez yetişən və gec yetişən çox saylı sortlardan Kardinal Qara Kişmiş, Qaraburnu, Ağadayı kimi, habelə Ağdam qızıl üzümü, Keçi məməsi, Xindoqnı, Qaraşirə,Kəhrəba, Zeynəbi, Xan üzümü, Qaragöz, Mərəndi, Təbrizi, Rkasiteli və s.geniş istifadə edilirdi. Bu gün bölgə üçün süfrə üzüm sortlarından Xindoqnı, Təbrizi, Ağ xəlili, Ağ oval kişmiş, Ağ şasla, Kardinal, Qara kişmiş, Hüseyni, Bayanşirə, Mədrəsə, Həməşərə, Şirvanşahı, Rkasiteli və s. üzüm sortlarından istifadə edilməsi yenə də məsləhət bilinir.

Qarabağ rayonlarında 1975-80-ci illərdə cəmi üzümçülük sahəsi 78976 hektar təşkil edirdi. Bundan 16179 hektarı təkcə Dağlıq Qarabağa aid idi. Demək lazımdır ki, Qarabağ zonası üzrə istehsal edilən bitkiçilik məhsullarının strukturunda üzümçülük məhsullarının xüsusi çəkisi 60%-dən çox idi. Bu sahənin yüksək rentabelli olduğunun göstəricisidir. Süfrə üzüm sortlarının ən çox yayıldığı Qarabağ zonası idi, o cümlədən Ağdam, Füzuli, Ağcabədi, Beyləqan, Ağdərə və s.rayonlarda çox əkilirdi. Buna baxmayaraq süfrə üzüm sahələri ölkənin ümumi üzümlüklərinin cəmi 11%-ni təşkil edirdi. Bundan 20-25%-i Qarabağ rayonlarının payına düşürdü. Görünür süfrə üzümlüklərinə bu bölgədə üstünlük verilməlidir. Nəzərə almaq lazımdır ki, ən yaxşı halda ölkədə istehsal edilən 35-40 min ton süfrə üzüm məhsulu respublikada daxili tələbatın ancaq 45-50%-ni ödəyə bilir. Bu o deməkdir ki, orta hesabla hər adam başına olsa-olsa 2-2,3 kq təzə üzüm istifadə edilir. Hansı ki, Fransa, İtaliya və digər avropa ölkələrində Azərbaycanla müqayisədə bu göstərici 10-12 dəfə artıqdır. Odur ki, gələcəkdə üzüm istehsalında əhalinin təzə süfrə üzümünə olan ehtiyacının heç olmasa 10-15 kq həddində təmin edilməsinə maraq artırılmalıdır.

Üzüm sortlarının yetişmə müddətlərinə görə Azərbaycan Elmi Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun təqdim etdirəcəyi əsas sortlardan: ən tez yetişən Ağ Xəlili, Qara Kişmişi, orta yetişən: Təbrizi, Ağ Kişmişi, Ağ Şanı, gec yetişən: Ağadayı, Qaraburnu, Tayfı, Şamaxı Mərəndisi və s.sortları göstərmək olar, bu sortlar normal aqrotexnika və suvarma şəraitində güclü boyatma qabiliyyətinə malik olub, 150-200 sentner məhsul verə bilir. 1984-cü il məlumatlarına görə Qarabağın ərazisində başlıca olaraq süfrə sortlarından Təbrizi (43%), Qaraburnu (15,1%), Ağadayı (10,9%), Qara şanı (9,6%), Ağ Şanı (7,0%), Əsgəri (2,3%) və s.əkilib becərilirdi. Texniki sortlardan ən çox yayılanları Rkasiteli (34,7%), Mədrəsə (24,2%), Bayanşirə (12,8%), Həməşərə (12,2%), Xindoqnı (5,6%), Mələyi (2,9%), Tavkveri (2,5%) əkilirdi. Ulu Öndərin Respublikaya rəhbərliyi dövrü ölkədə üzümçülüyün əsil intibah dövrü idi. O, vaxtlar üzüm istehsalı Gəncə-Qazax zonasında-411,3 min tona, Şirvan zonasında-360,1 min tona və Qarabağ zonasında-294,6 min tona çatdırılmışdı. Bu gün yuxarıda göstərilən üzüm istehsalı səviyyəsinə çatmaq üçün əlbətdə çox vaxt lazımdır.

**Müasir şəraitdə Qarabağ iqtisadi zonasında yeni üzümlüklərin inkişafı üçün ilk vaxtda bir çox məsələlərə xüsusi önəm verilməsi bəri başdan nəzərə alınmalıdır.**

**(ardı növbəti sayımızda)**

**Vüqar Səlimov**
**Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, a.e.d.,dosent**
**Aynurə Quliyeva**
**İnformasiya təminatı və elmi nəticələrin tətbiqi şöbəsinin müdiri**

*Malik Mahmudov*
*Beyləqan rayon Qeydiyyat İdarəsinin rəisi*



# 44 gün > 200 ildən

*Qələbəyə aparan "Dəmir yumruq"*

**Dünyaca məşhur, əsərləri 100-dən çox ölkədə çap olunmuş qazax şairi Oljas Süleymanovun "Gün var əsrə bərabər" əsəri haqqında yəqin ki, çoxlarının məlumatı var, ən azı əsərin adını eşidib. Həqiqətən də bəzən millətin tarixində elə günlər olur ki, əhəmiyyəti baxımından illərə, qərinələrə, əsrlərə bərabər tutulur. Qeyd etməyə hazırlaşdığımız 44 günlük Qarabağ savaşının gətirdiyi 8 noyabr tarixi məhz belə əzəmətli günlərdəndir. 200 il əvvəl Çar Rusiyasının himayəsi altında əzəli Azırbaycan torpağı İrəvan mahalında dövlətcik kimi yaranan və sovet imperiyasının məkrli siyasəti ilə zaman-zaman gah qanlı qətllər, gah "qardaş xalqlar" devizi altında Azərbaycan torpaqlarını hissə-hissə ələ keçirməklə dövlət**



**statusu qazanan Ermənistana nəhayət ki, yerini göstərmək mümkün oldu. 200 illik işğala 44 gün ərzində son verildi. Və bunu (qana batmış dişini sındırmaq da demək olar-M.M) bədnam qonşudan daima ziyan çəkmiş Azərbaycan dövləti, xalqı, onun rəşadətli ordusu, Ali Baş Komandanı reallaşdırdı. İşğalın davam etdiyi son 30 ildə "məğlubedilməz ordu" mifi yaratmış Ermənistan müharibənin rəmzinə çevrilmiş "Dəmir yumruq"la qısa müddətdə şanlı Azərbacan əsgərinin qarşısında diz çökdü, pərən-pərən oldu, keçilməz istehkamlar darmadağın oldu.**

**Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək modern orduya çevrilmiş Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük müharibədə sərgilədiyi yüksək peşəkarlıq və qəhramanlıq xalqımızı həsrətlə gözlədiyi və inandığı qələbəyə apardı, qisas qiyamətə qalmadı, Xocalı qatillərinin əksəriyyəti döyüş meydanında gəbərdildi. Hələ illər öncə Ümummilli Lider H.Əliyev deyirdi ki, güclü iqtisadiyyatı olan dövlətin güclü də ordusu olar. 1994-cü ilin 20 sentyabrda xarici şirkətlərlə imzalanmış "Əsrin Müqaviləsi" də məhz bu amala xidmət edirdi. Həmişə olduğu kimi böyük siyasi xadim bu fikrində də yanılmamışdı. Məhz neftdən gələn gəlir hesabına cənab Prezident İ. Əliyev ordunu ən son model silah və sursatla təchiz edə bildi ki, bu da düşmən üzərində qələbə çalmağımızda həlledici rol oynadı.**

**30 il BMT-nin 4 qətnaməsinə məhəl qoymayan, bəlli dövlətlər tərəfindən himayə edilərək işğalı sürdürən Ermənistan cəmi 44 günə qarşımızda ağ bayraq qaldırmağa məcbur oldu.**

**Bəli, bütün tarixi dövrlərdə və müharibələrdə olduğu kimi Qarabağ zəfərinin də lokomativi Şanlı Ordumuz, əsgər və zabitlərimiz, memarı zaman və məkan seçimini, beynəlxalq aləmdəki real durumu düzgün qiymətləndirən, etibarlı müttəfiqlər qazanan ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyev oldu. 44 günlük müharibədə cənab prezident həm sərkərdə olub döyüş tapşırıqları verdi, həm də diplomatik və informasiya cəbhəsində sözün həqiqi mənasında axına qarşı savaşdı.**

**Azərbaycanı haqq savaşından çəkindirməyə çalışan, bəzən hədə və şantaja əl atan məlum güc mərkəzlərin faktlarla əl-qolunu bağladı, inandırıcı arqumentlərlə susdurdu. 28 il yarıtmaz fəaliyyətlə əslində münaqişəni dondurmağa çalışan, dolayısıyla erməniləri müdafiə edən ATƏT-in Minsk Qrupunu haqlı olaraq "qapıdan qovan da" məhz O, idi.**

**Bəli, qısamüddətli olsa da bütün müharibələrdə olduğu kimi 44 günlük Vətən Müharibəsində 3000 şəhid verdik, minlərlə yaralı qazimiz oldu amma təsəllimiz odur ki, onların qanı yerdə qalmadı. Sanki hər azad olunan kənd uğurunda bir şəhid verdik. 44 gün sərasər xalqımız səhərləri irili-xırdalı qələbə xəbərləri ilə açdı. Bu xəbərlərin kuliminasiya nöqtəsi isə tarixə böyük hərflərlə yazılan Qarabağın baş tacı ŞUŞANIN AZAD EDİLMƏSİ barədə Ali Baş Komandanın xalqa verdiyi 8 NOYABR tarixli qələbə müjdəsi oldu.**

**Deyirlər Şuşa kimindirsə Qarabağ da onundur. Şuşa bizdədir, bu isə o anlama gəlir ki, hazırda Qarabağın dağlıq hissəsində rusların qoltuğuna sığınan silahlı erməni dəstələri də gec-tez ərazini tərk etməkyə məcbur olacaq. Bunu yalnız biz yox, düşmən düşərgənin mediası, ekspertləti də açıq söyləyir.**

**Sevinir və qürur duyuruq ki, Vətən Müharibəsində qazanılmış tarixi qələbədə yaranmasının 103 illiyini bayram edəcəyimiz Pespublika Ədliyyəsinin qəhraman əməkdaşları da yaxından iştirak edib, kimi ön cəbhədə savaşaraq, kimi arxa cəbhədə ordumuzun təminatında rol alaraq.**

**Hesab edirik ki, prezident fərmanı ilə "Zəfər Günü" kimi qeyd edilən 8 NOYABR eyni zamanda şanlı Azərbaycan hərbiçilərinin silahdaşları olan biz ədliyyə əməkdaşlarına ən böyük hədiyyəsidir.**

**Sonda bu əlamətdar tarixi gündə bir daha Vətən Müharibəsində şəhid olan əsgər və zabitlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, qalib Ali Baş Komandan İlham Əliyev cənablarına cansağlığı diləyirəm!**

**QARABAĞ BİZİMDİR! QARABAĞ AZƏRBAYCANDIR!**

**Qarabağın "cangüdəni" də "DƏMİR YUMRUQ"dur!**



Şahnaz Şahin

# ÖTƏN GÜNLƏRİN ACISI

Esse

Həyat haqqında çoxlu sayda dəyərli fikirlər deyilmiş, onun şirinliyi və gözəlliyi, mürəkkəbliyi və çətinliyi üstündə nə qədər baş sındıranlar olmuşdur. Həyatı tamaşaya da bənzədiblər, bayrama da, ona sınaq da deyiblər, imtahan da. Sanki hər kəs ona verilmiş bir gözlükdən baxaraq nəyi görməlidirsə görə bilmiş və vaxtın tamamında yığışıb getmiş, yerində isə elə adamların sayı qədər yiyəsiz xatirələr tökülüb qalmışdır. Əslində nə gəldiyi, nə də getdiyi yerin sirrindən agah olmayan insan həyat dediyi bir vaxt biçiminə heç sahiblənməyə macal da tapa bilmir. Həyat həmişə öz sirli üzünü qoruyub saxlaya, son anda elə üzünə gülə-gülə tərk edib uzaqlaşa bilir... Təsəllin isə qismətinə düşən ömür payını şərəflə yaşamağın, xeyirli işlər görməyin olur. İ.V.Göte hesab edirdi ki, faydasız həyat elə vaxtsız ölümə bərabərdir...

... İmkan tapanda Azərbaycan Yazıçılar Birliyininə baş çəkirəm. Pandemiya burda da öz izlərini qoya bilib, kollektivdə taclı virusa yoluxaraq sağalan insanlarla yanaşı, çox təəssüf ki, həyatı yarıda qırılan da oldu... Karantin rejiminin bütün şərtlərinə əməl olunsa da yenə bu bəd niyyət xəstəlik imkan tapıb hücuma keçə bilir...

Hər kəs vur-tut bircə dəfə gəldiyi bu dünyada öz qısa (omür həmişə qısadır, fərqi yox neçə il yaşayırsan) ömrünə çox şey sığdırmağa çalışır. Cavan vaxtı "başından papağını salan" ömrün qürubu görünmür deyə ruhu aram, qəlbi rahat vurur. Elə ki, dağı o üzə adladı.., bax onda canını qorxu qarışıq həyəcan sarır, görə bilmədiyi, hələ yarım qalan işlər gecə də yuxusundan çəkilmir. Məncə Səməd Vurğun "Tələsmirəm" şeirini yazanda elə tələsirmiş! Bir şair fəhmi ilə nə qədər arzularının sərgərdan qalacağını, hələ neçə əsərinin bələkdəcə boğulacağını duyub yazmışdı bu sətirləri:

***...Uzadaq ömrünü hər bir anın da,***
***Yel kimi keçməsin vaxt üstümüzdən...***
***Bu aylı gecədə, bu dağ döşündə...***
***Bu saat, bu dəm***
***Heç yana, heç yerə mən tələsmirəm!***

...Həyat, hər kəsin böyük bir yazı taxtasına çəkə bildiyi şəklə bənzəyir, amma axırda hamı rəssam ola bilmir... Oturduğum otaqdan dəhlizdə getdikcə yaxınlaşan ayaq səslərini duyuram, həm də hiss olunur ki, sanki "üçüncü ayağı" da var, yəni gələn kimsə yaşlı adamdır, çünki döşəməyə tək-tək zərbələr dəyir və bu məncə əl ağacının səsidir... Gələn qapıda görünəndə hissimdə yanılmadığıma əmin oluram. Əynində qara plaş, qotuğunda qovluq olan, beli bir az donqar yaşlı kişi otağa daxil olub, hörmətlə salam verir. Özünü həm tanınmış mərhum bir yazıçımızın qohumu, həm də mötəbər bir universitetin professoru olaraq təqdim edib, Anar müəllimi xəbər alır. Ali məktəbin adı məni özünə elə çəkir ki, söhbətə qoşulmaya bilmirəm... Və indi əlləri titrəyən, zəif vücudlu, əl ağacına möhtac bu yaşlı kişinin "atan-vuran" vaxtlarını düşünürəm...

Budur, tələbə ilə dolu auditoriyada vacib bir fəndən mühazirə oxuyur. Bütün gözlər ona dikilmiş, diqqət ona yönəlikdir. O da gənc, cavan alim hələ dağın bu tərəfində necə məsuddur, rahatlıqla dərsi izah edir, işindən razı, tələbələrin diqqətindən azca da olsa təkəbbürlü... Bir azdan iki qoşa saatlıq mühazirə sona yetir, müəllim də növbəti dərsə qədər sağollaşıb auditoriyanı tərk edib gedir. Beləcə, bax elə bu divarlar arasında keçib gedir zaman, illər dolanır, tələbələr dəyişir, simalar yenilənir, müəllim isə hər gün eyni şeyi yenidən təkrar edir... Düşünürəm, görəsən həmin vaxtlarda neçə tələbənin haqqına girib, qiymətini düzgün verməyib bu müəllim!?.. Əgər olubsa bundan peşimandırmı...

Bir qeyri-ixtisas müəllimimiz vardı, varlı, imkanlı qadın idi, ikinci kursda göz görəti mənim halal qiymətimi yazmadı, çox pərişan oldum, bilirsiz, həm də ona görə üzülmüşdüm ki, bir semestr təqaüd ala bilməyəcəkdim! Mən, o müəllimi heç vaxt unutmadım, illər sonra o zaman deyə bilmədiklərimi sözə çevirib qismən rahatlandım...

Həyat çox amansızdır, qeyri-adi rəqibdir, onunla cəngə girmək adama əvvəl asan gəlir, amma elə ilk həmlədəncə səhv etdiyini dərk edir. Meydanı məğlub olaraq tərk etməyi də şəninə kəsir sayır, sonra yenə.., yenə.., nəhayət anam demiş "yollaşıb yola getməkdən", yəni dost olmaqdan başqa əlacı qalmır.

Bəli, həyat həm mübarizədir, həm də mübarizə meydanı. Bu meydanın sahibi onun özüdür, bu gedəcək, o biri gələcək, həyatın nə vecinə, o yenə hər kəsə fərqli bir oyun qurmaqla oyunu başdan başlayacaq. Əlbəttə, rəqibləri arasında sonadək döyüşənləri də olacaq və elə sonda qalib də onların arasından çıxacaq. Dünya şöhrətli Amerikalı yazıçı, ünsiyyət psixoloqu Deyl Kornegi isə həyatı bir şans hesab edərək məsləhət görürdü ki, tale sizə limon veribsə, siz ondan limonad hazırlayın...

Uğuru ən çox uğursuzluğa uğrayan insanlar qazanır, çünki məğlubiyyətdən yaranan məyusluq qədər insanı qələbəyə yaxınlaşdıran ikinci bir hiss yoxdur. Səhvlər doğru yolun bələdçisidir, uğura gedən yol nə rahatdır, nə də hamar, dağ yoludur, sıldırımdır, ora qalxmaq və istədiyini əldə etmək üçün bir özünə, bir də şansına güvənməlisən. Yıxılacaqsan, qalxacaqsan, dizin sıyrılacaq, dirsəyin qanayacaq, ağrıyacaqsan.., bezəcəksən də, amma məqsədin varsa, güclü iradəyə sahibsənsə o zirvəyə qalxacaqsan...

***P.S. Həyat böyük bir okeanda səyahətə çıxdığımız kiçik qayıqlar kimidir, batmaq və boğulmaq təhlükəsi səni qorxutmasın. Həyatdan istədiyini müəyyən etməzdən öncə həyatın səndən nə istədiyini öyrənməyə çalış və unutma ki, həyat həm də ağılla edilən riski və cəsarətli insanları sevir... Elə yaşa ki, sonradan geridə qoyduğun günlərin acısı ürəyini qıfıllayıb, gözlərini yaşartmasın...***

## Şagirdlərin müharibə hekayələri kitab olacaq




**Vətən müharibəsi iştirakçısı, şair, müəllim Emin Piri Xəzər tv-nin "Vaxtı gəldi" verilişinin qonağı olub.**

O, keçdiyi döyüş yolundan, məktəbli məktublarından, yaradıcı şagirdlərin hekayələrindən danışaraq bunları toplu halında dərc edəcəklərini bildirib.

**Cavid**



Şöhlət Əfşar

# Bakı,Ankara,Təbriz bir ürək,bir can oldu, Pakistandan Kərkükə can Azərbaycan oldu!

## Qarabağ Azərbaycandır!

*Şanlı Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dünya hərb tarixinə qızıl hərflərlə dastan yazdı!*

*08 noyabr 2020-ci il tarixdə rəşadətli Azərbaycan Ordusu baş tacımız, Qarabağın üzük qaşı Şuşa şəhərini 28 ildən sonra erməni quldurlarının işğalından tamamilə azad etdi!*

**Nikol, hər gün sərsəmləyib, yalan-palan guruldadın,**
**Şərab içib, yallı gedib, təlxək-təlxək hırıldadın,**
**Qarabağa "Artsax" deyib qurbağatək quruldadın…**
**Vaxtsız banlamağın sənə, baha başa gəldi, baha!**
**Nə oldu, Soros uşağı, indi səsin çıxmır daha?!**

**İlhamın bir yumruğundan beşbetər günə qalmısan,**
**Annanı da, Maryamı da işə, əmələ salmısan,**
**Anahidin qızlarını yığıb yanına almısan…**
**Əslinə, soyuna çünki həqiqi xələfsən, Nikol!**
**"Hay"ın, " yan"ın öz başına sən əngəlkələfsən, Nikol!**

**Türk qanına susamışdın, öz qanına bələnirsən,**
**Avropada qapı-qapı tula kimi sülənirsən,**
**Zülüm-zülüm yaş axıdıb, silah-sursat dilənirsən…**
**Vaxtsız banlamağın sənə, baha başa gəldi, baha!**
**Nə oldu, Soros uşağı, indi səsin çıxmır daha?!**

**Ordun pərən-pərən düşüb, pişto tüfənginiz hanı?**
**Səngəri atıb qaçırlar, mərdanə cənginiz hanı?**
**Yaman basıb-bağlayırdın, yalançı mifiniz hanı?...**
**Vaxtsız banlamağın sənə, baha başa gəldi, baha!**
**Nə oldu, Soros uşağı, indi səsin çıxmır daha?!**

**Başın, gözün əzik-üzük, taqətsiz hıqqıllayırsan,**
**Kəsilibdi qulaqların, küçüktək zıqqıllayırsan,**
**Ordumuzun zərbəsindən donuztək nıqqıllayırsan…**
**Vaxtsız banlamağın sənə, baha başa gəldi, baha!**
**Nə oldu, Soros uşağı, indi səsin çıxmır daha?!**

**Bir de, görüm, keşiş, kilsə artıq həddini bildimi?**
**Şeytanlıqdan əl götürüb haqq yoluna düzəldimi?**
**Nikol, başın yoxdur deyəm, ağlın başına gəldimi?...**
**Vaxtsız banlamağın sənə, baha başa gəldi, baha!**
**Nə oldu, Soros uşağı, indi səsin çıxmır daha?!**

**"Hay"lar ki, var, bir məxluqdu, Nikol, onlara "xalq" demə,**
**Ordumuz belin sındırıb, ölmüş "vartan"a "qalx" demə,**
**Danışanda doğru danış, sən itin yediyin yemə…**
**Arxayın olma Makrona, sənlik deyil meydani-cəng,**
**Hər gün zəng edib Putinin, gəl, başını eyləmə dəng!**

**Paşiniyan, lovğalanıb yenə toxan durursanmı?**
**Şuşada, Cıdır düzündə araq, çaxır vurursanmı?**
**Söylə, dənizdən-dənizə zırpı dövlət qurursanmı?...**
**Vaxtsız banlamağın sənə, baha başa gəldi, baha!**
**Nə oldu, Soros uşağı, indi səsin çıxmır daha?!**

**Huşun, başın oynayıbdı, əqlin səni salıb zora,**
**Əməlinin girovusan, düşmüsən qurduğun tora,**
**Sonun gəlib, az qalıbdı, göməcəyik səni gora…**
**Gəl, İlhamdan üzür istə, günahların çoxdur sənin!**
**Ağ bayrağı qaldır Nikol, başqa yolun yoxdur sənin!**

**Ağzınızı, burnunuzu birdəfəlik ovacağıq,**
**Erməni zibil kimi süpürləyib sovacağıq,**
**Sizi iti qovan kimi Qarabağdan qovacağıq!...**
**Daha kitabın bağlanıb, dayana bilməzsən, gəda!**
**Qarabağ Azərbaycandır, nida, nida, nida, nida!!!**

## Şeyx Nizaminin tərifi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 05 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-ci il "Nizami Gəncəvi ili" elan edilmişdir.*

**Ey ustadlar ustadı, ey ulu, Şeyx Nizami,**
**Ya Haqq! Bismillah! ? deyib ələ aldım qələmi.**
**Allaha yalvarıram topuq vurmasın dilim,**
**Sənin adına layiq bir əsər yaza bilim.**
**İnci, gövhər sözlərin hamısını demisən,**
**Necə yazıb, vəsf edim sənin tərifini mən?!**
**Ya Rəbb! Nur saç qəlbimə, hikmətinin şamından,**
**Alnı açıq, üzü ağ çıxım bu imtahandan.**
**Gərək sərraftək seçib bakirə sözlər tapam,**
**Sənin uca şəninə sözdən Tac-Mahal yapam.**
**Sözü bəzəyib tutam ipəyə, al qumaşa,**
**Nəqqaştək naxış vuram başdan-başa tamaşa.**
**Sən mələklər sirdaşı... Göylərdən enmisən sən,**
**Daim coşub çağlayan bir hikmət çeşməsisən.**
**Sən idrak etdiyini təqvasız idrak etməz,**
**Elmini dərk etməyə nadanın gücü yetməz.**
**Fəhminlə, hikmətinlə sən əbədi dirisən,**
**Allahın vəhy verdiyi sözün peyğəmbərisən.**
**Ta Məşriqdən Məqribə şeirin şahı sənsən,**
**Əyarın çox ucadır, nəzmin dərgahı sənsən.**
**Yoxdur bir qələm əhli önündə dura bilsin,**
**Cürət edib, səninlə pəncə pəncəyə gəlsin.**
**Söz oynadıb səninlə kimsə yarışa bilməz,**
**Saf incinə yad inci əsla qarışa bilməz.**
**İrfanda, fəzilətdə sənə kim çatar ki, kim?**
**Sən alimlər alimi, əl-həkimsən, əl-həkim.**
**Qüdrətin söz mülkünə firuzətək nur saçır,**
**Əqlin, fikrin, düşüncən üfüqlərə yol açır.**
**Kimya, həndəsə, nücum... hər elmidən halısan,**
**Cümlə "Qur ?an"a talib sən elmin mövlasısan.**
**Elə bir dərya yoxdur ağlın lövbər salmasın,**
**Bir xəzinə qalmayıb qələmin bac almasın.**
**Nə var yığıb getmisən, eyləmisən başa tac,**
**Şairlər qalıbdılar inci sözlərə möhtac.**
**Söz bostanın dərmisən tağda uradır qalan,**
**Xəzinələr boş qalıb nə satan var, nə alan.**
**Dür tökülür yazdığın məsnəvidən, qəzəldən,**
**Ağıl, kamal sahibi doğulmusan əzəldən.**
**Günəştək parlaq zəkan qəlblərə işıq salır,**
**Dünya səndən öyrənir, dünya səndən elm alır.**
**Düşüncənə can verib sözün cövhərə dönür,**
**Sənin dodaqlarında hər söz gövhərə dönür.**
**Söz çeşməsi qalmayıb gözündən içməyəsən,**
**Elə bir söz yoxdur ki, qızıl don biçməyəsən.**
**Hər sözə, hər kəlama qanından qan vermisən,**
**Hikmətinlə bəzəyib sözlərə can vermisən.**
**Sənin nəzmin ruhuyla nəzmin birincisidir,**
**İrfan xəzinəsinin gövhəri, incisidir.**
**Dünyanı fəth eyləyən nadir sözlər sənindir,**
**Sirlərə açar olan qadir sözlər sənindir.**
**Söz səninlə şah oldu, səninlə sehirləndi,**
**Həkk oldu beyinlərə, adınla möhürləndi.**
**Sən şeirlə dərs verdin sultanlara, şahlara**
**Sən qaldırdın şeirin bayrağın ucalara.**
**Haqsıza üsyanını yazıb gətirdin dilə,**
**Şahı məzəmmət etdin qarının dili ilə:**
**"Zülmündən, sitəmindən ərşə qalxıb ah-aman,**
**Nəfsə qul olan kəsdən şah olmaz heç bir zaman.**
**Xalqı çapıb soyursan, işin talançılıqdır,**
**Haqqın, ədalətin yox, peşən yalançılıqdır".**
**Qarının tənbehindən dik başın əydi yerə**
**Ədalət dərsi verdin zalım Sultan Səncərə.**
**Comərd, erkək fitrətli Nüşabənin dilindən,**
**Göz dağı, öyüd verdin böyük İsgəndərə sən.**
**Fəhminə, hikmətinə, ağlına heyran qaldı,**
**Qılıncdan kəskin olan sözündən ibrət aldı.**
**Cəsarəti önündə susub, fikirə getdi,**
**Dinləyib Nüşabəni çox şeyi idrak etdi.**

**Yalanı çıxdı üzə, özünü çox danladı,**
**Qəflətdən gözün açıb nəhayət ki, anladı; ?**
**Allahın xəlq etdiyi qadın da bir insandır,**
**Erkək, dişi fərqi yox, aslan elə aslandır.**
**Dünya sənə dar hücrə, sən dünyadan irisən,**
**"Xəmsə"nlə əbədisən, dirilərdən dirisən.**
**Mənalar dəryasıdır yazdığın hər bir sətir,**
**Sənin hər bir əsərin sözün əzəmətidir.**
**Söz oyununda hər an qoşa düşübdü zərin,**
**Nuhdan bəri dünyada olmayıb bir bənzərin.**
**Zamanın xalısına nadir naxış vurmusan,**
**Sözün səltənətində şanlı büsat qurmusan.**
**Qızıl sünbül yetirdi sən əkdiyin hər bir dən,**
**Söz gülşənin sulandı zəhmətinin tərindən.**
**Qələmi tişə edib dəfinələr tapmısan,**
**Sözü yonub, bəzəyib sözdən heykəl yapmısan.**
**Nursan başdan ayağa, sən ağıl məbədisən,**
**Tanrının haqdan gələn nurlu çırağısan sən.**
**Çox sirli qıfılları sən sözünlə açmısan,**
**Həqiqətin yoluna işıq, şəfəq saçmısan.**
**Sən ruhunla, qanınla türklüyə şan qatmısan,**
**Türklüyü uca tutub şah zirvəyə çatmısan.**
**Dünyada qələm əhli, ustad şairlər çoxdur,**
**Fəqət, sənin zirvənə çatan bir kimsə yoxdur.**
**Söz səninlə dünyada şöhrət tapıb ucaldı,**
**Yox oldu taxtı-taclar sənin əsərin qaldı.**
**Epik əsərlərinlə məsnəvidə şah oldun,**
**Ötdün Firdövsini də, onu kölgədə qoydun.**
**Sinən ləl karxanası, sirlər xəzinəsidir,**
**Nəzminin xoş ahəngi ruhun nəşidəsidir.**
**Sehirli qıfıllara düşməsə də bir açar,**
**O sirli qıfılları sənin sözlərin açar.**
**Əldə əsa səyyahtək dünyanı gəzmədin sən,**
**Fəqət, altı qitəni ağlınla fəth etmisən.**
**Sən planet şairisən, səs salmısan hər yana,**
**Adın, şanın-şöhrətin yayılıbdır cahana.**
**Tək sənsən ? Şeyx Nizami, sən layiqsən bu ada,**
**Cismən olmasan da, sən əbədisən dünyada.**
**Hər sözün dəfinədir, şəffaf, parlaq almazdır,**
**Şərəfinə nə yazsam, nə söyləsəm də azdır.**
**Şeir gülüstanının solmayan gülü sənsən**
**Davud kimi nəğməzən, ərşin bülbülü sənsən.**
**Ömrünün hər bir anı böyükdür qərinədən,**
**Nə zamana sığırsan, nə də kainata sən.**
**Varlığın günəş kimi, salehdir hər əməlin,**
**Hər bir duyan ürəkdə ucalıbdı heykəlin.**
**Şöhlət gecə və gündüz ruhuna səcdə qılır,**
**Allaha bel bağlayıb, dərsini səndən alır!**

## Şuşaya Günəş doğdu!

**Sentyabr, o müqəddəs gün,**
**Baş Komandan əmr verdi,**
**Azərbaycan Ordusu Qarabağa yeridi.**
**Cəngə qalxıb igidlər silahlara sarıldı,**
**Qarabağı bürüyən qara zülmət yarıldı.**
**Saf əqidə,düşüncə ləngər vurub duruldu,**
**Bütün xalq,ordu,dövlət birləşib yumruq oldu.**
**Hər kəs hazır durubdu hüququndan keçməyə,**
**Hazırdır şəhidliyin şərbətini içməyə!**
**Lap cansa,can,qansa,qan, "qisas " deyir analar,**
**Xocalı vəhşətində sel olub axan qanlar.**
**Bakı,Ankara,Təbriz bir ürək,bir can oldu,**
**Pakistandan Kərkükə can Azərbaycan oldu!**
**İlk döyüşün zəfəri dünyaya səda saldı,**
**İllərdir əsir torpaq dərindən nəfəs aldı.**
**Düşmənə divan tutdu qırıcı təyyarələr,**
**Top səsindən diksindi göydəki səyyarələr.**
**"PUA"lar havalanıb göydən od ələdilər,**
**Düşmənin səngərlərin cəhənnəm elədilər.**
**Qorxusundan "hay"ların ağzında dili bişdi,**
**Heyrət edib heyrət də,heyrət heyrətə düşdü!**
**Hadrutdan Qubadlıya, Ağdamdan Kəlbəcərə,**
**Sancıldı Bayrağımız Qarabağda hər yerə!**
**Dünya,yer,göy gördü ki,bir təndə doğma candır,**
**Oğuz yurdu-Qarabağ cümlə Azərbaycandır!**
**Erməni faşizminə Ordumuz məzar qazdı,**
**Şuşanı azad edib zəfər dastanı yazdı.**
**Şuşaya qalxan əsgər hər biri bir şir oldu,**
**Qədəmləri dəyən yer ocaq oldu,pir oldu.**
**Dağları, dərələri gecə ikən aşdılar,**
**Sıldırım qayaları pələngtək dırmaşdılar.**
**Əlbəyaxa döyüşüb,ölümü yaşadılar,**
**Şəhid olmuş qardaşın çiynində daşıdılar.**
**Yaralanmış hər əsgər yenə qalxıb döyüşdü,**
**Qorxudan, vahimədən düşmən lərzəyə düşdü.**
**Dünya bu fövqəl-cəngə heyran qalıbdı vallah,**
**Sanki döyüşürdülər Mete, Bilgə, Nadir şah.**
**Erməninin ağzını birdəfəlik ovdular,**
**Tulanı qovan kimi Qarabağdan qovdular.**
**Allahın lütfü ilə işıq zülməti boğdu,**
**Sındı düşmənin beli, Şuşaya Günəş doğdu!**
**Payız fəsli olsa da, Xarı bülbül gül açdı,**
**Cıdır düzü süsləndi, göydən yerə nur saçdı.**
**Pənah xanın, Vaqifin ruhları güldü o gün,**
**Şəhidlər də Şuşaya ehrama gəldi o gün.**
**Külli-Azərbaycanı bürüdü alqış səsi,**
**Qartallar da səmada ötdü zəfər nəğməsi.**
**Al bayraqlar açıblar, bax, Turan elləri də,**
**Həmdi-səna edirlər, göydədir əlləri də.**
**Siz, ey şanlı zəfəri gətirən qəhrəmanlar,**
**Azadlığı gül kimi bitirən qəhrəmanlar,**
**Şükür, bu səadəti bəxş etdiniz siz bizə,**
**Xalqımız bir ağızdan-"Eşq olsun!"-deyir sizə!**
**Əhsən! Ey Baş Komandan! Sizi alqışlayıram!**
**Bu zəfər şeirimi Sizə bağışlayıram!**
**Şöhlət cuşa gəlibdi, xəyalı göylərdədi,**
**Şanlı, qızıl tarixi vəsf edib nəğmə dedi!**

# Akif Aşırlı: "Bizdə formalaşmış yazı mədəniyyəti artıq yerini mesaj, status jurnalistikasina buraxıb"

***Noyabrın 1-də Azərbaycan mətbuatında öz dəsti-xətti ilə seçilən "Şərq" qəzetinin 25 yaşı tamam olur. Qəzetin əsası 1996-cı il noyabrın 1-də jurnalist Akif Aşırlı tərəfindən qoyulub. Bu gün ölkədə nəşr olunan qəzetlərə diqqət yetirəndə görürük ki, bir zamanlar qəzet bumu yaşanan Azərbaycanda cəmi 5-6 qəzet çap olunur. 5-6 sözünü elə belə yazmıram, söhbət qəzetçilik mədəniyyətini özündə ehtiva edən nəşrlərdən gedir. Ona görə də bu gün saysız-hesabsız çətinliklərin fonunda bu işə canını qoymuş "fədai" qəzetçilərə təşəkkür düşür. Oxucuların, auditoriyanın əvvəlki illərə nisbətən az olmasına, son dönəmdəki proseslərin və internet medianın sürətli inkişafına baxmayaraq, bu gün qəzet çıxarmaq bir qəhrəmanlıqdır. Və "Şərq" qəzeti belə bir şəraitdə bu gün də öz fəaliyyətini, oxunaqlığını qoruyub saxlaya bilib. Bu gün metroda, ictimai nəqliyyatda, yaxud başqa bir yerdə insanların əlində "Şərq" qəzetini görəndə həmkarlarımızın uğuruna sevinirik. Bundan sonra da "Şərq" qəzetinin uzun illər yaşayacağına və inkişafına bizim heç bir şübhəmiz yoxdur və bu işdə dostlarımıza uğurlar arzulayırıq!***

***Yubiley ərəfəsində "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı ilə görüşüb söhbətləşdik və maraqlı bir müsahibə alındı.***

## Mətbuat o dövrdə həqiqətən 4-cü hakimiyyət idi...

**-Akif müəllim, noyabrin 1-də "Şərq" qəzetinin ilk nömrəsinin işıq üzü görməsinin 25 ili tamam olur. Bu münasibətlə "Ədalət" qəzetinin adından sizin timsalınızda "Şərq" qəzetinin bütün kollektivini təbrik edirəm! Yubileyi hansı təəssüratlarla qeyd edəcəksiniz?**

- 25 il az vaxt deyil, bir igidin ömrüdür. 90-cı illərdə Azərbaycanda qəzetlər arasında böyük rəqabət mövcud idi, arxasında yüz minlərlə oxucu kütləsi olan nəhəng müstəqil, yaxud partiya orqanları olan qəzetlər vardı, hansılar ki, indi tarixə qovuşublar. Onların sırasına biz o vaxt müstəqil qəzet olaraq daxil olduq. Onu da deyim ki, bu qəzetlərin arasında həmin dövrdə yerimiz o qədər də rahat deyildi. Hər gün bir qəzet çıxırdı, amma köşklərin qarşısında növbələr vardı. O dövrdə qəzetə maraq, insanların qəzet oxuma adəti vardı. Mətbuat o dövrdə həqiqətən 4-cü hakimiyyət idi. Baxmayaraq ki, 90-cı illərdə qəzetlərdə reklam olmurdu, amma satışdan əldə olunan vəsaitin hesabına pul vardı. Kollektivi də yaxşı yaşatmaq olurdu, vəziyyətə uyğun adekvat davrana bilirdik. O dövrdə qəzetlərin sayı çox olsa da, böyük rəqabətin olması yazılardakı keyfiyyətə də müsbət təsir edirdi. Rəqabət qəzetlər arasında deyil, redaksiyadakı jurnalistlər arasında da gedirdi. Bir redaksiyada azı 30-40 işçi olurdu. Bəzən olurdu ki, jurnalistlərin yazılarına yer tapa bilmirdik. Bizim ən böyük tirajımız gündəlik 28 min olub. Qəzetlər saat 12-dək satılıb qurtarırdı, bəzən insanlar gəlib redaksiyada arxiv üçün saxlanılan qəzetlərin üzünün surətini köçürürdülər. Bundan başqa "Gənclik" metrosunun yaxınlığında "Qasid"in bir anbarı vardı, geri qayıdan qəzetləri ora yığırdılar. Onun qarşısında çox vaxt növbə olurdu. Belə günlərimiz vardı...

**- Mən o günlərdə gəlmişəm mətbuata, heyif ki, az gördüm...**

- Bəli, qəzetçiliyin gözəl günləri vardı. Təəssüf ki, rəqəmsal jurnalistikaya keçid bu sahədə problemlər yaratdı. Saytların, yeni medianın yaranması, digər amillər bütün dünyada olduğu kimi, Azərbaycanda da qəzet sənayesinə təsir elədi. Biz Avropa ölkələrinə tez-tez gedib-gəlməsək də, bildiyim qədərilə orda qəzetlər bizdəki kimi acınacaqlı vəziyyətdə deyil. Türkiyədə, Rusiyada, İranda və Allahın bədbəxt Ermənistanında çoxlu qəzetlər çıxır. Rusiyada, Türkiyədə qəzetlər öz tirajını və ictimai rəyə təsiri imkanını qoruyub saxlayıb. Doğrudur, internetin qəzetlərin yox olmasında böyük təsiri oldu. Amma əsas bu deyil. Müəyyən obyektiv və subyektiv səbəblər var ki, qəzetlərin çap prosesinə mane oldu. Hardasa 15-16 il əvvəl Azərbaycanda təbliğat aparıldı ki, dünyada qəzetlər sıradan çıxır, kağız formatından digital formaya keçir. Bu anti-təbliğat kampaniyası qəzet sənayesinə mənfi təsir elədi. Müəyyən müzakirələr aparılırdı ki, qəzetçilik qalsın, ya yox?.. Necə yəni, qalsın, qalmasın nədir?..

## Yaxşı ki, onlar var, yeni yaranan süni rəqəmsal dilə qarşı mübarizə aparırlar

**- Rəqəmsal jurnalistika yazıların keyfiyyətini də aşağı saldı...**

- Mən bu gün klassik qəzetçilik üçün çox darıxıram. Bu gün saytların timsalında, digital medianın timsalında yeni yazı dili formalaşıb. Bizdə formalaşmış yazı mədəniyyəti artıq yerini mesaj, status jurnalistikasına buraxıb. Sosial şəbəkələrdə necə status yazılırsa, artıq saytlarda da həmin üslubdan istifadə olunur. Vatsap üzərindən kimsə necə mesajlaşırsa, həmin yazı dilini saytda yazı yazanda istifadə edir. Bu da əlbəttə ki, bədii-publisistik irsi sıradan çıxarır. Deyim tərzi, yazı tərzi, hətta vurğular dəyişib. Bu da klassik jurnalistikanın sıradan çıxması deməkdir. Bu gün cəmiyyətimiz nədən



narazıdır? Deyirik ki, səviyyəli peşəkar jurnalist az qalıb. Bunun əsas səbəbi maliyyə azlığıdır. Bu gün normal jurnalistika ilə məşğul olmaq üçün mühit yoxdur. Adam ürəyi istədiyi pulu qazana bilmir ki, ürəyi istədiyi yazını yazsın. Gənc jurnalistlər gəlir, yetişdiririk, peşəkarlaşır, amma maddi vəziyyətinin yaxşı olmaması səbəbindən başqa sahəyə üz tutur. Jurnalistikadan qazandığı pulla öz həyatını qura bilmir. Bu gün analiz etsək görərik ki, ən çox 90-cı illərdə jurnalistikaya gələnlərin sosial şəbəkədə yazdıqları statuslar da ictimai-siyasi əhəmiyyəti baxımdan fərqlənir. 2000-ci illərin ortalarından bəri jurnalistikaya gələnlərdən seçilirlər. Yaxşı ki, onlar var, yeni yaranan süni rəqəmsal dilə qarşı mübarizə aparırlar. Bir məsələni də deyim. Bu gün yenidən qəzetlərin kütləvi surətdə bağlanmaq xəbəri dolaşır. Doğrudur, bu gün dövlətdən yardım almasaq, bizim çap olunmağa imkanımız olmayacaq. 3-4 ay öz hesabımıza davam gətirə bilərik. Amma bu da müvəqqəti olar. Ona görə də, inanmıram ki, dövlət bu gün qəzetlərə maddi yardımını dayandırsın. Azərbaycan dövləti müharibəni qələbə ilə başa vuran güclü dövlətdir. Necə olur ki, qonşu ölkələrdə, hətta acından ölən Ermənistanda qəzetlər yaşayır, bizdə yox?.. Ona görə də qəzetlərin kütləvi surətdə bağlanacağı barədə yayılan xəbərlər təxribatdır.

**- Maliyyədən danışdınız, "Şərq"qəzeti artıq rəngli çıxır. Bunun satışa təsiri varmı?**

- Məncə, qəzetlərin satışı onun rəngindən deyil, bu satışı necə təşkil etməkdən asılıdır. Yadıma gəlir, gündəlik 60 səhifə çıxan qəzetlər vardı ağ-qara formatında. Qəzetlərin ortadan qalxmasının ən böyük səbəbi qəzet yayımı şəbəkəsinin dağılması oldu. Ölkədə yayım şəbəkəsi yoxdur. Bakı şəhərində qəzetin yayımı üçün yer tapa bilmirik. Yəni istehsal etdiyimiz məhsulu bazara çıxara bilmirik.

**- Bəs "Azərmətbuatyayım", "Qasid, "Qaya"?**

- Bizim vaxtilə özümüzün 27 nəfər işçisi olan yayım şəbəkəmiz vardı. "Qasid"in 480 köşkündən cəmi 10-u qalıb. "Azərmətbuatyayım"ın da sadəcə adı qalıb... Yəni imkanları əvvəlki qaydada deyil. "Qaya" bizim abunələrimizə qəzetlərin poçtalyon vasitəsilə daşınmasını təşkil edir. Ən çox da pul aldığımız "Qaya"dır. Onların özündə də maliyyə problemi var, artıq bir neçə aydır, "Qaya"dan pulumuzu ala bilmirik. Şəhərdə guya yeni qəzet köşkləri quraşdırdılar. Orda qəzetdən başqa hər şey satılır. Əvvəllər yenə heç olmasa köşklərin qarşısına qəzetləri qoyurdular. İndi artıq necə bağlı şəkildə gəlir, əziyyət şəkib heç onları da açıb piştaxtaya düzmürlır. Necə gəlib elə də qaytarırlar. Oxucu da baxır ki köşkün qabağında qəzet düzülməyib, gedib heç soruşmur. Amma əvvəllər yadınıza gəlir, satıcılar bütün qəzetlərdəki materiallarla tanış olurdular, manşetləri deyirdilər. Əldə qəzet satışının da böyük təsiri vardı qəzetlərin satışına. Rusiyada qəzet sənayesi ona görə hələ də özünü saxlayır ki, poçt sistemi güclüdür. Qəzeti poçtalyon hara qoyur, poçt qutusuna. Azərbaycanda isə nadir hallarda görərsən ki, hansısa binada poçt qutuları qalıb. Poçt qutularının ləğvi qəzetlərə zərbə vurdu. Yeni tikilən binalarda da poçt qutuları nəzərdə tutulmayıb. Qəzetçiliyi məhv etməklə mütaliə mədəniyyətinə də böyük zərbə dəydi. Son zamanlar kitaba marağı artırmaq üçün bəzi layihələr həyata keçirilir. Dövlət də müəyyən mənada bu layihələrə dəstək verir. Təəssüf ki, qəzetlə bağlı bu kimi istəklərimiz həyata keçmir.

**- Akif müəllim, kollektivi yubileydə hansı sürprizlər gözləyir?**

- Bizim həmişə ad günü ərəfəsində kollektivimizin üzvləri üçün mükafatlarımız olub. Jurnalistlərimizin ad günlərini də heç vaxt unutmamışıq. Amma indi yalandan nə deyim? Bu dəqiqə imkanlarımız o qədər kasaddır ki... Bizim böyük heyətlə yubiley məclisləri etdiyimiz vaxtlarımız çox olub. Bu dəfə özümüz üçün dar çərçivədə bir məclis düşünürük. İndiyədək "Şərq" qəzetində jurnalistlər və texniki işçilər də daxil olmaqla 180 nəfər çalışıb.

Bunlardan bəziləri bu gün başqa sahələrdə işləsələr də biz onları unutmuruq. Hamını təbrik edəcəyik. Bütün keçmiş işçilərimiz bilir ki, noyabrın 1-də "Şərqin" yubileyidir. Gələnləri geri qaytarmayacağıq ki. Amma çox istərdik ki, hamını bir yerə yığıb böyük tədbir keçirək, necə ki, əvvəllər 100-150 nəfərlik yubileylərimiz olub... Bu dəfə də ad günümüzə qədər bəzi layihələrimiz olacaq. Dünən gedib Zabratda "Xəyal adaları"nda 25 nar ağacı əkdik.

Ekologiya Təbii Sərvətlər Nazirliyi sağ olsun ki, bizə buna imkan yaratdı. İstədik ki, 25 illik yubileyimizdən bir yadigar qalsın. Sizə də təşəkkür edirəm ki, diqqət göstərdiniz.

Həmişə demişəm ki, Aqil Abbas bizim ocaq qonşumuzdur. O mənada ki, "Şərq"də bir problem olanda "Ədalət" onun yanında olub. Əvvəllər qəzetin səhifələrini nəşriyyatlara "plyonka"da verirdik. Bəzən olurdu ki, "plyonka"mız qurtarırdı, bilirdik ki, "Ədalət"dən alacağıq. Yalan olmasın 1 ay "Ədalət"in kartriclərindən istifadə etmişik. Öz kartricimiz zəif idi, almağa da pulumuz yox, Aqil Abbasa dedik, o dəqiqə işçilərə dedi ki, "Şərq"in plyonkalarını çap edin. Yaxud "Ədalət"də nəsə problem olanda bizim uşaqlar yardım edirdilər. Ona görə deyirəm ki. "Ədalət" qəzeti ilə ocaq qonşusu olmuşuq.

**İltifat HACIXANOĞLU**

# QUBADLININ ÜZÜNƏ AÇILAN SABAH

**Azərbaycanın coğrafiyasında özəl yeri olan, necə deyərlər, dağlar qoynunda yerləşən Qubadlı rayonunun bərəkətli torpaqları, zəngin təbiəti hər zaman diqqəti çəkir. Yəni sözün bütün mənalarında Qubadlı bir coğrafi ərazi baxımından dağı, meşəsi, düzənliyi, bulaqları, çayları olan bir bölgədir. Üstəlik, buradakı maddi-mədəni irs zənginliyi də həmişə könül açıbdı.**

Regionlarımızın inkişaf etdirilməsi və böyük dünyaya inteqrasiyası baxımından Qubadlının indiki durumuna nəzər yetirsək, onda bir anlıq tarixə baş vurmalı oluruq. Belə ki, hələ işğala qədər bu rayonun sovet təsərrüfat sistemi bölgənin inkişafında təkanverici qüvvə olmuşdu. 1933-cü ilin mart ayında inzibati ərazi vahidi kimi rayon statusu almış Qubadlı bir şəhər və 93 kənddən ibarət olmuşdu. Rayon mərkəzi olan Qubadlı şəhərinin yerləşməsi və bu şəhərdəki infrastrukturun inkişaf etdirilməsi üçün həm texniki, həm də arxitektura baxımından qanunauyğundur. Ona görə də Qubadlıda küçələrin çəkilməsi, qazlaşdırma, su xətləri, elektrik, telefon xətləri və s. məsələlərin həllində qarşıya o qədər də böyük problemlər çıxarmır.

Bu gün işğaldan azad olunmuş Qubadlıya nəzər yetirəndə görürük ki, sovet dönəmində texniki peşə məktəbi, eləcə də orta məktəb, xəstəxana, mədəniyyət ocaqları fəaliyyət göstərmişdi. Ümumilikdə rayon ərazisində 56 ümumtəhsil məktəbi mövcud idi. O cümlədən də bu rayonda say baxımından 115 iri və orta müəssisə mövcud idi. Deməli, rayonun tarixində daha önəmli yerləri tutan XVII əsrin ortalarına aid abidələrin də olması sübut edir ki, Qubadlı həm də qədim mədəniyyət mərkəzi olubdu. Hətta Qubadlı bir toponim olaraq V-VI əsrlərdə yaşamış Sasani hökmdarı birinci Qubadın adıyla da bağlı yaranış ehtimalı var. Ümumiyyətlə, bu rayonun tarixi Qarabağ xanı Pənahəli xanın uğurlu siyasəti nəticəsində xanlığın idarəçiliyində qalmış və 1921-ci ildə yenidən erməni və onlara havadarlıq edən bolşeviklərin və daşnakların yürütdüyü siyasət nəticəsində iki yerə bölünmüşdü. Tarixçilərin araşdırmalarına diqqət yetirsək, onda Qubadlı, Zəngilan və Laçının "Qırmızı Kürdüstan" muxatariyyəti adlı bir zaman da yaşadığını görmüş olarıq. Bütün bu olayların təbii ki, əsas məğzi sovet dönəmində yenidən üzə çıxdı. Bu da ermənilərin bölgəyə olan hərisliyi idi. Təəssüf ki, Birinci Qarabağ Savaşında ermənilər bu istəklərinə qovuşa bildilər və 1993-cü ilin avqust ayında Qubadlı işğal olundu. Ali Baş Komandanımızın 27 sentyabr 2020-ci ildə verdiyi əks-hücum əmriylə başalanan Böyük Vətən Müharibəsində Qubadlı da yenidən öz sahiblərinə qovuşdu. Xocavənd, Cəbrayıl və Laçının əhatəsində olan Qubadlı Bərgüşad, Həkəri çaylarının ona bağışladığı gözəlliyini yenidən bizlər üçün sərgilədi.



***Bu gün ölkə prezidenti cənab İlham Əliyevin göstərişi ilə işğaldan azad olunmuş rayonlarımızın bərpası, yenidən qurulması istiqamətində genişmiqyaslı layihələrin gerçəkləşdirilməsinə start verilibdi. Bununla bağlı Azərbaycan prezidenti işğaldan azad edilmiş Qubadlıda olarkən birmənalı şəkildə vurğulamışdı ki, "Erməni faşistlərinin törətdikləri cinayətlərin izini bu torpaqlardan siləcəyik. Biz Qubadlını əvvəlkindən də gözəl, müasir şəhərə çevirəcəyik. Hər kəs görəcək ki, xalqımız öz birliyilə, öz intellektiylə, öz yaradıcılıq potensialıyla bu dağıntılar üzərində necə gözəl, yaraşıqlı şəhər qurmaq gücünə malikdi".***



Bəli, Qubadlının meşə sahəsi 13,2 min hektardı. Təkcə burada meşə təsərrüfatını inkişaf etdirmək və bu ərazidə həm təbiətin saflığını, gözəlliyini qorumaq, həm də meşə təsərrüfatının imkanlarından istifadə etməklə yeni iş yerləri açmaq, emal müəssisəsi yaratmaq mümkündü. Eləcə də qubadlıların zaman-zaman məşğul olduqları heyvandarlığın inkifaş etdirilməsi üçün də ərazidə böyük imkanlar var. Hələ sovet dönəmində rayonda ət, süd məhsullarının istehsalı, eləcə də tütünçülük, baramaçılıq və üzümçülük sahələri həmişə diqqət mərkəzində saxlanılmışdı. Ona görə də rayonda iki üzüm emalı zavodu fəaliyyət göstərirdi. Bu da o deməkdi ki, rayon ərazisində üzümçülüyün inkişaf perespektivi daha böyükdü. Yəqin ki, Qubadlının yeni dövrün iqtisadi xəritəsini çəkənlər, yəni burada sosial-iqtisadi planlaşmanı işləyib hazırlayanlar rayon üçün önəmli olan sahələri, xüsusilə üzümçülüyün, dənli bitkilərin yetişdirilməsinin, heyvandarlığın genişləndirilıməsini mütləq nəzərə alacaqlar. Göstərdiyimiz bu sahələr özü-özlüyündə həm də əhalinin işlə təmin olunması, eləcə də Qubadlı sakinlərinin maddi-rifah halının yüksəlməsinə birbaşa xidmət deməkdir.

***İşğaldan öncə Qubadlı rayonunda yol tikintisi idarəsi də fəaliyyət göstərirdi. Həmin yol tikintisi və digər tikinti idarələrinin əsas istifadə etdikləri xammal ehtiyatları rayonda kifayət qədər var. Yəni çınqıl və çay daşlarına olan tələbatı rayonun özündə yerləşən müəssisə toplayıb emal etmək gücündə idi. Ona görə də rayonda tam gücüylə işləyən asfalt zavodu fəaliyyət göstərirdi ki, onun hazırladığı asfalt betonlar digər rayonlara da göndərilirdi. Yəni burada özlərindən başqa qonşuları üçün də istehsal etmək imkanları mövcud idi. Yeri gəlmişkən, onu da xatırladım ki, rayonun coğrafiyasına uyğun olaraq burada balıqçılığa da diqqət ayrılmışdı. Yəni Həkəri və Bərgüşad çaylarının imkanlarından istifadə edilərək rayonda "balıq yetişdirmə vətəgəsi" yaradılmışdı. Bu da rayonun və qonşu rayonların tələbatlarının ödənilməsində öz müsbət təsirini göstərirdi.***

Təbii ki, işğaldan azad olunmuş Qubadlıda bu məsələnin də gündəmdə olması həyati zərurətdi. Bir az da dəqiq ifadə etsəm, deməli, dağ çaylarının suyundan istifadə etməklə, Qubadlıda balıq yetişdirmə sahəsində mühüm nailiyyətlər əldə etmək olar. O cümlədən də qubadlıların böyük təcrübəsinə istinad edərək burada inkubator-quşçuluq fabrikini bərpa etmək mümkündür. Deməli, bu iki sahənin yaradılıb dirçəldilməsi özü-özlüyündə həm Qubadlıya, həm də bölgədə balıq və quş əti məhsullarına olan tələbata cavab vermiş olar. Statistik rəqəmlərə diqqət yetirəndə onu da görürük ki, Qubadlıda tütünün becərilməsi və emalı da yerli sakinlərin məşğuliyyət sahələrindən olubdu. Deməli, bu sahədə də təcrübə var və onu inkişaf etdirmək mümkündü.

**Fikirlərimizi konkretləşdirərək vurğulamaq istərdim ki, Qubadlıda bostan-tərəvəz məhsulları, həmçinin bağçılığın da inkişaf etdirilməsi prespektivlərinə diqqət çəkəndə görürük ki, bu sahələrə də həm rayonun bərəkətli torpaqları, həm də sakinlərinin təcrübəsi yaşıl işıq yandırır. Deməli, rayonun imkanlarından istifadə etməklə burada şirə müəssisələri yaratmaq da olar. O ki, qaldı rayonda mədəniyyət sahəsinin inkişaf etdirilməsinə, birmənalı şəkildə vurğulamaq lazımdır ki, sovet dönəmində rayonda 111 mədəni-maarif müəssisəsi fəaliyyət göstərmişdi ki, bu gün onların hamısı dağıdılmış və yaxud da məhv edilmişdi. Deməli, bu sahə də özü-özlüyündə böyük diqqət tələb edir. Yeni Qubadlının uğurlu sabahı üçün bu addımlar da mütləq atılacaqdı.**

***Əbülfət MƏDƏTOĞLU***


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# NİZAMİ GƏNCƏVİ AZƏRBAYCAN XALQININ MİLLİ QÜRUR MƏNBƏYİDİR




*VƏFA GÖVHƏR,*
*Bakı Xoreoqrafiya Akademiyasının mətbuat katibi*


**Dahi Nizaminin (1141-1209) anadan olmasının 880 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami ili" elan olunması ilə əlaqədar təşkil edilən tədbirlər, geniş oxucu kütləsi üçün Nizami yaradıcılığını əks etdirən silsilə yazılar, aparılan yeni-yeni araşdırmalar ədəbiyyatımızın inkişafına və Nizami Gəncəvi irsinin tədqiqinə böyük töhfələr verməkdədir.**

Orta əsrlərdə Şərqin ən böyük mütəfəkkirlərindən biri, farsdilli poeziyanın klassiki, epik ədəbiyyatın dahi romantik şairi, farsdilli epik poeziyaya danışıq dili və realistik üslub gətirmiş Nizami Gəncəvinin qəhrəmanlıq və romantika dolu poeziyası özündən sonra bütün əsrlər boyu ərəb, fars dilinin istifadə olunduğu bütün ərazilərdə özünü ona oxşatmağa çalışan gənc şairlərin yaradıcılığına böyük təsir göstərmişdir.

Nizaminin yaşadığı tarixi mühitə nəzər yetirsək; Azərbaycan ərazisində 2 dövlətin - Kürün şimal hissəsində Şirvanşahların, cənub hissəsində isə Eldəgizlər sülaləsinin hökmdarlıq etdiyini görürük. Əsasən indiki Cənubi Azərbaycan ərazisi və Arran əyalətlərini əhatə edən torpaqlar səlcuq sultanlarının İraqi-Əcəmdəki böyük atabəyləri kimi Eldəgizlər sülaləsi tərəfindən idarə olunurdu. Özləri türkman mənşəli olan səlcuqlar İran taxtını ələ keçirdikdən sonra, ölkədə türkləşmə siyasəti aparmamış, əksinə, özləri assimilyasiyaya uğramışlar. Mövcud türk hakimiyyəti altında fars mədəniyyəti və ədəbiyyatı daha da inkişaf edərək əsas ədəbiyyat dili olaraq qalır. Türk xaqan və sultanları fars ədəbiyyatına hamilik etməklə, əsrlər boyu türk saraylarında yazılan fars ədəbi abidələrinin müəllifləri, əslən fars olmayan türk əsilli mütəfəkkirlər - Əlişir Nəvai, İbn Sina, Əbdürrəhman Cami kimi ədəbi şəxsiyyətlər fars ədəbiyyatına dünya şöhrətli əsərlər bəxş edirlər.

***Bu baxımdan Azərbaycan torpağının yetirmələri olan Nizami Gəncəvidən tutmuş Qətran Təbrizi, Əbülüla Gəncəvi, Xaqani Şirvani, Qasım Ənvar, Sadıq Əfşar, Saib Təbriziyə kimi məşhur qələm sahibləri farsca yazıb-yaratmaqla İran ədəbiyyatını daha da zənginləşdirmiş olurlar.***

O dövrdə Azərbaycan - Arran və Şirvan Xorasandan sonra fars mədəniyyətinin ikinci ən böyük mərkəzi idi.

XV əsrə qədər Şərq ölkələrinin çoxunda elm dili ərəb, poeziya dili isə fars dili hökm sürür. Həmçinin bu ənənə Nizaminin yaşadığı Gəncəyə də sirayət edir.

XV əsrdən etibarən Azərbaycan ədəbiyyatı əsasən doğma dildə inkişaf edir. Şah İsmayıl Xətainin hakimiyyətə gəlişi ilə Səfəvilər dövlətinin təşkilindən sonra Azərbaycan dilində yazib-yaratmağa xüsusi əhəmiyyət verilir.

### *Nizaminin həyatı*

haqqında məlumat kifayət qədər deyil. Onun həyatı haqqında yeganə məlumat mənbəyi onun əsərləridir ki, burada o, həyatında baş vermiş yaddaqalan hadisələrin tarixi haqqında, əsərlərinin yazılma vaxtını qeyd etməklə, müəyyən məlumatlar əldə etmiş oluruq. Buna görə də Nizaminin şəxsiyyəti ətrafında bir sıra fərziyyələr irəli sürülür.

***Nizami Gəncədə doğulmuş və ömrünün sonuna kimi burada yaşamışdır. Şairin əsl adı İlyas, atasının adı Yusif olmuşdur. Ədəbi təxəllüs kimi isə şair özünə Nizami Gəncəvi ismini götürmüşdür.***

Uzun illərdir ki, XII əsr müsəlman- Şərq intibahının ən görkəmli nümayəndəsi olan Nizami Gəncəvinin fars, yoxsa Azərbaycan şairi olması mövzusu müzakirə obyekti olmaqdadır.

İran alimlərinin iddiasına görə Nizami farsdır. Nizaminin etnik mənsubiyyətinin qeyri türk olmasına dair şübhələr yaradan versiyaların irəli sürülməsi və Nizamiyə fars əsilli prizmadan yanaşmanın səbəbi isə onun fars dilində yazması ilə əsas gətirilir.

***"Xosrov və Şirin" əsərində "Türklüyüm bu Həbəşdə heç getmir, dadlı dovğaya xalq meyl etmir", "Əgər o aydırsa, biz afitabıq, O Keyxosrovdursa, biz Əfrasiyabıq" və ya "Dağ kimi ucalmışdı bir zaman Türk dövləti" deyən, qəsidə və məsnəvilərində müsbət türk xarakterlərini önə çəkən, türk obrazları yaradan Nizami necə ərəb və ya fars xalqının nümayəndəsi ola bilər?***

Xalqımızın düşüncə və təfəkkürünə illər boyu yeridilmiş olan, guya dahi şair ana dilində heç bir əsər yaratmamışdır kimi məntiqsiz fikri təsdiqləmək bizlər üçün dahi Şeyx Nizaminin ruhu qarşısında çox qəbahət olardı!

Nizami "Xəmsə"sində külli miqdarda atalar sözlərindən, zərbi-məsəllərdən və aforizmlərdən istifadə etmişdir. Onun xalq yaradıcılığından bəhrələndiyi ifadələr Azərbaycan xalqının adət və ənənələri, dil və ifadə xüsusiyyətləri ilə bağlı olmuşdur. Şairin həm cismən, həm də ruhən Azərbaycan xalqına mənsub olması onun əsərlərinin ruhundan aydın sezilir. Əsərlərinin dili farsca olmasını bir kənara qoysaq, görərik ki. Nizami fars millətindən çox uzaq olub, yaradıcılığının



bütün dövrlərində türkçülüyü ideallaşdırmış və təbliğ etmişdir.

***Bu baxımdan "Leyli və Məcnun"un yazılma tarixçəsi mövcud müəmmalı suala cavab verir. "Leyli və Məcnun" mövzusunda məsnəvi yazmağı Nizami Gəncəviyə XXI Şirvanşah Sasanian I Axsitan məktub göndərməklə sifariş etmişdi. Məktubda tələb qoyulan əsas məsələ isə poemanın türk dilində deyil, fars dilində yazılması idi. Əsər hazır olduqda isə hökmdarı qane etmir. Bu üzdən Axsitan şairi mükafatlandırmır. "Leyli və Məcnun" poemasında Axsitanı razı salmayan cəhət, həmin "türki sifətlər" olmuşdu ki, bunu hökmdar məktubunda şairə xatırlatmışdı.***

### *Şirvanşahın türkçülüyə mənfi münasibəti*

nəticəsində poema sonralar XIII əsrin I yarısında yenidən redaktə edilərək dəyişdirilir. Əsərdə nəzərə çarpan üslub müxtəlifliyi, bəzi fəsillərdə qeyri ardıcıllıq, mövzudan kənarlaşma nüansları sübut edir ki, poemanı sənətkarlıq səviyyəsi baxımından Nizamidən zəif olan bir şair redaktə etmişdir.

Buradan bəlli olur ki, yalnız fars dilində yazıb-yaradan şair kimi qələmə verilən Nizaminin kifayət qədər doğma ana dilində - Azərbaycan dilində əsərləri olmuşdur. Bunu orta əsr təzkirəçiləri də dönə-dönə dahi Nizaminin Azərbaycan dilində yazdığı divanının olduğunu iddia edirlər.

Hadisələrin gedişatından nəticə çıxarsaq, belə qənaətə gəlmək olur ki, Nizami bir çox əsərlərini ana dilində - türkcə yazmış, sonra həmin poemalar fars dilinə tərcümə edilmişdir. Poemaların dili də bunu aydın şəkildə təsdiq edir.

***Bütün dillərdə olduğu kimi fars dilinin də müxtəlif dialektləri mövcuddur. Nizamişünas, şərqşünas və mətnşünasların gəldiyi qənaətə əsasən Nizami poemaları fars dilinin Xorasan, Bəlx dialektində yazılmışdır. Şairin isə Xorasanda və ya indiki Əfqanıstanda yaşayan farslarla heç bir ünsiyyəti olmayıb. Bəlli olan odur ki, Nizaminin poemaları elə sağlığında ikən fars dilinə tərcümə edilib. Çünki "Leyli və Məcnun" mövzusunu Nizamiyə sifariş verən Axsitan təkidlə qeyd edir ki, əfsanəni fars dilində qələmə alsın və həqarətlə "türk dili yaraşmaz şah nəslimizə, türk dili əskiklik gətirər bizə" - deyərək, türklərə və türk dilinə olan mənfi münasibətini açıq şəkildə məktubda izhar etmişdir. Bundan əsəbiləşən Nizami yalnız oğlu Məhəmmədin təkidindən sonra Axsitanın təklifini qəbul edir. Elə bu məntiqlə də şairin ana dilində əsər yazmamağının qeyri-mümkün olması sübuta yetirilmiş olur.***

İran ədəbiyyatında Nizami fars ədəbiyyatının incisi adlandırılır. Qonşu dövlət bütün bəşəriyyətə gərək olan bu dühanı öz adına çıxarmaqda hələ də israrlıdır.

Nizaminin həyatı haqqında çox az məlumat olsa da, dəqiq bəllidir ki, o, saray şairi olmamışdır. Əsərlərinin ruhundan aydın sezilir ki, o, azad yaradıcılıq imkanına malik olmuşdur. Yalnız öz şəxsi istəyi ilə Nizami əsərlərini müxtəlif sülalələrdən olan hökmdarlara həsr etmişdir.

Şifahi xalq ədəbiyyatı və yazılı tarixi salnamələrin ənənəvi mövzularından istifadə edən Nizami üçün Firdovsi yaradıcılığı əsas ilham mənbəyi olmuşdur. Bu ehtiramdan doğan sayğıya rəğmən "Xosrov və Şirin", "Yeddi gözəl" və "İsgəndərnamə" poemalarının yaranmasında şair süjet xətti olaraq "Şahnamə" motivlərindən istifadə etmişdir.

Nizami dühasından doğan "Xəmsə" bütün Şərq dünyasında, şeriyyət aləmində ədəbi-bədii kəşf olmaqla yanaşı, eyni zamanda ədəbiyyata gətirdiyi mövzu və ideya yeniliyi idi. Əsasən İslamiyyətdən sonrakı ədəbiyyatda, X-XI əsr böyük fars şairi Firdovsidən tutmuş Nizamiyə qədər bütün şairlərin yaradıcılığının əsas qayəsini İslami hədislər, peyğəmbərlərin həyatı, məhəbbət, gözəllərin vəsfi, İran hökmdarlarının mədh edilməsi, yunan əsatirlərinin personajları, Makedoniyalı İsgəndərin qəhrəmanlığının önə çəkilməsi kimi mövzular əhatə edirdisə, böyük ustad Nizami ədəbiyyata artıq yeni mövzular, yeni çalarlar gətirir.

### *XII əsr saray şairləri*

***Şirvanda və Təbrizdə Şirvanşahların və Eldəgizlərin sarayında yaşayırdılar. Saray şeirlərində qadına qarşı münasibət mənfi idi; qadın fitnə-fəsad mənbəyi adlandırılırdı. O dövrün din və şəriət qanunları da qadın hüququnu tapdalayırdı. Humanist sənətkar isə qadına yüksək dəyər verərək, onu yaradılışın zəhmətkeş, qayğıkeş, zəkalı varlığı kimi qəbul edib, müsbət qadın surətləri yaradır. Bu dövr saray şeirlərində vətən məfhumu, vətənpərvərlik hissi yox dərəcəsində idi. Böyük şairin novatorluğu sayəsində bütün şeriyyət aləminə yeni ahəng qatılır. Dünya ədəbiyyatının 5 ən görkəmli dahi şairləri sırasına daxil edilən böyük Azərbaycan şairi Nizami ilk dəfə olaraq Şərq ədəbiyyatında dolğun və parlaq qadın surətini yaratmış, ədalətli hökmdar konsepsiyasını irəli sürməklə, insan amalını sənətin baş mövzusu kimi ədəbiyyata gətirmişdir. Didaktik janrın ən qiymətli nümunələrini yaradan dahi şair elmi-fəlsəfi məzmunda və ictimai-siyasi hadisələri bədii formada verməklə, şeirin ən gözəl nümunələrini - qəzəl, qəsidə və məsnəvilər yaratmışdır.***

Acınacaqlısı odur ki, Azərbaycan ədəbiyyatşünas, şərqşünas və tədqiqatçıları nə mətbu orqanda, nə də yazılı ədəbiyyatda XX əsrin əvvəllərinə qədər Nizamidən heç bir söhbət açmamışlar. İran ədəbiyyatşünasları isə onilliklər boyu Nizami yaradıcılığı ilə ciddi məşğul olub onu özünküləşdirərək, əsərlərini ingilis və fransız dillərinə tərcümə etməklə, onu dünyada İran şairi kimi tanıtmışlar.

Bu baxımdan Azərbaycan Respublikasının I vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyət Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti sayəsində Azərbaycan mədəniyyətinin dünya üzrə təbliğində, milli incəsənət nümunələrimizin, qeyri-maddi mədəni irsimizin qorunması, görkəmli mütəfəkkirlərimizin yubileylərinin təşkil olunması və beynəlxalq şəkildə tanınması milli-mənəvi sərvətlərimizin, dahi şəxsiyyətlərimizin mənimsənilməsinin qarşısının alınması yönündə atdığı əməli addımlar böyük əhəmiyyətə malikdir.

Araşdırmalarıma əsasən Azərbaycanda (Şimali) Nizami Gəncəvi haqqında ilk dəfə mətbuatda dərc olunan yazılar sırasında M. M. Axundzadənin "Şeyx Nizaminin qəbri" (Gəncə, 1909), F. B. Köçərlinin "Azərbaycan ədəbiyyatının tarixi materialları" (Bakı, 1925), Salman Mümtazın "Şeyx Nizami" ("Kommunist" qəzeti, 1925) yazıları durur. Kitab halında isə ilk dəfə Nizami Gəncəvinin əsərləri 5 cilddə, 800 illiyi münasibətilə 1941-ci ildə Səməd Vurğun, Rəsul Rza, Məmməd Rahim, Süleyman Rüstəm və Abdulla Şaiqin tərcümanlığı altında çap edilmişdir.

***Kitabda "Xəmsə"yə daxil olan 5 poema və Azərbaycan dilinə tərcümə olunmuş şeirlər yer almışdır. Yubiley gecəsi isə Böyük Vətən Müharibəsi dövrünə təsadüf etdiyindən təxirə salınaraq 1947- ci ildə keçirilmişdir.***

Tarixi ədəbiyyatda M. Ə. Rəsulzadənin böyük şairin yubileyi münasibətilə yazdığı "Azərbaycan şairi Nizami" adlı monoqrafiyası nizamişünaslığın tədqiqində ən dəyərli mənbələrdən hesab edilməklə yanaşı, Nizami haqqında yazılmış ilk kitab kimi də qeyd edilir. Kitab müəllif tərəfindən 1941-ci ildə qələmə alınsa da müharibənin doğurduğu çətinliklər üzündən 1951-ci ildə Ankarada nəşr olunur.

XX əsrin II yarısından etibarən Nizaminin həyat və yaradıcılığını öyrənmək daha kütləvi şəkil alır. Həmid Araslı, Ələşrəf Əlizadə, Mikayıl Rəfili, Əkbər Ağayev, Mübariz Əlizadə kimi Nizami poeziyasının tədqiqatçıları tərəfindən sanballı əsərlər yazılmaqla Nizami yaradıcılığına elmi yanaşmanın əsası qoyulur.

Hal-hazırda Nizami Şərq tədqiqatçıları tərəfindən İran ədəbiyyatının təmsilçisi kimi, bir sıra Avropa ölkələrində və rus mənbələrində Azərbaycan şairi kimi təqdim edilir.

Nizami Gəncəvi nəinki Azərbaycan ədəbiyyatı tarixində, hətta bütün Şərqdə yeni bir ədəbi məktəbin əsasını qoymuşdur.

Azərbaycanda Nizami irsi hər zaman maraqla qarşılanmış və diqqət mərkəzində olmuşdur. Bu gün respublikamızda gənc nizamişünaslar nəsli yetişməkdə davam edir.

**Nizami əsrlər durduqca Azərbaycan ədəbiyyatının təməl daşıyıcısı və milli-mənəvi xəzinəmiz kimi əbədi olaraq qəlblərdə və tarixi səhifələrdə yaşayacaq!**

# "Azərkitab"da yandırılan işıq

**Ötən gün "Azərkitab"ın Yasamal ərazisindəki möhtəşəm binasında isti bir mühit hakim kəsilmişdi. Təbii ki, bu binanın adı və buradakı kitabların yaratdığı aura özü-özlüyündə hər şeyi deyir. Ona görə mən dəvət edildiyim bu ünvana böyük həvəslə yollandım və burada yaşadığım anlar, müşahidə etdiyim məqamlar mənim üçün unudulmaz oldu. Ona görə ki, ötən gün, yəni oktyabrın 28-də axşam saat 16:30-da "Azərkitab"ın ikinci mərtəbəsində Zəfər günü münasibətilə "Azərkitab" kitab mərkəzi və Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin dəstəyi ilə fotoqraf Xuan Rodrigo Labardini Floresin və istedadlı gənc rəssamımız Arzu Əhmədlinin "İncəsənət sərhəd tanımır" adlı ilk birgə yaradıcılıq sərgisi təşkil olunmuşdu.**



Əvvəlcədən onu xatırladım ki, bu maraqlı layihə Azərbaycanda bir ilkdir. Bu ilkin təşkilatçıları da Elnurə və Aygün İsgəndərova bacılarıdır. Onlar artıq bu istiqamətlə bir neçə dəfə müəyyən addımlar atıblar və hətta gənc istedad olan Bakı Slavyan Universitetinin 2-ci kurs tələbəsi Arzu Əhmədlini də onlar Ağcabədidə kəşf ediblər. Belə ki, həmin rayonda keçirilən tədbir zamanı hələ məktəbli olan Arzu xanım öz rəsm əsərlərini tədbirdə nümayiş etdiribdi. Bu da İsgəndərova bacılarının diqqətini özünə çəkib. Və onlar da gənc istedadın izi ilə Bakı Slavyan Universitetinə üz tutublar. Beləcə bir gənc istedadı üzə çıxarıblar.

"Azərkitab"ın ikinci mərtəbəsində keçirilən tədbirə respublikamızın dəyərli ziyalıları, millət vəkilləri Qənirə Paşayeva, Tahir Rzayev, Aqil Abbas, Azər Badamov, Milli Qəhrəman İbad Hüseynov, AYB-nin katibi Rəşad Məcid, eləcə də ölkəmizdə fəaliyyət göstərən İspaniyanın, Argentinanın, Quzey Kıprız Respublikasının və digər ölkələrin səfirləri, rəssamlar, jurnalistlər, təbii ki, həm də gənc istedadın yaxınları, doğmaları da iştirak edirdi.

Mən böyük maraqla gənc istedadın əl işlərini, yəni onun divarlardan asılmış və hər birinin də özünəməxsusluğu olan əsərlərinə baxdım. Ən çox diqqətimi çəkən "Ana" portreti idi. Ümumiyyətlə, bu sərgidə Arzu xanım portret əsərlərini nümayiş etdirirdi. Əsərləri izləyən yazıçı-publisist Aqil Abbas da həmin "Ana" portreti önündə müəlliflə şəkil çəkdirərkən vurğuladı ki, bu əsərdə Arzu qızımız öz nənəsini əks etdirib. Ona görə də əsər canlı alınıbdı.

Sərgi ilə bağlı söhbət etdiyim millət vəkili Tahir Rzayev vurğuladı ki, Arzu xanımın işləri həqiqətən maraqlıdır. Çünki onun portret əsərləri insan obrazlarının ifadəsidir. Və bu obrazların hər birində həyat əlamətləri diqqəti çəkir. Üstəlik də, portretlərdə bir səmimiyyət də var. Mən Arzu xanıma uğurlar arzu edirəm. İnanıram ki, o, daha da püxtələşib, bundan da gözəl əsərləri ilə Azərbaycan rəssamlıq sənətinə töhfələr verəcəkdir. Tahir müəllimin fikirlərini davam etdirən millət vəkili Arzu Badamov isə əlavə edib ki, tələbə qızımızın çəkdiyi bu rəsmlər mənə həqiqətən xoş təsir bağışladı. Portretləri gözdən keçirtdikcə, onlarda işıq, həyat əlaməti dərhal diqqətimi çəkdi. Mən də gənc rəssama uğurlar diləyirəm.

Millət vəkili Qənirə xanım Paşayeva isə vurğuladı ki, həvəskar rəsam olan Arzu xanım Bakı Slavyan Universitetindəki təhsilini başa vurduqdan sonra mütləq rəssamlıqla bağlı təhsil almalı və bu sənətin sirlərini daha dərindən öyrənməlidir. Çünki Allah ona gözəl istedad verib. Bu istedadı inkişaf etdirmək isə Arzu xanımın birmənalı borcudur. İnanıram ki, bu işdə ona atası Rövşən müəllim də dəstək olacaqdır. Tədbirdə çıxış edən digər iştirakçıların hər biri həvəskar rəssamın bu ilk sərgisinə görə təbrik edib, ona uğurlar dilədilər.



Həmin təbriklərə xarici səfirlər də qoşuldular. Mən də fürsətdən istifadə edib Arzu xanımın atası Rövşən müəllimlə ayaqüstü söhbət etdim. Rövşən müəllim vurğuladı ki, Arzu hələ kiçik yaşlarından rəsm sənətinə maraq göstərib, orta məktəbdə o müxtəlif rəsmlər çəkirdi.

Necə deyərlər, heç bir rəssamlıq təhsili almadan özü öz ürəyinin səsinə qulaq asıb bir xobbi olaraq bu işlə məşğul olub. Bir ata kimi sevinirəm ki, qızım bu gün özünün qabiliyyətini uğurla nümayiş etdirir. İnşallah, gələcəkdə daha böyük sərgi zallarında daha möhtəşəm əsərlərlə çıxış edəcək. Atasının fikirlərini davam etdirən Arzu xanım Əhmədli də bildirdi ki, o, bu gün çox xoşbəxtdir. Bu xoşbəxtliyi də ona Allah hədiyyə edib. Həmin hədiyyə də nümayiş etdirdiyi əsərləridir. Bu əsərləri seyr edən hər kəsə ürəkdən minnətdaram.

**...Bəli, "Azərkitab" ötən gün bir istedadlı, həvəskar gənc rəssamın yolunda yaşıl işıq yandırdı. İnanıram ki, o işıq heç vaxt sönməyəcək.**

**Əbülfət MƏDƏTOĞLU**

# LƏNKƏRAN TEATRI YENİ MÖVSÜMƏ BAŞLADI

**Oktyabrın 20-də Lənkəran Dövlət Dram Teatrı 131-ci mövsümünə start verdi. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən teatrın direktoru Tofiq Heydərov yeni mövsümdə yaradıcı kollektivin qarşısında duran vəzifələrdən və planlardan danışdı. Bildirdi ki, Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Qurbanovun rəhbərliyi ilə yaxın vaxtlarda teatrda osetin dramaturqu Georgi Xuqayevin "Varlı ev" tamaşasının məşqlərinə başlamaq nəzərdə tutulur. Gənc rejissor Tərlan Abdullayev isə Xanımana Əlibəylinin şeirləri əsasında səhnələşdirdiyi "Ləpələrin nağılı" tamaşasının son məşqlərini aparır. Bu səhnə əsəri noyabrın əvvəllərində azyaşlı tamaşaçıların ixtiyarına veriləcək.**



Qeyd olundu ki, yeni mövsümdə sənətsevərlərə digər yeni səhnə əsərləri də təqdim olunacaq.

Açılış mərasimindən sonra klassik Azərbaycan dramaturqu Cəfər Cabbarlının "Vəfalı Səriyyə və ya göz yaşı içində gülüş" tamaşası nümayiş etdirildi. Ailə-məişət mövzusundan bəhs edən bu səhnə əsərində cəmiyyətin əsas mövcud problemləri, o cümlədən ictimai, əxlaqi-mənəvi inkişafa mane olan gerilik, mühafizəkar insanların çürük adətlərə sadiqliyi, pulun cəmiyyətə və əxlaqa göstərdiyi pozucu təsiri kəskin tənqid olunur.

**Maraqla izlənilən tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayevdir. Rolları Aynur Əhmədova (Səriyyə), Səyad Əliyev (Rüstəm), Xalq artisti Qabil Quliyev (Həmzə), Əməkdar artist Sucəddin Mirzəyev (Səfər), Qızılgül Quliyeva (Çimnaz), Əbülfəz Axundov (Axund), Tərlan Abdullayev (Məhərrəm), Emin Fərzullayev (Qurban), Miraslan Ağayev (Molla Möhsün), Təranə Fərəcova (Hüsniyyə) və Amil İbrahimli (Əsgər) ifa etdilər.**

**Ağaddin BABAYEV**

# Əxlaqsızlığa Allah cəzası, Pompey "dərsi": Kül olmuş şəhər, daşa dönmüş insanlar...

**Din xadimlərinin bildirdiyinə görə, Lutun adı Qurani-Kərimin on dörd surəsində ("Əraf", "Hud", "Ənam", "Həcc", "Şüəra", "Hicr", "Nəml", "Ənkəbut", "Sad", "Qaf, "Qəmər", "Təhrim", "Ənbiya" və "Saffat") zikr olunub.**

Bu on dörd surənin on birində onun qövmünün adı və qövmü ilə mübahisəsindən qısa və ətraflı söhbət açılıb. Rəvayətlərdən görünür ki, oranın camaatı müxtəlif zülmlərə, azğınlıqlara, zülmcəsinə olunan hökümlərə pis əməllərə, günahlara və bihudə işlərə mübtəla idilər. O zamanadək ki, Lut peyğəmbər onların arasına gəlib və təbliğ edib düz yolu onlara göstərərək öz ağır və çətin risalətini onlara çatdırdı.

Lut qövmü də təhdidləri yalan saymışdı. Biz də onların üstünə daş yağdıran yel göndərdik (başlarına daş yağdırdıq), yalnız Lutun ailəsini səhər çağı xilas etdik. (Qəmər surəsi, 33-34)

## *Əxlaqsız Lut qövmü*

Əxlaqsızlığın belə əxlaq normaları var. Lut qövmü onlardan öncə kimsənin etmədiyi bir əxlaqsızlığı edir və onlarla eyni təfəkkürdə olmayan, təmiz olanlara qarşı da mübarizə aparır, onları yurdlarından çıxaracaqları ilə hədələyirlər. Ayələrdən onu da anlayırıq ki, bu qövm əxlaqsızlığı ümumi bir yerdə, camaat içində (Ənkəbut, 28-29) icra edirmiş.

Bu əsl mənada əxlaqsızlığa dəvət mənasını daşıyır. Qapalı bir yerdə zina etmək əxlaqsızlıq, açıq bir yerdə, gözlər önündə zina etmək isə bu əxlaqsızlığa dəvətdir. Lut qövmü məhz bunu edirdi.

***"Şəfəq doğanda o dəhşətli səs onları bürüdü. Onların altını-üstünü çevirdik və başlarına odda bişmiş gildən bərk daşlar yağdırdıq. Bunda düşünüb-daşınanlar üçün, sözsüz ki, neçə-neçə ibrətlər vardır! Həqiqətən, o yolun üstündə hələ də durmaqdadır!" (Hicr surəsi, 73-76)***

(Lut tayfasının məhvi barəsində) əmrimiz gəldiyi zaman o yurdun altını üstünə çevirdik və üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq. Onlara Rəbbinin dərgahında əlamət qoyulmuş (hər daş kimə dəyəcəkdisə, üstünə adı yazılmışdı). O zalımlardan də uzaq deyildir! (Hud surəsi, 82-83)

## *Lut qövmü yoxsa Pompeydəki əxlaqsızlıq ?*

Qədim Pompey Neapol şəhərinin yaxınlığında yerləşir. Vezuvi Vulkanı, İtaliyanın, xüsusən də Neapol şəhərinin simvoludur. Təxminən, 2000 ildən bəri susqun olan Vezuvi "İbrət Dağı" şəklində adlandırılır.

Məşhur Sodom və Homorra şəhərlərinin başına gələn fəlakətlə, Pompey faciəsi bir-birinə çox bənzəyir. Vezuvinin qərb yamacında Neapol, şərq yamacında isə Pompey şəhəri yer alır. Təxminən 2000 il əvvəl yaşanan bir lava və kül fəlakəti, bu şəhərin insanlarını ani bir anda yaxaladı. Fəlakət o qədər ani oldu ki, hər şey 2000 il əvvəl olduğu kimi qaldı. Sanki zaman dondurulmuşdu.

***Eramızın 79-cu ilində Vezuvinin güclü püskürməsi nəticəsində Pompey şəhəri sakinləri ilə birlikdə vulkan külünün və lavanın altında qalıb məhv olmuşdur. 1713-cü ildə təsadüfən bu şəhərin qalıqları aşkar edilmiş və arxeoloqlar tərəfindən şəhər, demək olar ki, qalın vulkan külündən tamamilə təmizlənmişdir. Zəhərli qaz və isti külün təsiri ilə məhv olmuş canlıların qalıqları indiyədək qalmaqdadır. Qeyd edək ki, 200 il müddətində aparılan qazıntılarda 1150 insan qalığına rast gəlinib,***

İmperator Kaliqula öz bacısı ilə sevgili olub. Şəhər əhalisi isə əxlaqsızlığa meyilli olub. Şəhərin 4 bir tərəfində yayılan fahişəxanaları asan tapmaq üçün penis şəkillərindən istifadə olunub. Şəhər əhalisinin 30 %-i isə homoseksual olub.

***Pompey xalqı eyni Lut qövmü kimi cinsi azğınlıqlara yönəlmiş, Allahın əmr etdiyi əxlaqa və həyata zidd bir həyat tərzini seçmişdi. Ancaq onların sonu da Lut qövmü kimi oldu. Çünki Allahın əmrlərinə qarşı çıxan hər bir tayfa, bunun qarşılığını mütləq dünyada, ya da axirətdə alacaq. Bu Allahın bir qanunudur.***







Pompeyin belə bir fəlakətlə yer üzündən silinməsinə əlbəttə, dərs çıxaracaq hikmətlər var.

Tarixi qeydlər, şəhərin yox olmazdan öncə tam bir azğınlıq mərkəzi olduğunu göstərir. Şəhərin ən qabarıq xüsusiyyəti fahişəliyin çox məşhur olması idi.

Ancaq Vezuvinin püskürməsi bir anda bütün şəhəri xəritədən sildi. Hadisənin ən maraqlı tərəfi isə şəhərin gündəlik həyatı içində, Vezuvinin qorxunc partlamasına baxmayaraq, kimsənin qaça bilməməsi və olduğu yerdə donub fəlakətin fərqinə olması idi. Yemək yeyən bir ailə, o andakı kimi eynilə daşlaşmışdı. Çaxnaşmaya qapılanların bəziləri limana doğru qaçmağa başladı, bir qisimi isə özünü evinə bağladı… Limana doğru qaçanları pis bir sürpriz gözləyirdi… Dəniz qabarmışdı, azğın dalğalar gəmiləri lavalara doğru atırdı. Onsuz da göydən də iri qum dənələri şəklində qızğın daşlar yağmağa başlamışdı… Evlərinə sığınanlar isə, sıx kükürd tüstüsündən boğulmamaq üçün özlərini çölə atmaqda, bu dəfə də üzərlərinə yağan daşlarla həlak olmaqda idilər...

Pozğunluq əsnasında daşlaşmış bir çox cüt tapılmışdı. Daha da önəmlisi, bu cütlər arasında, eyni cinsdən olanlar, kiçik oğlan və qız uşaqlar da vardı. Pompey qalıqlarından çıxarılan daşlaşmış insan cəsədlərinin, bəzilərinin üzləri heç pozulmadan qalmışdı. Ümumiyyətlə üz ifadəsi belə dəyişməmişdi. Çünki bu xalq Allahın ayələrində bildirdiyi kimi, "birdən-birə" yox olmuşdu.

***P.S.* *Bəzən insanlar aclıqdan, səfalətdən, təbii fəlakətlərin intensivliyindən, epidemiyadan, qəzalarda ölən insanların çoxluğundan şikayət edirlər.***

***Sizcə, bu toplumlarda homoseksualların (cinsi azlıqlar:geylər, lezbiyanlar) artmasından , açıq-saçıq şəkildə fəaliyyət göstərməsindən, fahişəliyin leqallaşmasından, fahişələrin söz sahibi olmasından, pul və mövqe tutmasından, tərbiyəli və əxlaqlı insanların bir köşəyə sıxışdırılaraq, onu hörmətdən salınmasından, fahişəliyin genişlənməsi üçün qadın alverini genişləndirilməsindən qaynaqlanmır ki? Və sonda :Avropanın boynuna biçilmiş "azad insan haqları" (homoseksuallığın və fahişəliyin) cəmiyyətimizə inteqrasiyası yaxın gələcəkdə bizi Allah qarşısında yeni bir imtahana hazırlamır ki?***

***Hər halda Hicr surəsini,( 73-76) təkrarlamaq xeyrə vəsilə olar.***

**Əntiqə Rəşid**

# *Ürəklər bir olanda...*

**Dərd var ki, tək çəkilmir. Onun böyüklüyü bir qəlbə sığmır. Amma buna baxmayaraq, dərd çəkilməlidir. Həyat öz təbii axarı ilə davam etməlidir. Bu heç də unutqanlıq deyil. Əksinə, insan oğlunun gücünün, doğma torpağa bəslədiyi tükənməz Vətən sevgisinin təcəssümüdür.**

Vətənimiz son müharibədə xeyli sayda şəhid verdi. Rayonundan, kəndindən asılı olmayaraq, ürəkləri Vətən eşqi və doğma torpağa böyük məhəbbətlə döyünən qeyrətli oğullar cavan ömürlərindən keçilər. Torpağı al qanlarına boyayıb şəhid oldular. Vətən yaşasın, sağ olsun deyə.

İndi Vətənin hər yerində şəhid oğulların xatirəsi əziz tutulur, hörmətlə yad edilir. Ruhlarına dualar oxunan şəhidlərin ölməz adları əbədiləşdirilərək, tarixin bir səhifəsinə çevrilir.

Müxtəlif məkanlardan olan şəhid anaları, valideynləri bir-birinin səsinə səs verir,dərdinə söykək olurlar.Artıq Ağcabədi və Masallı rayonlarının şəhid valideynləri arasında sıx əlaqə yaranıb. Bir qayda olaraq ağcabədililər şəhidlərlə bağlı mərasimlərdə iştirak etmək üçün Masallıya yollanır, onlar da yağışa, soyuğa baxmayaraq tez-tez Ağcabədiyə, şəhid ailələrinə baş çəkirlər. Başqalarının dərdinə şərik olan şəhid valideynləri balalarını bir-birindən ayırmır, dərdlərini çəkmək mümkün olsun deyə birləşirlər. Çünki onların oğulları, şəhidlər müqəddəs Vətən, Torpaq uğrunda canlarını fəda etdilər. Onlar ömrə əlvida deyib cənnətə getdilər. İndi azad Vətənin üzü gülür, Torpaq azad nəfəs alır. Bunu bizə canları, qanları bahasına igid, qəhrəman, ölməz həmvətənlərimiz bəxş etdilər. Və biz bu gün bir daha anladıq ki, böyük xalqıq. Vətəni, Torpağı canımızdan artıq sevən bir məmləkətin övladlarıyıq. Onu da dərindən başa düşdük ki, güc birlikdədir. Biz bir olanda hər cür aləmə qalib gələ,qələbə çala bilirik.

...Vətən sağ olsun, şəhidlərimizin ruhu şad olsun!

## *Şəhid anaları ağlamasınlar*

**Ağlama, şəhid anası! Ağlama, ürəyimin yarası. Ağlama dərdimin hamısı. Ağlasan, əriyər gözlərinin qarası, ağrıyar şəhid balanın yarası. Ağlama, artıq, Vətən torpağıdır oğlunun yarası.**

Sən elə oğul böyütdün ki, Vətənin oğlu oldu. Düşmənin gözünü ovdu. Gülləsini torpağımıza göz dikənin düz ürəyindən vurdu. Sənin oğlunun qeyrəti, təpəri nəticəsində dünənədək bizə yuxarıdan-aşağı baxan düşmən özü aşağılandı, ayaqaltı oldu.

Ağlama, şəhid anası! Qoy, getməsin əllərinin xınası. Sən oğul anasısan. Sənin oğlun həyat verdi neçə ömrə. Qalib şəhidin anası ağlamaz. Ağlasan, yaramız sağalmaz.

Sil, gözlərinin yaşını. İndi Vətəndə hamı dik tutur başını...

Sən yaramıza məlhəmsən, sən neçə-neçə sənsən, mənsən şəhid anası. Sən özündən də böyük təsəllisən. Sən Zəfər, Qələbəsən, şəhid anası! Oğlunun bizə əmanət qoyduğu şəhid anasısan. Ağlama anam, ağlama bacım! Ağlama, şirinim, həsrətim, acım... Sən ağlayanda göylər də ağlayır. Ağlama, qoy göylər göynəməsin. Oğlunun ruhu ordan bizi qürurla seyr etsin.

Oğulların şəhid olduqları dövrdən bir il keçir. Analar bir-birinə söykək olur, daha da doğmalaşır. Bir şəhid anasının baxma ki, dərdi başından aşır. Bir az arxaya çəkib öz dərdini, ürəyində başqa şəhid anasının dərdinə yer ayırır. Dərdləri yüngülləşsin, deyə...

Siz qalib şəhidlərin analarısınız. Oğullarınız şəhid oldular ki, canlarını verdikləri, qanlarını tökdükləri Ana torpaq bir ovuc da olsa, böyüsün. Torpaq, Vətən azad olsun, çiçəklənsin. Gələcək nəsillər daha da ürəklənsin. Xalqımız qürurlanıb, fərəhlənsin. Azad yaşasın atalar, analar, oğullar, qızlar. Şəhid oğullar ölümün üzünə güldülər ki, analar ağlamasın. Şəhid anaları ağlamasınlar...

## *Şəhid qardaşlarıma*

**Dünyaya oğullar göz açdılar. Böyüyüb, ərən oldular şəhidlər. Vətənin azadlığı üçün düşmənə sinə gərən oldular. Qanında, iliyində qeyrətin dərin yer saldığı oğulun torpağa, vətənə olan hədsiz, tükənməz sevgisi onu irəliyə, qələbəyə doğru apardı. Bu oğullar müqəddəs vətənin torpaq dərdinə məlhəm oldular. Öz şirin canlarını torpaq yolunda fəda etdilər. Ölümün üstünə gülər üzlə, qorxmadan getdilər. Başımızı uca etdilər, torpaq yarasını sağaltdılar. Ömrün ən uca zirvəsinə yüksəlib şəhid oldular. Qəlbimizdə, zehnimizdə özlərinə unudulmaz, yaddan heç zaman çıxmaz, uçurulmaz bir yuva qurdular. Düşmənin belini qırdılar.**

Şəhid qardaşım doğulduqları bu torpağı o qədər böyük məhəbbətlə sevirdi ki, ömrü, günü bir an belə, onsuz təsəvvür edə bilmirdilər. Torpaq qarı düşmən tapdağı altında inildəyib, ah çəkəndə onun üzü bircə kərə belə, gülməzdi.

Torpaq, müqəddəs vətən torpağı ağ gün görüb, azad nəfəs alsın deyə, oğullar savaşa üz vurdular. Oğullar düşməni yerə vudular. Qələbənin əlini ikiəlli sıxdılar.

Vətənin oğlu qürbətdə, düşmən əlində olan torpaqsız yaşaya, gülə bilməzdi. Getdi alnıaçıq, üzüağ düşmən üstünə. Qartal baxışlı, qeyrət naxışlı oğul "uf!" demədən vuruşdu. Düşməni öldürdü. Qan axıtdı bu torpaq üçün. Yoğurdu al qanı ilə canından çox sevdiyi Torpağı. O, Vətən dediyimiz torpağı o qədər böyük məhəbbətlə sevirdi ki, oğul onun qucağında əbədi yuxuya getmək üçün, isti nəfəsini duymaq üçün sarıldı, qovuşdu bu torpağa. Sarıldı boynuna Torpağın. Şəhid oldu, Vətən dediyimiz Torpağa qarışdı qardaşlar. Torpaqdan ayrılmadılar. Torpaq oldular. Vətən oldular şəhidlər...

**Adil MİSİRLİ**

# *Müğənnidən sonra bu aktrisa da çəkisini azaltdı*

**Britaniyalı müğənni Adeldən sonra çəkisinə və dəyişiminə görə dünyanı təəccübləndirən ikinci adam avstraliyalı aktrisa Rebel Uilson oldu. Son bir il ərzində ümumilikdə 30 kiloqramdan çox arıqlayan avstraliyalı aktrisa yeni görünüşü ilə pərəstişkarlarını da təəccübləndirib.**



Adalet.az xəbər verir ki, bununla bağlı kadrları o, özünün "Instagram" hesabından paylaşıb. 41 yaşlı məşhurun ilbəil dəyişiməsi gözəçarpacaq dərəcədə görsənib.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 137
Çapa imzalanmışdır: 29.10.2021